RÖVŞƏN YERFİ

# MÜQƏSSİR

"Elm və təhsil"
Bakı – 2017

**Redaktor: Tahir Kazımlı**

**Üz qabığındakı**
**rəsmin müəllifi: fransız rəssamı Natali Pikule**

**Rövşən Yerfi. Müqəssir.**
**Bakı, "Elm və təhsil", 2017, 108 səh.**

Bu roman cəmiyyətimizin ictimai bəlasına çevrilmiş, ailə faciələrinə səbəb olan həyat hekayətidir. Həm mövzusuna, həm də yazı tərzinə görə əsərin çağdaş ədəbiyyatımızda mühüm bir hadisə olduğuna inanırıq.

# MÜQƏSSİR

*"Kişi "kişi" olarsa nə qadını, nə qızı, nə də ölkəsinin qadınları yolunu azmazlar!"*

*Şeyx Şamil*

Gözünə yarımqaranlıq böyük, ləpələnən göl görünürdü. Səhərin ala-qaranlığı idi, yoxsa axşam toranlığıydı, ayırd edə bilmirdi. Ləpələrin içində hərəkətsiz, üzü üstə uzanan bir nəfər görürdü, sanki üzürdü. Deyəsən qadın idi. Əynindəki paltarından Əfiqəyə oxşayırdı.

Həyəcandan ürəyi döyündü: ola bilməz, Əfiqə nə vaxtdan üzməyi öyrənib? Özü də paltarla, soyunmadan... Yox, o, Əfiqə deyil, hər kimdisə başqasıdır...

Gücü gəldikcə onu çağırmaq, qışqırmaq istədi. Necə var aydınlaşdırmalı idi. Bu an qolundan tutub silkələdilər:

– Cahid, mənə cavab ver, sonra yenə yatarsan.

Gözlərini çətinliklə açdı, başının üstündə dayanıb ona baxan nəzarətçi Elnuru gördü:

– Yaxşı ayıltdım səni, boğulurdun. Yəqin ki, pis yuxu görürdün...

– Hə, ona oxşar bir şey idi, – Cahid bir anlıq özünə gəlib nəfəsini dərdi.

– Sənin "kubrik" yoldaşın bilmirsən hardadır? Yeri boşdur.

– Bilmirəm. Güman ki, aşağı mərtəbədəki yerlilərinin yanına gedib. Səhər onlardan birinin "srok"u bitib, çarpayısı boşalmışdı.

– Yoxlarıq. Gedirsə də gərək xəbər edəydi. Belə özbaşınalıq olmaz axı. Yaxşı, sən yatmağında ol.

Son vaxtlar tez-tez saat iki radələrində gecə yoxlamaları keçirilirdi. Nəzarətçilər məsul növbətçi olan zabitlərlə birgə barakları gəzib yatan məhkumları sayırdılar. Onlar yatanları diqqətlə, bir-bir sayıb qurtardıqdan sonra zəif közərən gecə lampasını söndürüb barakdan çıxdılar.

Neçə aylar idi Cahid nə qədər acığı gəlsə də, əlindən hirsli olsa da, gün ərzində tək olan kimi yalnız Əfiqəni düşünür, onunla yaşadığı anları xatırlayırdı. Yuxusu qaçdığından xəyalı bir daha o günlərə qayıtdı...

* * *

Sərin payız gecəsi idi. Hüdudsuz səmanın ənginliklərində ulduzlar bərq vururdu. Cırcıramanın həzin səsi gecənin sakitliyinə hakim kəsilmişdi. Yaxınlıqdakı otların arasından gələn xışıltı, xoş təmasdan sonra otların üzərində uzanıb həzz dünyasından ayrılmaq istəməyən Əfiqəni diksindirdi. Gözlərini açıb ətrafa göz gəzdirdi. Ani ağlına gələn fikirdən qorxub yanaşı uzandığı Cahidi qucaqladı:

– Xışıltını eşitdin? Olmaya bizi kimsə güdür?

– Qorxma! – Cahid arxayınlıqla onu özünə sıxdı. – Gecənin bu aləmi camaat yeddinci yuxunu görür. Kimə lazımdır şirin yuxusundan keçib bizi güdsün...

– Bəs hardan gəldi o səs?

– Yəqin qurbağa-filandı, arxın ətrafında gəzişirlər.

– Bəlkə elə ilandı? Bir o qalmışdı ilan gəlib yatdığımız yerdə vursun, biabır olub düşək dillərə. Burax, mən daha qala bilmərəm, gedirəm.

– Nə oldu? Qorxaq olma, qal bir az da, – Cahid yalvarıcı səslə onu buraxmaq istəmədi.

– Yox, – Əfiqə Cahidin qollarını kənarlaşdırıb, ayağa durdu, – bu gecəlik həvəsdi-bəsdi. Uşaqlardan yuxudan ayılan olar. Getdim. Sağ ol. Qismət olsa yenə görüşərik.

O, Cahidin cavabını gözləmədən paltarını tələm-tələsik qaydaya salıb ağacların arasıyla qaranlıq, xəlvəti yolla pəncərəsindən gecə lampasının işığı süzülən evə tərəf addımlayaraq nəzərdən itdi.

«Heyf… Çox qalmadı, – təəssüfləndi Cahid, – ilan olmur, nə olur-olsun, hələ ki, hava işıqlaşmağa xeyli var, yerimdən tərpənən deyiləm.» Əfiqənin bədəninin istisi, ətri hopmuş yeri, otları qucaqladı. Belə görüşlər ona hər gecə qismət olmurdu. Həftələrlə, bəzən isə aylarla görüşə bilmirdilər. Yaxın qonşu olsalar da, Allahdan qeyri hamıdan gizli saxlamaq istədikləri bu “qanundankənar” sevgi görüşünü əldə etmək asan olmurdu. Hər şeyi – günü, vaxtı, tük qədər şübhə yaradan ən ağlagəlməz xırdalıqları yüz dəfə ölçüb-biçmək, narahatlıq içində saatlarla yuxusuz qalmaq lazım gəlirdi. Xoşbəxt anlar bəxş edən, qadağan sayılan oğurluq meyvənin dadı hədsiz şirin olsa da, onu ehtiyatsız dadmaq bədbəxtliklə nəticələnə bilərdi. Kənar bir adamın onları biryerdə görməsi acı sonluq üçün kifayət idi. Özü cəhənnəm, Əfiqənin adına söz gəlməsini və həyatının korlanmasını heç istəməzdi! Əlindən gələni edirdi ki, elə bir şərait yaranmasın, onların sirrini kimsə bilməsin. Amma nə qədər? Hər şeyin axırı olduğu kimi, ən gizlin sirrin də açılacağı gün olacaqdı...

Əfiqə ilə görüşləri başlayandan, daha çox son aylar Cahidin daim fikirli, qaraqabaq olması, evdə hər kəsin diqqətini cəlb etmişdi.

– Ay bala, sənə nə olub, nəyin dərdini çəkirsən? – anası dözməyib bir neçə dəfə qayğılanmışdı. Axır vaxtlar onun

sınıxdığını da müəyyən etmişdi. Yaydan yaya iki uşağı ilə anasına qonaq gələn kiçik bacısı narahatlığa şərik olub xeyli müşahidələrindən sonra torbada pişiyin olduğunu, qardaşının kiməsə vurulduğunu təxmin edərək anasına gözaydınlığı vermişdi.

Əslində, Cahid Əfiqəyə indi yox, ürəyinin sirli döyüntüsünü duyandan vurulmuşdu. Hələ yeniyetmə olanda gözü bu sarışın qızı tutmuşdu. Ancaq, iki yaş böyük olması, yuxarı sinifdə oxuması  ilk günlərdən Cahidin qəlbini ağrıtmış, dünyaya gec gəldiyi üçün özünə, anasına acığı tutmuşdu. Məhəbbətinin uğuruna, qarşılıqlı seviləcəyinə inamı olmadığından uzun müddət susmuş, qızla rastlaşarkən, istək dolu dərdli-qəmli nəzərlərlə baxıb sirrini sinəsində gizləmişdi.

Günlərin birində cəsarət tapıb ona sevdiyini bildirmişdi və daim qəlbini əzən gümanı düz çıxmışdı. Əfiqə əhəmiyyət verməyib, onun sevgi etirafını istehzalı gülüşlə qarşılamışdı.

Həmin istehzalı gülüş yəqin ki, yalnız yaşca kiçik olması ilə bağlı idi. Başqa onun nə eybi var idi ki? O günahkar idimi ki, dünyaya gec gəlmişdi?! Gül, zərəri yoxdur, indi gülən vaxtındır, – düşünmüşdü Cahid, – gün gələr birlikdə gülərik. Allahından arzuladı ki, çox yox, beş-altı il Əfiqəni istəyən, elçi düşən olmasın. Ona imkan versin məktəbi, əsgərliyi başa vursun, sonra görüm Əfiqə necə naz edəcəkdi. Əksinə, yaşlaşıb evdə qarıyacağından ehtiyatlanıb məmnuniyyətlə onun sevgisini cavablandıracaqdı.

Lakin, sən saydığını say... Həyatla arzular eyni olsaydı, yaşamaq xəyallar qədər könülaçan olardı. Əfiqənin məktəbi qurtaran kimi Şamxala nişanlanması xəbəri onun bütün xülyalarını darmadağın etdi... On ildən artıq xarici dövlətin

bazarlarında dolaşan Şamxal Əfiqədən on altı yaş böyük idi. Yaşı otuz üçü keçən, başı daşdan-daşa dəyən Şamxal maddi baxımdan korluq çəkmirdi. Qonşuluqda, bağların əhatəsində torpaq alıb ev tikdirmişdi. Ayağını yerdən götürmək üçün çox da bahalı olmayan avtomobil almışdı. Ilin əksər hissəsini qürbətdə keçirən Şamxalın ipini yığmaq məqsədiylə təzə-tər gülə bənzəyən Əfiqəni tezbazar nişanlayıb toya hazırlaşdılar. Ata-anasının məsləhəti ilə gələcəyinin gözəl olacağını düşünən Əfiqə toyunda xoşbəxtcəsinə gülümsəyirdi. Şamxalın az-çox imkanlı olması aralarındakı yaş fərqini Əfiqənin gözündə mənasız etmişdi. Tezliklə sevib-seviləcəyinə inanan qız, Şamxala ərə getməsinə çox sevinirdi.

O toy günü Cahidin ürəyindən qara qanlar axdı. Məhəbbət oxu daşa dəydiyinə görə bir istədi özünə qəsd edib gözündən düşmüş həyatından, fani dünyadan əlini üzsün. Əvvəlcə iti bıçaq tapıb damarını kəsmək istədi. Ağrıya tab gətirməyəcəyindən qorxub fikrini dəyişdi. Sonra boğazından asılmağa hazırlaşdı. Kəndir boğazını sıxıb nəfəsini boğanda həyatın şirinliyi, yaşamaq eşqi qəzəbinə üstün gəldi. Ürəyində bir səs onu dözməyə, inadından dönməməyə çağırdı. O, Əfiqənin bədbəxt olmasını arzulamırdı. Gəl ki, xoşbəxtliyini də yalnız özü ilə bağlı görürdü. Dünyaya gec gəldiyi kimi, xoşbəxtliyinə də gec nail olacağını ehtimal edib dözməyi, Əfiqənin onun olacağı günü gözlədi. O vaxtdan Şamxalın qonşuluqdakı evi, Cahidin gecə-gündüz gözünü çəkmədiyi, gizlincə həsrətlə baxdığı yerə çevrilmişdi.

* * *

… Hamının daha evinə yığışıb, yad ölkəyə qayıtmayacağını hesab etdiyi Şamxalın toyundan bir həftə keçmişdi,

təzə gəlini gözü yaşlı qoyub yenidən qürbətə yol almışdı. O, uzun illər qərib diyarın həyat tərzinə alışdığından öz yurdunda bir neçə aydan artıq qalıb yaşamağı bacarmırdı.

Şamxal iyirmi beş yaşında atasız qalmışdı. O vaxtdan başı kiçik bacı-qardaşlarının ehtiyaclarına qarışmış, evlənməyə tələsməmişdi. Hamıya kömək olmaq üçün çox işləmək və çoxlu gəlir əldə etmək lazım gəlirdi. Son dövrlər – məmur kapitalizmi çiçəklənəndən xarici dövlətdə işləmək, qazanmaq daha rahat idi. Yaxın, doğma saydığı adamların içərisində irəli düşmək, böyük gəlir əldə etmək asan deyildi. Çünki, düzgünlüklə iş aşmırdı. Saysız-hesabsız məmurların, şəriklərin acgözlüyündən, polisin, verginin yoxlamalarıından yaranan xərcləri ancaq ödəyirdi, xeyrə yer qalmırdı. Səlahiyyətli məmurlara arxalanıb hər qarışı, hər sahəni dədəsinin malı kimi özününküləşdirənlər göz açmağa imkan vermirdilər. Ya onlar üçün işləməliydin, ya da kənarlaşmalıydın. «Hörmət» deyilən addımbaşı rüşvətvermə adamı təngə gətirirdi. Artıq qazancdan ötrü riyakarlıq etməkdən savayı yolun qalmırdı.

Dövr – hiylə, saxtakarlıq, vicdana tüpürülmə dövrü idi... Adamlar vicdansızlaşmışdı, imtina etmişdilər ondan. Varlısı da, kasıbı da haram qazanc üçün ləyaqətsizlikdən utanmırdılar. Yalançılar və sələmçilər at oynadırdılar.

Çox vaxt isə min bir əziyyətlə qazandığını da rahat xərcləyə bilmirdin. Dost-tanış arasında gözü götürməyənlər qazancını ağızlarda o qədər həsədlə, nəfslə «çeynəyirdilər» ki, nəzərə yanaraq ziyana düşüb, gəlirini də itirirdin. Nahaq demirdilər: bu kənddə ala qarğa bala çıxarmaz…

Onun qazancına həsəd aparan ən çoxu öz yaxınları idi: bibioğlu, dayıoğlu, əmi nəvəsi... Rastlaşanda salamdan son-

ra ilk cümlələri belə olurdu: “ ayda nə qədər qazanırsan?” Özünü güclə  saxlayırdı desin, “qazancımın sənə nə dəxli var, soruşmağa başqa sözün yoxdu?” Guya, xətrini istəyib maraqlanırdılar. Doğrudur, inanırdı ki, kimsə onun vəziyyətinin pis olmasını arzulamır, amma heç biri də özündən yaxşı olmasını da istəmirdi. Hərə ən yaxşı, ən yüksək özünü görmək istəyirdi.

Şamxal yəqin etmişdi ki, qəlbən paxıl, üzdə isə qohum-qardaş adlanan bu adamlar qərib torpağın sakinlərindən var-dövlətə qarşı daha həris idilər. Vəzifəsi, sənəti olan hər kəsin amalı insanlara xidmət yox, daha çox pul çırpışdırmaq idi. Oğurluq var-dövləti ilə özlərini oliqarx sayan bu simasız quldurlar lazım gələrsə bir-birini öldürməyə də çəkinməzdilər. Belələri ilə çarpışıb özünə şərait yaratmaqdansa, baş götürüb ona əlverişli olan kənar torpaqda yaşamaq daha rahat görünürdü. Bəzən özgələr əhatəsində qəlbi sıxılanda, Vətən üçün darıxanda, niyə belə olduğunu, heç yerdə əsl vətəndaş ola bilmədiyini ağrı ilə düşünürdü. O, vətənini atmamışdı. Vətənində hər şeyə sahiblik edən “dəstələr” şəxsi xeyirlərinə görə xalqa dönük çıxıb, onun kimilərini də elindən dönük salmışdılar. Niyə qürbətdəki şəraitdən onun ölkəsində yox idi? Olmazdımı vətənində xoşbəxt yaşayaydı? Niyə onun yurdunun insanları qəlbən bir-birini sevmir, mahallara bölünüb yerlibazlıq xəstəliyinə tutulurlar? Özününkündən çox qonağa, yad millətə hörmət edirlər. Baş aça bilmirdi. Bildiyi o idi ki, pul qazanmaq çətin idi. Harda olursan ol, hər yerin öz «qəmbərqulusu» vardı.

Əfiqə Şamxalın uzun-uzadı izahatlarına baxmayaraq belə tez onu atıb getməsinə heç cür haqq qazandırmırdı. Ağlı olan kişi bir həftəlik gəlini tərk edib gedərmi? Şamxa-

lın ona olan istəyi, sevgisi elə bu qədərmiş? Belə də ailəmi saxlayarlar? Arvadını at dörd divarın arasına, özün də çöllərdə. Kişinin kənddə evi, ailəsi var, amma özü yoxdur. Ərinin getməyə hazırlaşdığını bilib əvvəl sözlə etiraz etdi. Yoldaşının niyyətinin ciddiliyini yəqinləşdirəndə gücü ağlamağa çatdı. Anasının iradları da, Şamxalı fikrindən döndərmədi. Toy üçün topladığı pulunun tamamilə xərcləndiyini, ehtiyatının qalmamasından günü-gündən dolanışığın çətinləşəcəyini bəhanə edərək getmək məcburiyyətində olduğunu israr etdi. Burada qalıb işləyərsə çoxlu pul qazana bilməyəcəyinə, əziyət çəkəcəklərinə, yenidən borca düşəcəklərinə inandırmağa çalışıb, üç-dörd aya qayıdacağına söz verdi.

Əfiqə ərinin inadından dönmədiyini görəndə ürəyi sızladı. Əlbəttə yoldaşının nəfəsinə, qüvvətli qollarına təzəcə alışan, ailə həyatının şirinliyini dadmağa başlayan gənc qadın üçün tək qalmaq ağır idi. Yadına bir el məsəli düşdü: qızınmadım istisinə, kor oldum tüstüsünə. Gözüdolusu vüsalı olmamış ayrılıq çağırılmadan özünü soxdu araya! Şamxaldan onu da özü ilə aparmağı xahiş edib yalvardı. Hər çətinliyə dözməyə hazır idi, təki onsuz qalmasın. Lakin Şamxal hələlik birgə yaşayış üçün istədiyi şəraitin olmamasını bəhanə edib Əfiqəni gələn dəfə özü ilə aparacağına vəd verdi.

Həyat yoldaşı olan adamın təcili gedişindən mənən sarsılsa da, çöl-bayırda özünü sındırmamağa, xoşbəxt göstərməyə çalışırdı. Hətta qonşu qızların: -Aaz, ərini nə tez bezikdirdin, səni niyə aparmadı, qaçdı «matışka»ların yanına, – kimi guya zarafatla deyilən, acı, iynəli atmacalarına qürurla cavab verirdi:

– Yox, nə danışırsız. O aparırdı, özüm getmədim. Atam evi üçün darıxıram, yaxınlıqda ola-ola. Qalmışdı dünyanın

o başına gedəm. Ürəyim partlar yadların içərisində. Həmişəlik getməyib ki! Şükür Allaha, işlərini sahmana salıb qayıdacaq. Hələlik nə qədər kənarda olsa, istəyi daha da artar.

“Bu sayaq sevmək, sevilməkmi olar? Özünü kişi sayan kəs doyunca üzünü görmədiyi arvadını atıb çöllərəmi düşər? Demək, o məni sevmir, sadəcə evlənmək xatirinə alıb. Sevsəydi bir-birimizə isinişərkən baş götürüb getməzdi. Qızlar demişkən, uzaq başı məni də özü ilə aparardı. Kim bilir, bəlkə orda başqasını sevir? Ola bilsin arvadı, uşağı da var…” Bütün bu düşüncələr Əfiqənin Şamxala qarşı hisslərində təməli yaxşı qoyulmamış binaya düşən çatlara bənzər izlər buraxırdı. O, bir də nə vaxtsa bu çatın bitişəcəyinə, aralarında istək, sevgi yaranacağını ümid etmirdi. Bu ana qədər həyatın mənasını, gözəlliyini maddi imkanda, varda görməsinə, sevginin yalnız romanlarda olub həqiqiliyini vacib bilməməsinə dərindən təəssüflənirldi. Heç demə insan üçün sevgi də vacib imiş. Ona malik olmaq, qazanmaq isə var-dövlət əldə etməkdən də çox çətin imiş. İndi onun üçün nişan xonçasında gətirilən dəst-dəst bahalı paltarların, qızıl-cəvahiratın heç bir mənası yox idi. Onlardansa divarlar arasında tək qalmayıb, gecələr ərinin isti qolları arasında uyuyaraq, səhərlər xoş nəvazişi ilə ayılmaq, onun məhəbbət dolu baxışları altında yaşamaq, hər gün təmasını hiss etmək daha qiymətli idi. Ümidini kəsməyib, Şamxalın qayıdandan sonra da olsa qüruruna, könlünə vurduğu yaranı sağaldacağına inanırdı.

Şamxal üç-dörd yox, səkkiz aya qayıtdı. O qayıdanda Əfiqə daha təzə gəlin deyil, ana olmağa hazırlaşan, qəlbindəki təklikdən alnına qırış düşən qadın idi. Dediyindən

ikiqat gec gəlsə də qəlbində həyat yoldaşını bağışlamaqdan qeyri yol tapmadı. Nə etməli, gələcək naminə keçəni güzəşt etmək lazım idi. Allahın yazdığı taledən qaçmaq olmazdı. Əksinə, bəxti ilə barışıb, Şamxalın ürəyində olmayan məhəbbəti yaratmalı, onu özəlləşdirməli idi. Bacaracaqdımı?

Az keçmədi ailədə ilk övlad – oğlan dünyaya gəldi. Sevincdən hamının üzü gülürdü. Sanki hər şey öz axarına düşdü. Xoşbəxt günlər başlandı.

Pis günün ömrü az olar, desələr də, yaxşı günün də də sevinci elə uzun çəkmədi. Uşağın iki ayı tamam olmuşdu, Şamxalın köhnə dərdi yenidən təzələnmişdi. Yenə evin yaxınlığından keçib uzaqlara gedən qatarların uzun fiti, təkərlərin taqqıltısı ağlını başından alırdı. O, öz torpağında işləyib yaşamağı bacarmırdı. Yarı canı gəldiyi yerdə qalmışdı. Bir daha qayıtmağının vacibliyini Əfiqəyə anlatmaq üçün dönə-dönə dəridən-qabıqdan çıxırdı. Əfiqə bu söhbətlərin başlanmasından qayğılanıb narahat olsa da, ərinin israrla qayıtmaq istədiyi, darıxdığı diyara bir də dönməsinə çox götür-qoydan sonra razılıq verdi: ancaq onu da özü ilə aparmaq şərti ilə. Nə qədər, o, tək yaşayacaqdı? Yoxsa onu anasına qulluqçu, evinə baxmağa gözətçimi almışdı? Hər ay məvacibini göndərəcək, kefi istəyəndə isə gəlib şəstlə sahibliyini başqalarına nümayiş etdirəcəkdi.

Şamxal çarəsizlikdən etiraz etmədi. Yaxın on gün ərzində yola hazırlıq görüb, ailəsi yanında, sevimli diyarına üz tutdu.

Onları yad şəhərin havası qaş-qabaqla, dumanla, çiskinlə qarşıladı. Şamxalın dost-tanışları qayıdışını həmin gün gözləmədikləri üçün, gəlişindən xəbərsiz idilər. Odur ki, kimsə qarşılarına çıxmadı. Gəldikdəri axşam bir dostu-

nun evində qonaq qaldılar. Səhərisi Şamxal təcili birotaqlı kirayə ev tapdı və şəhərin kənarında yerləşən həmin evdə qərar tutdular.

Qürbətdə yaşadığı birinci gündən Əfiqə gördüyü hər şeyə diqqət yönəldib, buradakı həyat tərzinin qəribəliklərini – Şamxalı cəlb edən cəhətlərini aydınlaşdırmağı qət etdi. Burada yaşayan insanlar arasındakı münasibətlərdə olan sərbəstlik heyrətedici idi. Belə sərbəstlik az qala əxlaqsızlığa bənzəyirdi. Doğrudur, qeybət, paxıllıq, hərislik nəzərəçarpacaq ölçüdə olmasa da, utanmaq, həya etmək, böyük-kiçiklik yox dərəcəsində idi. Hərə öz bacardığı və könlü istədiyi qaydada yaşayırdı. Qadın kişi münasibətləri də bu sayaq idi. Kimin-kimdən xoşu gəlirdi, ələ ala bilirdisə, ətrafdakıları nəzərə almadan niyyətinə çatırdı. Kişilər üçün dostlarının, qohum-qonşularının qadınını, qadınlar üçün rəfiqələrinin ərlərini yoldan çıxarmaq təəccüblü deyildi. Əfiqə Şamxalın dost-tanışlarını bir-bir tanıdıqca, onun uzun illər niyə evlənməməsinin səbəbini başa düşürdü. Bu insanların içərisində normal ailəsi olanı yox idi. Ailələrin əksəriyyətinin rəsmi nikahı yox idi. Bəzilərinin nikahı isə yalnız kağız üzərində olduğu üçün uşaqların əsil atasını ayırd etməkdə analar da çətinlik çəkirdilər. Vaxtaşırı keçirilən qonaqlıqlar, müxtəlif bayramlar və şənliklər zamanı alkoqolun hamı tərəfindən qəbul edilməsi ilə yaranan sərxoş mühit gizli niyyətlərin və sirlərin çoxusunu üzə çıxarırdı.

Kirayə qaldıqları evə gələn, Şamxalın dostları adlanan qadın və kişilər Əfiqənin heç xoşuna gəlmirdi. Onların Şamxalla etdikləri açıq-saçıq zarafatlar, əndazəsiz hərəkətlər hər dəfə əhvalını korlayırdı. Elə bil onlar, xüsusilə qadınlar Əfiqəni görmürdülər. Ya da görmək istəmədiklərindən

keflərindən qalmayıb, onu saymırdılar. O, belə münasibətlərə çox dözə bilməzdi. Ona görə də hay-küylü qonaqlığın birində «davaları» başladı:

– Budur, sənin iş yoldaşların, dostların? Bu ipləmələr, utanmazlar niyə mənim yanımda səninlə mazaqlaşırlar? Yoxsa məni adam saymırlar?

– Əfiqə, canım, əsəbiləşmə. Niyə əsəbiləşirsən, harda görmüsən bazar adamı utansın? Bura belədir, fikir vermə. Olmaya məni qısqanırsan? Yox, bax qısqanclığı yığışdır. Bəri başdan bil. Mənim qısqanclıqla aram yoxdur.

Günlər keçdikcə, tanıdıqları artdıqca Əfiqə ərinin qucağına atılan, boynuna sarılan sayını itirdiyi gözəlçələrin ayrı-ayrı vaxtlarda Şamxalla gəzdiyini, yaşadığını da öyrəndi. Hətta onlardan birinin Şamxaldan qızı olduğunu da eşitdi.

Deməli belə, – Əfiqə bu xəbəri eşidəndə hirslənməyə bilmədi, – deməli, öz torpağından perik düşməsinin, otuz üç yaşınadək evlənməməsinin səbəbləri məlum oldu. O, Şamxala qoşulub gəlməyinə peşman olmuşdu. Kaş kənddə qalıb bunların heç birini bilməyəydi. Əgər o, indi bildiklərini vaxtında anlasaydı, Şamxalın mərmərdən sarayı olsaydı da ona ərə getməzdi. Daha onun heç nəyi gözündə deyildi. Sadəcə sevmək-sevilmək istəyirdi. O, ərinin olduğu kimi, ərinin də yalnız ona məxsus olmasını istəyirdi. Fikri qəti idi. Şamxal ya təkcə onun olmalıydı, ya da heç kimin. Çünki, çoxdan ürəyini qurd kimi gəmirən şübhələri Şamxalın iş adı ilə bəzi gecələr də evə gəlməyib keçmiş gözəlçələri ilə münasibətlərinin davam etdirməsi gümanını doğruldurdu. Yad dili yaxşı başa düşmədiyi üçün, (vaxtında müəllimlərin sözünü qulaqardına vurub yaxşı oxumamağına, indi gec olduğuna təəssüflənsə də) ilk vaxtlar sübut tapmaqda çətinlik çəkirdi.

Nəhayət, içki məclislərinin birində məclisin axırına yaxın qadınlardan Liza çağırılan bir orta yaşlısı söz alıb Şamxal üçün sağlıq dedi:

– Mənim əzizim, daimi sevgilim! Sən evli olsan da olmasan da həmişə mənimsən. Mənim də olacaqsan…

O, əlində badə Şamxala yaxınlaşdı. Ətrafdakılardan kimsə çığırdı:

– Öpüşün! Öpüşün!

Qadın bu atmacaya bənd imiş kimi Şamxalın boynuna sarılıb dodaqlarını dodaqlarına yapışdırdı. Şamxal Əfiqənin yanında oturduğunu xatırlayıb sərxoş qadını nəzakətlə özündən ayırmaq istədi. Lakin içkinin təsiri ilə beyni dumanlanan, ehtiras gözünü tutmuş qadın öpüşlə kifayətlənməyib Şamxaldan əl çəkməyərək onu yaxınlıqdakı otağa tərəf çəkirdi. Əfiqənin qanı qaralsa da Şamxal qonşu otağa girmək məcburiyyətində idi. Onların daxil olduqları otağın qapısı örtüləndə Əfiqə daha tab gətirməyib oğlunu qucağına alıb mənzildən çıxdı.

Kirayə qaldıqları evə yollanan Əfiqə yol boyu heyrətlə düşündü. Bu kiçik şəhərdə yelbeyin qadın və kişilər özlərinə nə ilə haqq qazandıra bilərlər? Insan namusunu belə də ucuz, gərəksizmi edər? Yadına hələ balaca ikən anasının ona danışdığı qəmli xatirə düşdü. Deyilənə görə rəhmətlik bibisi çox gözəlmiş. Xoşbəxt ailə sahibi imiş. Günlərin birində evində tək olan vaxtı cavanlıqda onu sevən gənclərdən biri sərxoş halda, gizlin həmin evə gəlibmiş. Bibisi o gəncin həyasızlığına, otağına girməsinə dözməmiş, ömrü boyu ləkəli qalmaq istəmədiyindən özünü odlamışdı. Yanarkən evə gəlib çıxan əri arvadının bu vəziyyətini görəndə əsəbi sarsıntı keçirib dəli olmuşdu. Ilahi gör bu lənətə gəl-

məli şəhərdə nə qədər özünü odlamalı qadın, nə qədər dəli olmalı kişi tapmaq olardı?!

Gecə yarısı evə dönən Şamxal sərxoş olduğu üçün yatağına uzanan kimi yatdı. Əfiqə acığından nə gecə, nə də səhər onu dindirmədi. Sabahı günü axşam işdən qayıdan Şamxal şirin dilini işə saldı:

– Əfiqə, əzizim, mənə acığın tutub? Boşla sən canın... Sən mənim yerimdə ol neyləməliydim? Gördün ki, Liza sərxoş idi. Başımdan etmək üçün birtəhər yola verməliydim...

– Hə başa düşürəm, sən yazıq ürəklə yox, məcbur oldun. Başqa çarən yox idi, yazıq...

– Məni ələ salırsan?

– Yox, sən məni ələ salırsan. Sənin əgər bu qədər arvadın var idisə, daha məni niyə alıb bədbəxt edirdin? Oturmuşdum da atamın xarabasında.

– Əfiqə düz danışmırsan. Bax, görürsən məni başa düşmək istəmirsən. Yoldaş arası xoş münasibəti anlamırsan. Qulaq as, səni başa salım, elə deyil...

– Bilirsən, sənin bu başa salmaların məni yorub. Indi də məni anlamaz hesab edirsən. Dili təmiz başa düşməsəm də gözüm kor deyil. Eləmi olur sənin yoldaş arası ünsiyyətin? Kim-kim ilə harda gəldi qucaqlaşıb öpüşür, ya da yatır. Bəsdi! – Əfiqə səsini ucaltdı. – Ya sən o gözəllərindən, bazar dostlarından əl çəkirsən, ya da mən səninlə bu sayaq yaşamayacağam.

Əfiqənin sərt tələbi Şamxalın boğazını qurutmuşdu:

– Əfiqə, canım, sən mənim qabağıma belə şərt qoyma. Mən onlarla münasibəti necə kəsim? Bəs mənim işim, qazancım, dolanışığım? Onda gərək bu şəhərdə yaşamayım,

başqa şəhərə köçüm, təzədən özümə iş axtarım. Elə bilirsən iş tapmaq, çörək qazanmaq asandır? Mənim onlardan kənarlaşmağım mümkün deyil. Gərək ən azı çörəyimin xatirinə hərəni bir cür yola verəm...

– Mümkün deyil, olmasın, – Əfiqə onun sözünü kəsdi, – elə isə mən də o sizinlə işləyən, xoşuma gələn oğlanlardan biri ilə yoldaşlıq münasibət quracam...

Şamxal qulaqlarına inanmadı. Eşitdiklərindən heyrətləndi. Bir anlığa ona elə gəldi ki, deyəsən Əfiqə ona meydan oxuyur, duelə çağırır.

– Başa düşmədim, nə dedin?

– Nə eşitdin, onu da dedim! Nədi, sənə olar, mənə yox? Lap yaxşı, onda mən də yaxınlarda qoşularam sizin insansevər dəstənizə!

Şamxal onun tərəddüdsüz söylədiyi son sözlərindən az qala partlamaq dərəcəsinə çatdı. Qəzəbindən gözləri hədəqəsinədək genişləndi: Əfiqəni tanıya bılmirdi. Tamam dəyişib sanki, cinə, şeytana çevrilmişdi. Bu da kəndin sakit, dilsiz, yeniyetmə, təcrübəsiz qızı. Əfiqəni belə tez nə dəyişdirdi? Yaşadığı zamanə, yoxsa üstündə gəzdiyi lənətə gəlmiş torpaq? Araşdırmağa hövsələsi çatmadı:

– Sən deyəsən qudurmusan, – deyib arvadının saçından yapışaraq otaq boyu sürümək istədi. Dəyən zərbələrdən özünü qorumaq üçün Əfiqə stolun üstündəki çörək doğrayan bıçağı götürüb ərinin qarşısını kəsdi.

– Sən üstümə bıçaq çəkirsən? Vur da, nə gözləyirsən? – Şamxalın ağzı köpüklənmişdi.

– Bıçaq heyifdi sənə, üstümə gəlmə, özümü vuracağam....

Əfiqənin bıçaq tutan əli həyacandan əsirdi. Evdəki gərginliyi duyan körpə Samirin ağlayıb anasına sarılması,

Əfiqənin bıçağı sıxdığı əlindən axan qan Şamxalın özündən çıxmasının qarşısını aldı:

– Burax bıçağı, axmağın biri, – o bıçağı yoldaşının əlindən alıb kənara atdı. Cib dəsmalını çıxarıb bıçağı götürəndə əsəbindən əlini yaralayan Əfiqənin yarasını sarımaq istədi. Onu acıqla kənara itələyən arvadı uşağı qucaqlayıb hönkürdü:

– Lazım deyil sənin köməyin. Axmaq o gün oldum ki, sənə gəlməyə razılıq verdim. Kül başıma, gör kimə ərə gəlmişəm...

Evdə qərar tutmayan Şamxal o gecə dostlarının mənzilində gecələdi. Əfiqə ilə evlənməyinə peşman olmuşdu. Niyə, o, bu qızı tanımadan almışdı? Ona sözə müti, ailəcanlı, ərinin qulu olan qız gərək idi, yoxsa bunun təki onunla şərt kəsən yox. Ər kimi arvadının bütün ehtiyaclarını ödəyirdi. "Nəyi çatmır? Bəlkə bütün ixtiyarımı da ona verim? Xeyr, onu görməyəcək. Mənim kimi sərbəst yaşamağı xəyalına belə gətirməsin. O da mənim qədər sərbəst olacaqsa, daha onu niyə alırdım? Elə bazardakılardan biri ilə evlənərdim, mən də olardım adı olub, özü kişi olmayanlardan birisi"...

Bu hadisədən sonra Şamxalın özünə və Əfiqəyə bir qədər nəzarəti artdı. Həmişə iştirak etdiyi məclislərdən uzaqlaşdı. Yaşadığı evə daha kimisə dəvət etmədi. Əfiqənin hədəsini hər dəfə xatırlayanda ürəyini ağrıdan qorxular ona rahatlıq vermirdi. O, Əfiqənin gizlincə kiminləsə sevişəcəyinə inanmasa da, nəzarətdə saxlamağı da vacib sayırdı. Qadın şeytanın yerdəki nümayəndəsidir, qəlbindəkini bilmək olmaz, – düşünürdü, – əgər onun hansısa kişi ilə münasibəti olduğunu bilsəm ya öldürəcəyəm, ya da kəndə qaytarıb boşayacağam, – yəqin etmişdi.

Əslində isə Əfiqənin belə niyyəti yox idi. O, Şamxala acıq vermək üçün hədələmişdi, heç olmasa bu yolla ona təsir etmək, evə yığmaq istəyirdi. Doğrudur, Şamxalla davalaşandan sonra özünü aparması dəyişmişdi. Amma onun yenə köhnə tanışları ilə görüşməkdə davam etdiyini qadın fəhmi ilə duyurdu. Üzdə məcbur olub barışsa da, daxilində barışa bilmirdi. Daim özünü alçaldılmış, təhqir edilmiş hesab etdiyindən özü ilə yoldaşı arasında gündən-günə gözə görünməyən uçurumun əmələ gəldiyini görürdü. Bətninə düşən körpənin də yaranmış uçurumu yox etməyə gücü çatacağına inamı az idi.

Ikinci uşaq doğulandan sonra Əfiqə daha yadlar içərisində yaşamaq istəmədi. Şamxaldan onu kəndə qaytarmağı xahiş etdi. Onsuz da burda özünü tənha hiss edirdi. Aylar keçsə də ər-arvad münasibətləri qaydaya düşmədiyinə görə, özgə adamlar kimi yaşamaqdansa, doğma yurdunda, öz evində yoldaşının qəlbə toxunan hərəkətlərini görmədən uşaqlarını böyütmək istəyirdi.

Belə ailə həyatı Şamxalı da yormuşdu. Əfiqənin onu özünə tabe etmək istəməsi, bazarda uğurlu fəaliyyətinə kömək olan biznesmen qadının – Lizanın ondan əl çəkməməsi əhvalında gərginlik yaratmışdı. Nə edəcəyini dəqiqləşdirə bilmirdi. Əfiqə inadından dönməyib vəziyyətlə barışmaq, onu başa düşmək istəmirdi. Evdəki qanqaraçılıq lap zəhləsini tökmüşdü. Bəzən acığından evə sərxoş vəziyyətdə gəlir, Əfiqəni söyüb təhqir edirdi. Bir neçə dəfə onu ətrafda yaşayan yad kişilərə qısqanıb döymək istəsə də, ciddi əsası olmadığından və uşaqlarının həmin an bir-birinə qarışan ağlaşmasını görüb əlini saxlamışdı. Əfiqənin xahişi yerə düşmədi. Bu söhbətdən üç ay keçmiş, Şamxal ailəsini

də götürüb kənddəki evinə qayıtdı. Iki həftədən sonra yenidən geri qayıdaraq, uzun illər alışdığı həmişəki həyatına qovuşdu.

Əfiqə də evinə qayıtmasına sevinirdi. Üç-dörd küçə aralı olmasına baxmayaraq valideynləri, baldız və qayınları yaxınlıqda yaşayırdı. Kiçik oğlunun evində qalan qaynanası da tez-tez gəlib baş çəkir, çətinliyi artanda əl yetirib kömək göstərirdi. Ona daha nə lazım idi ki onsuz da həmişə aldadıb gəzən, başqasının qucağından durub üstünə sərxoş gələn Şamxalla yaşamaqdansa, qulağı dinc, əsəbləri sakit balalarını saxlamaq yüz qat yaxşı idi. Onu ərə xoş gün görmək üçün vermişdilər. Xoş günü görməyəcəksə, neynir o əri?! Qoy getsin o bazar, o gözəlçələr, nə qədər istəyir, yaşasın onlarla. Təki vaxtlı-vaxtında balalarına pul göndərsin. Nə vaxt oranı birdəfəlik atıb gələr, onda Şamxalı qəbul edər. O vaxtadək isə tək, kişisiz yaşayacaqdı.

Lakin dildə demək asandı. Günlər keçdikcə, aylar ötdükcə kişisiz yaşamağın sıxıntısını ürəyində hiss edirdi. O, kişi təmasının nə olduğunu bilməsəydi, qız qalsaydı, yalqızlığın əzabını ola bilsin bu qədər duymazdı.

Allah qadını deyil, kişini ilk insan yaratmışdı. Sonra qadını kişi üçün dünyaya gətirmişdi və həyat bu həqiqətin üstündə qurulmuşdu. Dərk edirdi ki, qadınsız həyat mümkün olmadığı kimi, kişisiz də qadın – qadın kimi yaşaya bilməz. Canlı müqəvvaya dönüb yeyər-içər, könlünü alan olmadığı səbəbindən özünü nə qədər məğrur aparsa da, içində yetim, kimsəsiz olar. Bu ehtiyacı duymaq heç də günah deyildi. Çünki Allah onu qadın yaratmışdı, təbiətin yazılmamış qanunu, tələbi var idi.

Əfiqə yaşa dolduqca heç bir qadının dilinə gətirmədiyi, ancaq qəlbən hiss etdiyi həyat həqiqətlərini anlayaraq

taleyinə acıyırdı. Niyə belə oldu? Kimi qınasın? Ağlı kəsmədən onu ərə verən ata-anasını, alın yazısını, yoxsa... Artıq gec idi. Günahkar axtarmağa dəyməzdi. Elə olmazdımı onun da qismətinə nazını çəkən, qədrini bilən, yorulmadan sevən bir kişi payı çıxaydı? Həyatın min əzabına dözərdi. Bilərdi ki, özündən savayı kiməsə lazımdı. Indi onun üçün yaşamağa haqq verən iki uşağından başqa kimsə vardımı? Şamxal ürəyində yer tutardı, əgər onu qırmasaydı. Ürək də qab deyil ki, qırılanda yapışdırmağa cəhd edəsən. Yapışdırılsa da o bütöv sayılmır, həmişəlik qırıq olaraq qalır. Görünür, qisməti beləymiş: əri ola-ola ərsiz yaşamaq. Bu da taleyin bir cür istehzasıymış... Nə etməli, Allahın altında onu sevən kişi – həyat yoldaşı olmadı. Indi qonşuluqda yaşayan Cahid istisna ola bilərdi, zamanında ağlı olsaydı... Yadındadı, onuncu sinifdə oxuyanda iki sinif aşağıda oxuyan Cahid qorxa-qorxa ona sevdiyini demişdi. Əfiqə əhəmiyyət verməyib lağ etmişdi: “Mənə nə olub ki, özümdən kiçiyə baş qoşum. Qocalmamışam ki?” Cahidin sevgisini uşaq məhəbbəti sayıb rişxəndlə gülən Əfiqə il yarım sonra on altı yaş böyük Şamxalın elçi düşməsinə də heyrətlənmişdi. Onu tez ərə verməyə çalışan ata-anası susqunluğundan istifadə edib elçilərə razılıq vermişdilər. Gəlin köçən günədək, qarabaqara arxasınca sürünən Cahid onu harada görsəydi gözünü çəkməzdi. Kiçik olduğuna görə kimsə baxışlarına əhəmiyyət verməzdi. Təkcə Əfiqə o nəzərlərin mənasını bilib, özünü görməzliyə vurmuşdu. Ərə gedən gündən isə dəyərsiz bir xatirə kimi Cahidi unutmuşdu.

Şamxal onu kəndə qaytaran ilin payızında bir gün Cahidin əsgərlikdən gəldiyini eşitdi. Cahidin anası oğlunun gəlişi münasibətilə hazırlanmış məclisə onu qonşu kimi dəvət

etmişdi. Əfiqə əvvəl Cahidlə rastlaşacağından ehtiyatlanıb, məclisə getmək istəmədi. Istəmirdi Cahid onun xoşbəxt olmadığını duysun. Sonra özünü qınadı, getməsə qonşuluqda pis çıxar, anası inciyər. Altı ildən çox vaxt keçmişdi. Ola bilsin ki, Cahid keçmiş sevgisini çoxdan unudub, daha başqasını sevir. Bəlkə də indi onu görüb o zamankı hisslərinə görə utanacaq, – fikirləşdi.

Tərs kimi çəkindiyi hal baş verdi. Uşaqlarını yanına alıb, "gözaydınlığına" gələn Əfiqə həyətdə Cahidlə görüşəndə səbəbini bilmədən sıxıldı. Hətta bir anlıq özünü itirdi. Cahidin sifət cizgiləri, boy-buxunu dəyişsə də baxışları dəyişməmişdi. Gözlər həmin gözlər idi. Gözlərinin dərinliyində gizlədiyi, üstünü örtə bilmədiyi kədəri Cahidin duyduğunu hiss etdi. Tez nəzərlərini qaçırdı. Sevinə-sevinə qabağına gələn anasına tərəf addımlayıb, dil-ağız etdi:

– Əminə xala, gözün aydın, oğlun sağ-salamat evinə qayıdıb.

Onun sıxıldığını hiss edən Əminə arvad qucaqlaıb yanaqlarından öpdü:

– Aydınlıq içində olasan, qızım! Gün o gün olsun ki, sənin oğlun da əsgər gedib, sağ-salamat qayıtsın. Gəl, gəl keç evə, utanma, özünü evindəki kimi apar. Ay Allah sizi saxlasın!

O, Əfiqənin uşaqlarını da öpəndən sonra onları evə keçirdi. Əfiqə məclisdən çıxanadək Cahidlə bir daha üzbəüz gəlməməyə çalışdı.

Evə qayıdan kimi özünü xeyli məzəmmətlədi: xeyr ola onun gözlərinə baxdı? Axı, o, indi subay qız deyil, ailəsi var, yanında olmayıb kənarda yaşasa da.... Bir halda ki, Cahidi sevmir, bəs hansı hiss onu yoldan çıxartdı? Olmaya

özü də bilmədən ürəyinin dərinliklərində Cahidə qarşı gizlin rəğbət yaranıb?..

Xeyli vaxt onu xatırlamamağa, unutmağa səy göstərdi. Lakin alınmadı. Günlərin birində evin qarşısında əkdiyi bostanı növbəti dəfə suvarmaq üçün qonşu məhəllədən gələn arxı qoşmağa gedərkən yolda Cahidlə rastlaşdı. O, dilucu görüşüb aralanmaq istəsə də, ətrafda heç kimin olmamasından ürəklənən Cahid kənarlaşmadı:

– Salam! Xoş gördük, necəsən? Danış görüm xoşbəxtsənmi, həyatından razısanmı?

– Əlbəttə! Nəyim çatmır ki?

– Allah xoşbəxt eləsin. Yaman dəyişmisən, – özünəməxsus mənalı baxışlarla süzdü.

– Elə sən də. Xeyli böyümüsən.

– Böyüyüb sənə çatmışam, yoxsa yenə məni kiçik sayırsan?

– İndi bunun nə fərqi var? Könlünə xoşdursa daha özünü kiçik hesab etmə. Elə düşün ki, sən hamıdan böyüksən.

– Mən böyük yox, səninlə yaşıd olmamağıma yanıb tökülürdüm. Gülürsən, ancaq yalandan gülürsən, gizlədirsən... Amma mən bilirəm...

– Nəyi? – Əfiqə gülüşünü saxlayıb tutuldu.

– Dərdini ört-basdır etməyini.

– Yalandır, mənim heç bir dərdim yoxdur. Bunu hardan icad etmisən? – Əfiqə hirsləndi.

– Əsəbləşmə, səni acıqlandırmaq üçün demədim. Dedim biləsən ki, illər ötsə də mən yenə sənin könlünü oxumağı bacarıram.

– Özündən çox razısan. Sənə elə gəlir. Yəqin təxmin edirsən. Toxuyursan özünçün…

– İnandırım səni? Gəl belə eldək, səni inandırmaq üçün bir dəfə imkan tapıb sakitlikdə görüşüb dərdləşək...

– Sən nə danışırsan. Indi mənə görüş yaraşır?..

– Qulaq as, – aralıdan onlara yaxınlaşan adama işarə edib sözünü qısaltmağa tələsdi, – gecə ikidə həyətə çıxarsan, sənə sözüm olacaq. Oldumu?

O, eşitdiklərindən özünü itirmiş, nə deyəcəyini bilməyən Əfiqənin cavabını gözləməyib, uzaqlaşdı. Əfiqə yox demək, etiraz etmək istədisə də səsi çıxmadı. Sanki lal olmuşdu.

...Hava qaralıb gecə düşəndən Əfiqə ilanvurana dönmüşdü. Fikirdən, əsəbdən çatlayır, nə edəcəyini qərarlaşdıra bilmirdi. Necə oldu Cahidlə rastlaşdı? Niyə ona kobud cavab qaytarıb başından rədd eləmədi? Əksinə, onun çağırışına razılıq əlaməti kimi heç nə deməyib susdu. Iki uşaq anasına, ərli qadına yaraşarmı gecənin bir aləmi kimləsə görüşsün? Bu nə işdi başına gətirir? Heç qızlığında Cahidlə gizlin görüşə razı olmamışdı. Baxmayaraq ki, iki ilə yaxın Cahid onu hər yerdə izlədi, dəfələrlə qarşısını kəsib görüşə çağırdı. Ancaq gülməkdən qeyri kəlmə kəsməyən Əfiqənin ürəyində gizlin maraq oyansa da qüruru ucbatından görüşə çıxmadı. Ümid edirdi ki, bir gün yorulub fikrindən daşınacaq. Lakin daş qayaya rast gəlmişdi. Cahid inadından dönməyib onu gözdən qoymurdu. Günah özündəydi. Bir neçə kəsərli söz deyib oğlanı fikrindən daşındırmaqdansa, dinməyib elə hey gülümsəmişdi. Oğlanı tərsliyindən usandırmayan elə bu ağılsız gülüşü oldu, bəlkə də. Belə çıxır ki, indi o dövrdəki sadəlövhlüyünün cəzasını çəkməliydi. Yox, necə var bu məsələyə son qoymalıydı. Eşidib bilən nə deyərdi? Biri Cahidi qınasa, beşi onu günahkar sayardı.

Cahidə nə var, beyni isti, cavan, subay oğlandı, itirəcəyi heç nəyi yoxdu. Nəyi var ki, nə də itirsin, gələcəyi hələ irəlidəydi. Görüşərsə, bəs özünün aqibəti necə olacaqdı?

Fikirlər sinəsini didib dağıdırdı. Saatın əqrəbləri ikiyə yaxınlaşdıqca ürəyi sıxılır, nəfəsi daralırdı. Dəqiq bir qərara gəlməliydi: ya otağın işığını söndürüb yatmalı, onu saymamalı, ya da həyətə düşüb qovmalıdı. Ən rahatı qarşısına çıxmayıb adam yerinə qoymamaqdır. Işıqları söndürüb başını balışa qoyaraq yatacaq. Qoy o nə qədər istəyir gözləsin. Lap səhərədək...

Əfiqə düşündüyü kimi etdi. Evin işığını söndürüb yatağına girdi. Gözünə yuxu getmirdi. Yanaşı çarpayıda yatan, şirin yuxuda olan uşaqlarına baxdı. Beynində müxtəlif fikirlər dolaşırdı. Rahatlığı pozulduğundan yatağında uzun müddət tab gətirə bilməyib yerindən qalxdı. Fikri həyətdə qalmışdı. Görən Cahid gəldimi? Əgər gəlibsə və kimsə onu kənardan görərsə haqqında nə deyərlər? Yaxşısı həyətə çıxıb bu ağıldankəmə bir-iki kəlmə ağır söz deyib həyətdən çıxartmaqdır. Yoxsa adətkar olub iki gündən bir gəlib onu camaat arasında xar edəcəkdi.

Pəncərədən həyətə göz gəzdirdi. Həyətdə ağacların altında kölgəni görcək ürəyi əsdi. Bu o idi, gəlmişdi, onu gözləyirdi. Əfiqənin həyəcandan nəfəsi kəsilirdi. Tərəddüdlər başını gic etmişdi. Özünü ələ alıb, həyətə çıxdı.

Hasarı aşıb həyətə girən Cahid tut ağacının altında dayanmışdı. Əfiqəni görcək sevincdən gözləri parıldadı. Uşaqsayağı atılıb düşmək istədi. Deməli, uzun illər əbəs yerə iztirab çəkməyibmiş. Çəkdiyi cəfaların nəticəsində, nəhayət Əfiqəni yumşaldıb könlünü alacaqdı, arzusuna çatacaqdı.

Özgə həyətində dayandığını dərk etdiyindən, qarşısına getmək könlündən keçsə də işıq düşən sahəyə addımlamayıb qaranlıqda Əfiqənin yaxınlaşmasını gözlədi.

– Əfiqə, salam.  xoş gəlmisən, səfa gətirmisən! Gecən xeyirli olsun. Necəsən?

Əfiqənin gəlişindən sevinən Cahidin ürəyi sinəsinə sığmırdı. Minnətdarlıq dolu baxışlarla onu xeyli süzdü. Amma Əfiqənin üzündə nəinki sevinc var idi, heç adi əhvalı da yerində deyildi. Xəstə adam təsiri bağışlayırdı. Lal-dinməz duruşu Cahidi həyacanlandırdı:

– Əfiqə, nə olub sənə? Gözümə birtəhər dəyirsən. Xəstələnibsən?

– Nə olmalı idi ki, gözlə-qaş arasında məni ovsunlayıb görüşə çıxartdın. Indi de görüm nə istəyirsən? Niyə gəlmisən qapıma? Məni biabır etməyə?

– Əfiqə, qulaq as, elə deyil...

– Istəyirsən ki, məni bədbəxt edib, ailəmi dağıdasan?

– Yox, nə danışırsan? Ölərəm, dünyasında elə iş tutmaram ki, sənin bədbəxtliyinə səbəb olam. Əksinə, ağlım kəsəndən arzum səni xoşbəxt görməkdir. Inan Allaha, ürəyim istədi səni görəm, söhbətləşək, dərdləşək. Neynim, özün bilirsən səni necə sevirəm. Ha çalışdım unudam, bacarmadım. Indi mən sənə demirəm ki, gəl ərini at, ailəni dağıt məni istə. O, sənin şəxsi işindir. Istəyirəm sən biləsən ki, mən səni yenə sevirəm. Sən tək deyilsən, hər an nə çətinliyin olsa mənə güvənə bilərsən. Nə vaxtadək ağlım dəyişməyəck, həmişə səni sevəcəyəm, sən sevməsən də. Inanıram ki, zamanı gələcək mən istəyimə yetəcəyəm, sən də məni  sevəcəksən.

– Bəsdir sağlıq deyib, beynimi apardın. Sən ağlını çoxdan itirmisən, xəbərin yoxdu.

– Hə, düz deyirsən,  səni sevdiyim gündən...

– Əgər məni sevirsənsə məni sakit burax. Bir də gəlmə bu həyətə. Eşitdin? Unut məni. Yaxşıdı, pisdi, hər nədi, öz taleyimi yaşamaq istəyirəm. Mənə mane olma...

– Əfiqə, həyətinə gəlməyimi «mane» hesab edirsənsə, gəlmərəm. Gəl ki, düzünü deyim unutmağı bacarmayacağam. Hasarı aşmayıb, bax, orada evlə üzbəüz ağacın altında oturub, daim səni düşünəcəyəm. Nə vaxt səsləsən yanında olacağam, nə qulluğun olsa çəkinmə.

– Yaxşı, daha get. Bizi kimsə görə bilər. Indi səninlə danışmağa əhvalım yoxdur. Gərək olsan çağıraram. Get Allah xatirinə....

Əfiqənin yalvarış dolu titrək səsi Cahidi kədərləndirdi. Başını yerə dikib dinmədi. O, səhv etdiyini düşünüb gəlişinə peşman oldu. Söhbət uzanarsa səsinin titrəməsindən Əfiqənin kövrəlib ağlayacağını duyub üzrxahlıq etdi:

– Bağışla, səhvimi... Bağışla....

Sonra dönüb qaranlıqda yox oldu. Əfiqə yerində donub qalmışdı. Kimin səhv, kimin düz hərəkət etdiyini özü də anlamırdı. O, Cahiddən həyətindən getməyi tələb etsə də onun gedişindən qəmləndi. Nə üçün belə etdi? Içindəki qarmaqarışıq fikirlərdən sualına cavab tapmadı. Illərdən bəri sinəsinə qalanmış iztirablar qapanıb toplandığı qəfəsdən qurtulmaq üçün yer axtarırmış kimi boğazına yığılaraq nəfəsini kəsirdi. Hıçqırtısının eşidilməməsi üçün əli ilə ağzını tutub cəld addımlarla həyətdən otağına qayıtdı. Içəri girməyi ilə özünü yatağa atdı. Daha dayana bilmədiyindən səsini boğmaqdan ötrü ağzını yastığa dayayıb için-için ağladı. Bu nə tale idi, Allah ona bəxş etmişdi?

Cahid günahkarcasına başını yerə dikib uzaqlaşanda bəlkə də həyatında ilk dəfə özünə yazığı gəldi. Gecənin qa-

ranlığında tək qalan Əfiqə keçirdiyi yalqızlıq, təklik hisslərindən üşünüb Cahidi geri çağırmaq istədi. Səsi içində qırılıb qaldı. Içini çulğalayan qəfil bu duyğu onda görəsən nədən yarandı? Olmaya Cahidi inkar edə-edə ürəyinin dərinliklərində özündən xəbərsiz ona qarşı ehtiyac hissi əmələ gəlib? Yoxsa bu "yöndəmsiz", qəlbindəki boşluqdan yararlanıb ora xəlvəti daxil olub?

O gecə səhərədək Əfiqə tərəddüdlər içində çapaladı. Nə qədər belə yaşayacaqdı? Qalan ömrü də bu qaydada keçəcəkmi? Gah Şamxalı, gah Cahidi, gah da özünü yamanlayıb qınadı.

Tutaq ki, bu gecə Cahidlə söhbət edib dərdləşsəydi, yenə yaxın gecələrin birində görüşəcəklərini qərara alıb ayrılacaqdılar. Odla pambığın nə yoldaşlığı? Bir gecə ayılıb özünü Cahidin qucağında görəcəkdi, vəssalam! Bu da külli aləm tərəfindən hesab ediləcəkdi xəyanət. Lakin bu xəyanət necə oldu, niyə oldu, kimsəni maraqlandırmayacaqdı....

Onun normal ailəsi olsaydı kimin cürəti çatardı həyətinə girsin? Neçə illər arxasınca sürünməsinə baxmayaraq, doğrudanmı Cahid onu sevirdi? Ola bilsin ki, bu sevgi deyil, adicə məqsəd idi. Istəyinə çatıb bir müddət əylənəndən sonra özü də səhv etdiyini etiraf edəcəkdi. Axı onunla necə xoşbəxt ola bilərdi? Onlar kimsəsiz adada yox, məxsusi qayda-qanunları olan cəmiyyətdə, insanlar içində yaşayırdılar. Ərdə olmuş iki uşaq anası ilə baş verən izdivaca kim xeyir-dua verərdi? Cahidin valideynləri, yoxsa öz ata-anası? Xeyr, baş tutan iş deyildi. Yaxud Şamxalın acığına xəlvətdə xəyanətlə yaşayıb, aşkarda vəfalı arvad ola biləcəkmi? Bəs gizlin görüşlər bir gün məlum olanda nə edəcək? Hələ Şamxalgilin ailəsi, özü eşidəndə Allah bilir, Cahidlə

onun başlarına nə oyunlar açardılar. Xəbər qulağına çatanda dəli kimi kəndə gəlib, uşaqları əlindən alacaq, ona və Cahidə ömürlük düşmən kəsiləcəkdi. Heç kim soruşmayacaqdı ki, sən ailə istəyən "yaramaz", niyə evindən didərgin düşüb, illərlə xəyala dönmüşdün. Əksinə, deyəcəkdilər ki, kişinin başı çörək qazanmağa qarışıb, arvad da yolunu azıb. Yalansa kişinin başı batsın.

Belə çıxırdı ki, düşdüyü vəziyyətə boyun əyməkdən , tabe olmaqdan başqa yolu yox idi. Şamxal qocalanadək onun üçün uzun illər övlad saxlayıb, evinin keşiyini çəkməli idi. Gözləməliydi nə vaxt ağır bir xəstəliyə düçar olacaq, ya da tamam əldən düşəcək, onda minnətlə evinə qayıdıb kişilik edəcəkdi. Bəlkə də heç sağ qayıtmayacaqdı. Azmı olur pul üstündə bir-birlərini qırıb odünyalıq edirlər. Kim bilir, sabah başına nə iş gələcək? Bir tərəfdən də üstündə gəzdiyin torpaq doğma yox, qürbət ola... Demək ona həyatın zərbələrinə dözüb növbəti "hədiyyələri"ni gözləmək qisməti yazılıb.

Həyatdan kam almadan yaşamaq... Bu həyatdı məgər? Gözün görə-görə ömrün puç olub gedir. Elə bil yaşamırsan. Özünü daxilən ölü hiss etsən də, ətrafındakılar sənin yaşadığını zənn edirlər. Və sən başqalarının gözündə ölməməkdən ötrü yeyib-içib, nəfəs alırsan.

"Axı, mən də insanam, mənim də qadın kimi xoşbəxt olmaq haqqım var"... O gecədən sonra Əfiqəni bu sayaq düşüncələr günlərlə, aylarla rahat buraxmadı. Daim fikirlə yaşadığından sifət cizgiləri dəyişmiş, baxışları qayğılanmışdı. Alnında, gözlərinin ətrafında yeni qırışlar əmələ gəlmişdi. Qəlbinin narahatlığı xasiyyətinə də təsir etmiş, əsəbi olmuşdu. Uşaqların əvvəllər əhəmiyyət vermədiyi adi

hərəkətlərinə, indi dözməyib çığırır, hirslənəndə səsi bütün evi başına götürürdü. Saatlarla deyinib, ətrafına qarğıyırdı. Bəzən isə əlinə keçən qab-qacaqdan birini sındırar, ya da uşaqlardan hansınısa tutub yançaqlarını döyüb hirsini soyudardı.

Bir dəfə yenə qəzəbindən:

– Ay yetimlər, ay atalı yetimlər. Atanız günümü az qara edib, hələ bir sizi də canıma calayıb? Nə istəyirsiz? Imkan verin də yaşayım? – deyib ağacdan qırdığı çubuqla uşaqları döydü. Böyük oğlu artıq ağlıkəsən idi. Ağlaya-ağlaya boynunu qucaqlayıb soruşdu:

– Ana, sən deyirdin bizim atamız var. Bizə niyə yetim deyirsən?

Uşağın sözləri Əfiqəni doluxsundurdu. Sinəsinə sıxıb başını tumarladı. Gözünün yaşını silib dinməsə də dediklərinə peşman oldu. "Doğrudan da uşaqların nə günahı var, – fikirləşdi. Əslində onlar da yazıqdırlar. Əməlli başlı ata nəvazişi də görmürlər. Barı mən onları incidib qəlblərini yaralamayım". Belə olanda qüssədən xəlvəti bir guşəyə çəkilər, doyunca ağlayaraq boşalıb yüngülləşərdi. Bu da bir cür həyat idi....

Əfiqənin xasiyyətinin getdikcə dəyişməsi, sərtləşməsi qonşularını, tez-tez yanına gəlib gedən ata-anasını, qaynanasını, baldızını – hamını heyrətləndirmişdi. Hamıdan çox ona ürəyi yanan anasını dərd götürmüşdü. Gülərüz, xoşsifət qızını tanıya bilmirdi. Düzdür, Şamxal onu kənddə qoyub gedəndən bəri bir az fikirli olmuşdu. Bəs bu əsəbilik, dözümsüzlük haradan çıxdı? Bəlkə tək qadındı, özü də bilmədən nə vaxtsa, nədənsə qorxub, sarsıntı keçirib? Ya da cin, şeytan ona xətər yetirib? Gərək mütləq onu molla yanına aparsın.

– Qızım, sənə nəsə olub. Sən belə deyildin. Ya qorxubsan, ya da ev-eşiyinə nəfs toxunub. Gəl mənə qulaq as, əli, duası səbəbli olan bir molla var. Aparım səni onun yanına, baş-beynin bir az təmizlənsin, əhvalın düzəlsin.

– Ana, bilirsən nə var? Onsuz da ömrümü zay, başımı xarab etmisiniz...

– Biz sənin ömrünü zay, başını xarab etmişik?

– Bəsdirin, vaxtında başımı dəng edə ərə verib ağ günə çıxartdınız, indi də əl çəkin məndən. Mənə molla-filan lazım deyil. Molla sizə lazımdır ki, heç olmasa gələcəkdə ağlınızı itirməyəsiz...

Qızının bu əsəbi sözlərindən sonra onun qorxulu mərəzə mübtəla olmasını yəqin edən ana daha dinməyib, kor-peşman evinə qayıtmışdı.

Aylar keçdi, fəsillər ötdü, qış yerini yaza verdi. Şamxalın gedişindən iki il keçməsinə baxmayaraq gəlişindən bir soraq çıxmadı. Üç-dörd aydan bir pul göndərsə də, evinə nə vaxt gəlib dəyəcəyi məlum deyildi. “Güman ki, başı ordakı “əzizlərinə” bərk qarışdığından, bizi görməyə ehtiyacı yoxdur, – Əfiqə qeyzlənirdi, – sərf etsəydi imkan tapardı.”

Bu sözləri qaynanasına da demişdi. ”Qoy bilsin, oğlu məni arvad yox, bir qaravaş alıb saxlayır ki, uşağını saxlayım, evinə gözətçilik edim. Guya başqasına ərə getsəydim, küçədə qalacaqdım, nə evim olmayacaqdı, nə də dolanacağım...”

Bir ildən çox idi xasiyyəti dəyişdiyindən tənəli sözləri eşitməmək üçün əvvəllər tez-tez gəlib-gedənlər də evdən ayaqlarını kəsmişdilər. “Zalım oğlu telefonla zəng edib xəbər bilməyə də can çəkir, – Əfiqə hər dəfə telefon gözünə sataşanda ərinin qarasına deyinirdi. Məni istəmir, cəhən-

nəmə istəsin, heç olmasa zəng edib balalarını soruşsun?.. Elə bil atam evindən arxamca gətirmişəm”...

Son zamanlar, hər gün də olmasa beş-altı gündən bir çalınan naməlum zənglər olan-qalan səbrini də tükəndirmişdi. Kimsə xəttin o başından dinməyib, nəfəsini dərmədən onun səsinə qulaq asıb dəstəyi yerinə qoyurdu.

– Alo, kimdi? Sizə kim lazımdı? Atam-qardaşım, anam-bacım nöşün danışmırsız, nə sözünüz var, deyin…

Elə bunu deyər-deməz cavab əvəzinə telefonun qapandığını görərdi. Əvvəlcə uşaq nadincliyii hesab edib fikir vermədi. Adətən uşaqlar beləcə telefonla əylənərdilər. Lakin oxşar cavabsız telefon zəngləri artdıqca Əfiqənin narahat ürəyinə müxtəlif şübhələr dolurdu. Yox, bu uşaq işinə oxşamırdı. Kimdir görəsən? Məqsədi nədir? Necə tapsın kimliyini? Şikayətmi etsin? Xeyr, aləmə car çəkməyə dəyməz, dözmək lazımdı, nə vaxtsa bilinəcək, – qət etdi, – ya da Şamxalın göndərəcəyi növbəti puldan bir nömrə yazan telefon alacaqdı.

Ürəyində gəzdirdiyi dərdi-səri az idi, telefon da bu yandan çıxdı. Maraq güc gəldiyindən səbrini basıb dinmirdi. Görəsən kimə gərək idi dinməyib onun səsinə qulaq asmaq? Əsəbləri lap tarıma çəkilmişdi. Uşaqlar böyüdükcə dəcəlləşirdilər. Bütün günü onu danışdırırdılar. Axır vaxtlar özü də hiss edirdi ki, səhərdən axşamadək günü qışqırmaq, danışmaqla keçir. Şamxal onu evinə elə bil it əvəzi gətirmişdi ki, kənardan görsünlər evdə yaşayan var. Gecələr yatıb yuxu da görə bilmirdi. Yuxusu ərşə çəkildiyindən səhərə qədər yatağında bir çimir yuxudan ötrü çapalayır, gördüyünü də gözünü açan kimi unudurdu. Ancaq bir yuxu yaddaşında necə yer tutmuşdusa, ayılandan sonra da xeyli vaxt təsi-

rindən ayrıla bilmədi. Yuxuda Şamxaldan qızı olan kürən, meymuna bənzər gözəlçə hardansa peyda olmuşdu. Qucağındakı körpəni tutub ona acıq verirdi:

– Düşünmə ki, tək sənin oğlun var. Bax, mənim də oğlum var. Oğlum da var, üstəlik qızım da...

Əfiqə onun eynən Liza kimi sırtıq-sırtıq irişməsinə tab gətirməyib hövlənak yuxudan ayılmışdı və gördüyünün yuxu olduğuna sevinib toxtamışdı. Özünə gələndən sonra da yuxuda ikən içində yaranmış qəzəb hissi sinəsində qövr etdi: “Olsun da, dönükdən dönük törəyər. Böyüyəndə ona övlad yox, qənim kəsiləcəklər”... Bəlkə də yuxudan çox düz, həqiqət idi. Çünki mümkün olası haldı. Şübhəsiz Şamxalı qarmağına keçirib əlindən buraxmayan həmin gözəlçədir yuxusuna gəlib. “Ərli arvad olandan sonra uşaq doğmağa nə var... Vay o gündən ki, ərin sənin olmaya, ayla-illə üzünü görməyəsən.” Neçə vaxt idi Şamxal az qala xatirindən çıxmışdı. Gördüyü yuxu çoxdan unutduqlarını, səngimiş kinini, acığını təzədən yerindən oynadırdı. Bu səbəbdən həmin yuxudan bəri sinəsində xırda daş boyda ağırlıq duyurdu. Sanki o kədər daşı ürəyindən sallanıb onu sıxır, nəfəsini çətinləşdirirdi. Ağırlığı hiss edəndə başını işlə qarışdırır, ürəyinin qayğısına qalırdı. “Başıma xeyir, – düşünürdü, – Şamxal orda kef edəcək, mən dı burda ürək xəstəliyi tapacağam..”.

Yenə bir səhər alatoranlıqda telefonun zəngi eşidildi. Yuxusu qaçdığından gecədən işığı yandırıb oturmuşdu. Camaatın yuxudan oyanmadığı vaxt görəsən kim idi zəng edən? An ərzində Əfiqə beynində götür-qoy etdi: “Allah xeyir etsin, səhər vaxtı kim ola? Əgər bu dəfə də cavab verməsələr, bezdim daha, söyəcəyəm, döşəyəcəyəm qabırğasına.”

– Alo, eşidirəm. Kimi istəyirsiz?

Səs gəlmədi. Kim idisə danışmağa ürək etmirdi. Əfiqənin əsəbləri gərilməyə başladı, qanı qaraldı. Söyməyə hazırlaşırdı səs eşidib, səbrinə sevindi:

– Alo, Əfiqə, sabahın xeyir.

– Aqibətin xeyir, mən kiminlə danışıram?

– Mənəm də, tanımadın? Cahid...

Əfiqə özünü güclə saxladı. Istədi qışqırıb söysün: "Ay yaramaz, neçə aylardı məni girinc edən deməli sənmişsən. Uşaq ki, uşaq. Cəmdəyin böyüdüsə də, ağlın artmayıb..."

– Səhər hava işıqlanmamış xeyir ola?

– Gördüm ki, işığın yanır, bildim ki, oyaqsan. Istədim ki, hamıdan tez, birinci olam.

– Nə birinci olasan, başa düşmədim.

– Yadından çıxıb? Bu gün sənin ad günündür axı? Təbrik edirəm!

Əfiqənin heyrətdən boğazı qurudu. Tamam unutmuşdu. Dünyaya gəldiyi gün təmiz yaddaşından silinmişdi. Silinməyib neyləsin, gəlin köçəndən bəri bir dəfə də olsun yada salınıb kimsə onu təbrik etməmişdi. "Eh.., o kimin yadındadı ki... Bərəkallah Cahidə! Hardan, necə öyrənibsə də xatirində qalıb, sağ olsun!"

– Sənə can sağlığı və ən əsası qadın xoşbəxtliyi arzulayıram!

– Sağ ol, Cahid. Düzü unutmuşdum, sən yadıma saldın. Indi inandım ki, xətrimi istəyirsən!

– Bilirsən, mən hədiyyə də hazırlamışam...

– Nə? Hədiyyə? Bəsdi görək mənə hədiyyə-filan lazım deyil. Sən Allah, xəcalət vermə, qoy oturmuşuq rahat evimizdə...

– Narahat olma, elə bir bahalı şey deyil. Bağçamızdakı çiçəklərdən çələng hörmüşəm.

– Çələng? Onu düzəltmək sənin əlindən gəlir? Afərin! Mən onu ancaq televizorda görmüşəm, həyatımda olmayıb. Məmnuniyyətlə baxardım...

Əfiqənin səsindəki yumşaqlıq, mehribanlıq Cahidi həyəcanlandırmışdı. Uşaq kimi sevinclə soruşdu:

– Bəs onu necə çatdırım?

– Qoy fikirləşim... Nə təhər edim? Zəhmət çəkib nəsə etmisən, rədd edib könlünü sındırmaq heç insafdan olmaz... Ay səni, xatakar, məcburam səninlə görüşəm. Gündüz heç cürə alınmaz. Neylim, gecə gətirərsən əməlini. Amma öz aramızdı, təbrik, çələng... – əməlsən, əllaməsən başdan ayağa. Az aşın duzu deyilsənmiş...

– Sən yenə mənim səmimiliyimə inanmırsan? Elə bilirsən kələk işlədirəm?

– Yaxşı, yaxşı... Sakit ol, inanıram. Bir sözdü də dedim. Inanmasaydım, səninlə bu qədər danışmazdım ki! Yaxşı, görüşənədək. Sağ ol!

Əfiqə telefonun dəstəyini yerinə qoyub, dərindən fikrə getdi. “Demə bu gün onun ad günüdür. Maraqlıdır, görən bu qoçaq necə bilib ad günümün vaxtını? Guya mən bəxtəvəri xeyli adam təbrik edəcək, birinci olmaq əlindən çıxacaq. Kimə lazımdır mənim ad günüm? Şamxal nəinki doğum günümü, yəqin adımı da xatırlamır. Evli olduqları vaxtdan hansı il zəng vurub, hədiyyə alıb, ya bir cümlə məktub yazıb ki, arvad ad günün mübarək! Allah etməsin, başına daş düşər!” Yadına o yad eldə Şamxalın iştirak etdiyi məclislər düşdü. Az qala hər gün bir maygülünün ad gününü qeyd edirdilər. Içib, ulaşıb, harda gəldi mal kimi sərələnib yatışır-

dılar. Qız vaxtı evində ata-anası təbrik edirdi. Ərə gələndən sonra onlar da unutdular.

Cahidin təbriki neçə aylardı onda olmayan xoş ovqat yaratmışdı. Kimi ad günündə təbrik etsələr sevinməz? Digər insanlar kimi onun da diqqətə, ehtirama, xoş ünsiyyətə ehtiyacı vardı. Adam nə qədər özünə qapanıb ürəyində danışar? Darıxmışdı isti münasibət üçün.

Niyə o özünə xoş gələn tərzdə yaşamaqdansa cəmiyyət deyilən başqalarının müəyyən etdiyi qaydaları gözləməli idi. Məgər bu qayda-qanunlar insanların xoşbəxtliyi üçün nəzərdə tutulmayıbmı? Daim ölçüləri gözləməyə, pozmamağa çalışıb, bəs onda niyə xoşbəxt deyil? Hamı da onun xoşbəxt olmadığını görür, bilir və heç kim də əhəmiyyət vermirdi. Burası da düz idi ki, ədalətsiz cəmiyyətdən xoşbəxtlik ummağa dəyməzdi. Onun tələbləri, normaları imtiyazlılar və varlılar üçün yox, yoxsullar, həm də iradəsi zəif olanlar üçün idi.

Cahid onu sevirsə, inadından dönmürsə, onun günahı varmı? Səni sevən insanı nə qədər rədd etmək olar? Bir dəfə könlünə zor gəlib rədd edərsən. Necə ki, ötən dəfə etmişdi. Sonra səbəb olmadan ona necə nifrət edəsən? Həm cəmiyyətin qanunlarında, həm də Allahın nəzərində kişi ilə qadının hüquqları eynidir deyilirsə, niyə münasibətlər fərqlidir? Danılmaz həqiqətdir ki, qadına dünya yaranandan heç vaxt kişi ilə eyni səviyyədə yanaşılmır. Təəssüf ki, qadın qadınlığından uzağa gedə bilmir. Görünür, dünyada heç nə səbəbsiz yaranmayıb, sadəcə bir çoxunu insan dərk etməyə çətinlik çəkir. Eləcə də Cahidin ondan əl çəkməməsində görünür, böyük Allahın özü bildiyi məqsədi vardı. Qəbul etməliydi onun iradəsini, sonunda bədbəxtlik gətirsə də....

Uşaqlarının xatirinə özünü yalandan xoşbəxt göstərməkdən yorulmuşdu. Islanmışın yağışdan nə qorxusu, onsuz da nə vaxtsa xoşbəxt yaşayacağına inamı qalmamışdı.

Əfiqə gecə düşənədək bütün günü qonaq gözləyirmiş kimi ömründə yaşamadığı qəribə hisslər keçirirdi. Illərlə qarşısını aldığı “meh” indi sinəsinə yayılıb qəlbini sərinləşdirirdi. Ilahi, onda anlaya bilmədiyi nəsə baş verirdi. Cahidin telefonla söhbəti, içində rahatlıqla yanaşı gözləmədiyi təlatüm yaratmışdı. Bu nə idi belə? Olmaya ürəyində Cahidə qarşı cücərən sevgisinin əlamətləri idi onu haldan-hala salan? Bilmirdi... Bircə dəqiq bilirdi ki, indi Cahid gözünü saatdan çəkməyib səbirsizliklə görüşəcəkləri anı gözləyir. Kimsə səni gözləyəndə insan necə də xoşbəxt olur, həyat gözündə şirinləşir. Düşünəndə ki, sənin həsrətini çəkən var, kiməsə lazımsan, dünya elə bil gözəlləşir. Alət, qurğu, ya da canlı müqəvva kimi yox, könül yaraşığı, göz işığı kimi gərəksən.... Görəsən Cahid onu belə sevirmi?

Gecə düşdükcə Əfiqənin gözü həyətdə, tut ağacının altında qalmışdı. Başı uşaqlara qarışsa da pəncərədən tez-tez həyətə nəzər yetirirdi. “Gecənin yarısından tez gələn deyil, – ürəyinin təlaşını sakitləşdirirdi, – gözləyəcək hamı yuxuya getsin, sonra....” Ötən dəfə payızın sonundakı, Cahidə həyətdən çıxması üçün yalvardığı gecəni xatırladı. Bu gün yarım ildən sonra yenə üz-üzə gələcəkdilər. Yəqin taleyinin çox müşkülləri kimi onların da yenidən görüşmələrinin zamana ehtiyacı varmış. Zaman isə vaxt ölçüsündən çox, Allahın qərarlarını həyata keçirən fövqəl icraçıya bənzəyirdi.

Əfiqə uşaqları yatırıb, gecənin lal sükutunda pəncərədən uzaqlara, ulduzları parlayan səmanın sirli qaranlıqlarına baxaraq təzəcə xəyala getmək istəyirdi ki, həyətdə tanış

kölgəni hiss etdi. Addımının səsi gəlməməsi üçün pəncələri üstündə sakitcə otaqdan həyətə düşdü.

...Cahid əmrə müntəzir əskər sayaq ağacın altında durub həyacan dolu gözlərini onun yoluna dikmişdi. Keçən payızda Əfiqənin "əgər sevirsənsə, məni sakit burax", – deyərək görüşməkdən imtina etməsi xeyli vaxt ürəyini ağrıtdı. Sevdiyi insana əzab verdiyini düşünüb günlərlə özünü qınadı. Nəyə lazım idi onun sevgisi? Birtərəfli sevgimi olar? Ya da özünü güclə sevdirməkdən nə çıxar? Başına qızmı qəhətdi? Qızdan çox qız var idi. Nə görmüşdü Əfiqədə dərk edə bilmirdi. Məsələ burasındaydı ki, Əfiqə daha qız da deyildi, özgənin, başqasının arvadı idi. Başqasının arvadını sevmək, ondan əl çəkmək istəməmək günah deyildimi? Nə olsun ki, ilk məhəbbətiydi? Dünyada ilk sevgisi uğursuz olan, o qədər insan yaşayırdı ki... O da həmin minlərdən, milyonlardan nə birincisi, nə də axırıncısıydı. Acı da olsa, taleyi ilə barışmalıydı... Nə etsin ki, günlərlə, aylarla mübarizə aparsa da Əfiqəni unuda, könlündən çıxarda bilmirdi. Sevgisi sağalmaz dərdə dönüb sinəsinə çökmüşdü. Bu əziz dərd ona ya xoşbəxtlik, ya da faciə bəxş edəcəkdi. Öz başına gətirəcək faciədən çox Əfiqənin xoşbəxtliyi üçün qayğılanırdı. Əfiqə isə xoşbəxt ola bilməmişdi. Hələ o zaman, Şamxal gəlinlik təravəti üzündən getməmiş yoldaşını atıb qəribliyə yol alanda Cahid keçmiş istəklisinin halına acımışdı. Sonrakı illər uşaqlarının dünyaya gəlməsiylə onların ailə vəziyyətinin möhkəmlənəcəyinə güman edirdi. O, özününkü olmasa da Əfiqənin xoşbəxtliyini ürəkdən istəyirdi. Belə olacağı təqdirdə onun xoşbəxtliyinə sevinib qəlbən rahatlanardı və özünə onu xatırladan bir başqasını seçərdi. Lakin neçə illər keçəndən sonra Əfiqə ilə həyətlərində rastlaşarkən gözlə-

rinin dərinliyində gizlənmiş kədəri duyub sarsıldı. Niyə, nə səbəbə Şamxal onun qədrini bilməsin? Qadını alçalan ev tez uçar. Əfiqə belə taleyə layiq idimi? Imkanı olsaydı, kənar tanış-biliş pis baxmasaydı, özü bu sualları Şamxala verib cavab tələb edərdi.

Əslində bu sualları Şamxala Əfiqənin ailəsi verməliydi. Ancaq heyif ki, onlar da kürəkənləri kimi qızlarının həyatına laqeyd idilər. Cahid sinəsini deşən belə sualları çözələmək, onu mütilikdən ayıltmaq, qalan ömrünü düşünmək üçün Əfiqə ilə görüşmək, söhbətləşmək istəyirdi. Şamxal ya ömrünü balalarının anasına sərf etməliydi, ya da onun yolundan çəkilməliydi. Əfiqə etiraz etməsəydi, hətta onu qəbul etməyə, uşaqlarına atalıq etməyə də hazır idi. Amma ötən dəfə Əfiqənin “get, Allah xatirinə” yalvarışı bir neçə ay Cahidin qulaqlarından çəkilmədi. O gecə dönüb həyətdən çıxsa da ürəyi Əfiqənin yanında qalmışdı. Özünü tənha hiss edən kimi gözlərini onun evinin pəncərəsinə zilləyib baxmaqdan doymazdı. Bəzən isə evin həndəvərində, pəncərəsində Əfiqəni görəndə heç nədən çəkinmədən sevincinlə salamlamaq, onun səsini eşitmək istəyirdi. Istədiyinin mümkünsüzlüyünü anlayanda qəhərlənib gözləri nəmlənirdi.

Bir gün təsadüfən əlinə keçən telefon məlumat sorğu kitabından Şamxalın son gəlişi zamanı evinə çəkdirdiyi telefon nömrəsini öyrəndi. Ağlına fikir gəlmişdi: telefonla da olsa tez-tez Əfiqənin səsini eşitmək! Onun səsini eşitmək üçün telefondan gözəl vasitə ola bilməzdi.

Evdə yanında kimsə olmayanda beş-altı gündən bir oğrun-oğrun nömrəni yığıb Əfiqənin nigaran səsini bir neçə saniyəlik dinləyəndən sonra dəstəyi asırdı. Kobud cavab eşidəcəyindən ehtiyatlanıb danışmağa cürət etmirdi.

Nəhayət, hələ məktəbdə oxuyarkən Əfiqənin rəfiqələrinin xatirə dəftərlərindən yaddaşına həkk etdiyi ad günü yaxınlaşanda təzə açılan çiçəklərdən gül çələngi hazırladı və onu təbrik etmək üçün görüşməyə razılıq almaq məqsədiylə cəsarətlənib telefona əl atdı. Danışdıqca bir az da ürəkləndi. Gözlədiyi kobudluğu etməyən Əfiqə əksinə özünü elə apardı ki, sanki bu zəngə çoxdan hazır idi. Telefon söhbəti gözlədiyindən gözəl alınmışdı. Cahidin səsini tanıyan Əfiqə sevincini gizlədə bilməmişdi. Təbrikə biganə qalmayıb, görüşməyə razı olmuşdu.

Cahidin ürəyi şadlıqdan yerindən çıxırdı. Əfiqə ilk dəfə idi ki, onu görməyə etiraz etməmişdi... Gün ərzində gündüzün keçməsini, gecənin düşməsini səbirsizliklə gözləmişdi. Gecə yarıya yaxınlaşanda gizlicə həyətin divarını aşaraq xəfif addımlarla tut ağacının altına gəlib Əfiqəni gözləmək üçün yerini rahatlamışdı. Müxtəlif çiçəklərdən hördüyü tac şəkilli çələngi gətirməyi də unutmamışdı. Çiçəkləri səliqə ilə bir-birinə dolayıb düzəltməyi əskərlikdə dostundan öyrənmişdi.

Dəqiqələr keçdikcə səbri tükənirdi. Bəlkə gözlədiyini bir işarə ilə Əfiqəyə bildirsin, – düşündü. “Yox, – tez də fikrindən daşındı, – yersiz hərəkətdən Əfiqənin acığı tutar, hər şey korlana bilərdi.”

Cahid ürəyində götür-qoy edirdi ki, xırda addım səslərini eşidib yerindən dikəldi. Qarşısında dayanan Əfiqəni görcək ürəyi çırpındı, dili dolaşdı:

– Salam... Necəsən?

– Salam! Belə də, şükür, – Əfiqə pıçıltıya bənzər səslə cavab verib, çoxdan görmədiyi üçün onu maraqla süzdü, – görürəm pis deyilsən. Günü-gündən böyüyürsən. Amma böyüsən də tərsliyindən əl çəkmirsən...

“Illər keçsə də təkəbbüründən qalmır,” – Cahid fikirləşdi. Guya iyirmi bir ilə iyirmi üçün böyük fərqi varmış. Qanını qaraltmağa dəyməzdi. Ancaq həqiqətən hələ də özünü onun qarşısında böyük kimi apara bilmirdi. Əfiqədən fərqli olaraq canını çulğayan həyəcan olmaya kiçikliyindən baş verirdi?!

– Hə eşidirəm, – Əfiqə nəzərlərini Cahidin həyəcandan pörtmüş üzünə dikdi.

Heç özü də bilmirdi nədən başlasın. Fikrindəkilər bir-birinə qarışmışdı:

– Hm.., bir dəqiqə, – nəsə xatırlayıb arxaya döndü. Iki-üç addım atıb qaranlıqda gizlətdiyi bükülünü tapdı. Yerinə qayıdıb əlindəki salafanın arasından ətri və gözəlliyi ilə fərqlənən gül çələngini ona sarı uzatdı:

– Sənin ad gününü təbrik edirəm! Arzu edirəm ki, bu çiçəklər kimi həmişə gözəl olasan və mənalı ömür sürəsən. Ömrünün qədrini biləsən, pis gün keçirməyəsən.

Əfiqəni heyrət götürmüşdü. O, Cahidin belə qabiliyyət yiyəsi olduğunu bilməzdi. Bu qədər gözəl gülü o, haradan yığıb, toplayıb səliqə ilə düzmüşdü? Baxmaqdan, ətrini qoxumaqdan doymaq bilmirdin. Necə də gözəl idi! Onu ömründə belə təbrik edən olmamışdı. Doğrudanmı Cahid onu çox sevirdi? Inana bilmirdi…

– Cahid, bu nə xəcalətdi sən mənə verirsən, çox sağ ol.

– Başqa hədiyyəni qorxdum qəbul etməyəsən. Fikirləşdim ki, gülə bir söz deməzsən, ona görə də çələng düzəltdim. Həm də darıxmışdım səninçün..

Əzilib korlanmaması üçün çələngi əlində saxlayıb sevimli baxışlarla onu süzən Əfiqə sanki, mən də darıxmışam demək istəyirdi.

– Bilirsən, mən istəyirəm ki, əlində saxlamayasan, – Cahid ona bir addım da yaxınlaşdı.

– Bəs nə edim? – Əfiqə təəccübləndi.

– Ver mənə, göstərim.

Əfiqə tərpənməz dayanıb maraqla nə edəcəyəini gözləyirdi. Cahid əvvəlcə bir əlilə Əfiqənin üzünə tökülən saçlarını yığdı, başının qalan yerlərini də əli ilə daraqlayıb hamarladı, o biri əli ilə çələngi ehtiramla tac kimi onun başına qoydu. Bu hamar-tumardan xoşlandığı üçün Əfiqənin gözləri  xumarlandı.

– Bax, belə gözəldir.

Əfiqənin qəlbini qəribə duyğular bürümüşdü. Ona bu yaşınadək hələ kimsə belə ehtiram, münasibət göstərməmiş, bir çiçək də bağışlamamışdı. Axı niyə?! Məgər onun insan kimi sevilməyə haqqı yox idi, ya layiq deyildi?. Sevincdənmi, kədərdənmi gözləri doldu. Yaş damlaları kipriklərindən süzülüb üzüaşağı diyirlənərək yanaqlarını islatdı. Cahidin sevgi odu ilə alışıb yanan baxışları onun gözlərinə dikilmişdi. Həmişə ondan çəkinən Cahidin heç bu sayaq baxmasını görməmişdi. O necə də sevimli, məğrur, qəlbəyatımlı idi...

Anlar keçsə də heç biri yerindən nə tərpənir, nə də qımıldanırdı. Gecənin sükutunu pozan təkcə cırcıramaların səsi idi. Bir-birlərinə baxa-baxa donub qalmışdılar. Üzünə dəyən Cahidin nəfəsi Əfiqənin ağlını başından alırdı. “Belə çoxmu susqun, üzbəüz dayanacağıq, – Əfiqə düşündü, – gərək ki, o dillənməli, təşəkkür etməli idi. Nə desin?” Qəlbindəki hisslər bir-birinə elə qaprışmışdı ki, bilmirdi nə desin. Cahidin həyəcanı deyəsən ona da keçmişdi. Ürəyinin çırpıntısı anbaan güclənirdi.

Başının hərlənəcəyini duyub yıxılmamaq üçüq sağ əlini uzadıb Cahidin qolundan tutdu. Cahid onun yıxılacağını

hiss edib özünü irəli verdi. Boş qalan qolu ilə Əfiqəni qucaqlayıb özünə sıxdı.

– Əfiqə, nə oldu sənə?

Narahatlıqla soruşan Cahidi heyrət qarışıq sevinc bürüdü: Cavab verməyə halı olmayan Əfiqə gözləri yumulu sinəsinə sığınıb ona sarılmışdı! Bu, Əfiqənin ona olan minnətdarlığı idi. Sözlə ifadə edə bilmədiyi təşəkkürü… Illərlə kişi sevgisinə, diqqətinə, qayğısına ehtiyacı olan qadının təşəkkürü…

Günahkar kimi başını qaldırıb Cahidin gözlərinə baxmağa utanırdı. Günahkar kim idi? Özü, yoxsa taleyi? Köksü dolan buluda oxşayırdı. Dərdi danışılası deyildi. Bayaqdan bəri özünü sıxıb hıçqırtısını saxlasa da, dili, boğazı qurumuşdu. Boşalmasaydı danışa bilməyəcəkdi. Üzünü Cahidin çiyninə söykəyib yüngülləşənədək kirimişcə ağladı.

– Əfiqəm, ağlama, bəsdi. Belə olmaz! Mən bilsəydim ki, sən sevinmək əvəzinə kədərlənəcəksən, gəlməzdim. Yaxşı, qurtar!

Cahid onun sakitləşməsi üçün saçlarını tumarlayıb öpdü. Bu iş ona elə xoş gəldi ki, təkcə saçları öpməklə kifayətlənmək istəmədi. Saçlarını aralayıb ehtiyatla boynundan öpdü. Boynunun öpməsinə Əfiqənin etiraz etmədiyini görən Cahid daha da həvəsləndi. Bərk-bərk qucaqlayıb boğazından geniş sinəsinədək öpüşlərə qərq etdi.

Axıtdığı göz yaşları hisslərini soyutmadı, onu qucaqlayan Cahidin bədəninin istisi, hərarətli öpüşləri tamam ixtiyarını almışdı. Özünə yiyəlik edən halı qalmamışdı. Həmişə Cahidə etinasız olan, onu sevməyəcəyini düşünən Əfiqədən əsər-əlamət yox idi. Etiraz etməyə, onu kənarlaşdırmağa, içindəki qəribə bir hiss imkan vermirdi. Bu hiss neçə illər

yadırğadığı yatan ehtirasını oyatmışdı. Ayılan ehtirası taqətini kəsdiyi üçün ayaqları sustaldı. Cahidin qolları üstə yaşıl otların üzərinə uzandı.

Bədənini yandırıb yaxan canındakı ehtirası Cahidə sevgisindən yaranmışdımı? Anlamırdı. Olmaya illərdən bəri daim boğduğu, qarşısını kəsdiyi qadınlığı idi səbəbkar? Tamarzı qaldığı kişi təmasından pərvazlanan ehtirası Allahın ona bəxş etdiyi ilahi duyğunu – qadın olmasını xatırlatmışdı. Yalqız gecələrində, çətin günlərində min dəfələrlə qadın olmasına nifrət etsə də, indi qadınlığından zövq, kam almaq istəyirdi. Kim nə deyir desin, dəxli yox idi. Dünyaya gələndə Allaha yalvarmamışdı ki, onu qadın yaratsın. Əgər Allah belə lazım bilibsə, niyə o müqəvva kimi yaşamalıdı?

Niyə kişinin xəyanəti bağışlanır, qadının yox. Bu xəyanət deyildi. Tapdanmış haqqının əvəzi idi. Insan kimi ailəsi olmaq, sevmək, sevilmək, hər gün üzərində ər nəfəsi hiss etmək, qadın olmasının ləzzətini dadmaq ona haram idimi? Yad ellərin arvadlarının qucağında illərlə ailəsini unutmaq namusluluq, insanlıqdımı?..

O, xumarlandıqca bu gecə kiminləsə sevişməyindən çox Şamxala acıq edib əvəz çıxmasından fərəhlənir və Cahidin canını yandıran nəvazişindən nazlanırdı. Fəallaşmış Cahid isə həyatının ən gözəl, ən şirin dəqiqələrini yaşayırdı. Ixtiyarına aldığı Əfiqənin bədəninin, yumşaq əzalarının hər nöqtəsini öpüşləri ilə əzizləməkdən, tumarlamaqdan doymurdu. Ay işığında dolu sinənin, enli budların ağlığı ağlını başından çıxarmışdı. Eşq qayığının yelkənini açıb löngər vura-vura sevgi dənizində üzməkdən həzz alırdı… Uzun müddət həsrətində olduğu sevgisinə susamış qadın təki Əfiqə də, onun bütün istəklərinə eyni qızğınlıqla cavab

verərək, təcrübəsiz tərəfdaşından geri qalmağı sanki özünə sığışdırmırdı…

…Az qala dünyada hər şeyi unutmuşdular. Içərilərindəki od avazıdıqdan sonra özlərinə gəlib başlarının üstündəki gecənin qaranlığında parlayan ulduzları görərkən harda olduqları yadlarına düşdü.

Əfiqəni narahatlıq bürüdü: “Ulduzlardan, tut ağacından savayı bizi görən oldumu? Birdən uşaqlardan ayılıb məni axtaran olar. Nə qədər gec deyil, özümü uşaqların yanına çatdırım,” – o, təlaşla düşünüb ayağa durdu.

– Əfiqə, nə oldu? – Cahid soruşdu.

– Olan oldu. Bundan artıq nə olasıdı ki… Bir çatışmayan odu ki, çox yox bircə nəfər bizi belə vəziyyətdə görsün, Qiyamətəcən bəsimizdi.

– Qorxma, qiyamət günü sənin günahlarını da mən götürəcəyəm boynuma.

– Sən istəyinə yetmisən, kefin ala buluddadı. Yaxşısı budur, tez ikən buranı tərk et. Bir az da keçsə səhər açılacaq. Mən getdim.

Bir neçə addım atmışdı Cahid astadan çağırdı:

– Qulaq as, bu yadından çıxdı. Aparmırsan?

– Nəyi?

– Hədiyyəni, – çələngi göstərdi.

– Sənin hədiyyən mənə baha başa gəldi. Yaxşı, ver.

Əfiqə çiçəkləri götürüb tələm-tələsik uzaqlaşdı. Həyəti keçib pilləkəni adlayıb otağına girdi. Sakitlik idi. Uşaqlar şirin-şirin yatırdılar. Paltarını soyunmayıb yatağına uzandı.

Gözlərini qapayıb bir az əvvəl baş verənləri düşünür, sanki günahının ağırlığını müəyyənləşdirməyə çalışırdı. Fikrinə gəldi ki, dinimizdə belə əməlin cəzası daşqalaq

edilməkdir. Bəs insanlıq?.. Yaxşı, bəs Şamxal? Şamxal yəqin ki, cəhənnəmlikdir, öz tayları ilə birgə. Şübhəsiz heç bir din xəyanəti bağışlamır, xüsusən də qadın xəyanətini. Deməli, mən də o dəstədənəm. Yox, Şamxal məndən qat-qat günahkardır...

Səhər bir-biri ilə dalaşan uşaqlarının harayına ayıldı. Fikrindən çıxıb stolun üstündə qalan çələngi yolub-yoluşduran uşaqlar bütün çiçəkləri evə səpələmişdilər.

– Ana, bu gülləri hardan gətirmisən, hə? Bazardan?

Böyük uşağın sualını, özü tapmış cavabı ilə təsdiqləməkdən qeyri yolu olmadı. Ona nə başa sala bilərdi. Anlayan vaxtı deyildi axı. Lap anlasaydı da düzünü deyərdimi?

– Gör evi nə günə qoymusunuz. Gül görməmisiniz? Tez olun, necə tökmüsünüz, eləcə də yığışdırın.

– Hara ataq?

– Siz yığışdırın bir yerə, mən ataram.

O, çiçəkləri xoşlamasına baxmayaraq, çox saxlaya bilməyəcəkdi. Harasa gözündən kənara atmalı idi. Çünki çiçəkləri görəndə ötən gecənin şahidi olduqlarını xatırlayıb, xəcalətindən onlara baxmağa utanırdı. Ola bilsin bu güllər birdən kiməsə sirrini faş edərdi. Ona isə şahid gərək deyildi. Ağlına gələn qara-qorxulardan ürəyi sıxılsa da, gecədən bəri canına, bədəninin əzalarına yayılmış ılıq gümrahlıq, çoxdan unutduğu məxsusi bir dinclik, daxili rahatlıq hissi gözlərini mürgüləndirir, yataqdan qalxmağa imkan vermirdi.

* * *

Bağçadakı qeyri-adi gecə görüşü Əfiqənin həyatının sakit və müti axarının qarşısına çıxan aşılmaz qaya parçasına dönüb, yolunu dəyişdirmişdi. O, daha məsum, günahsız,

vəfalı həyat yoldaşı deyildi. Alçaldığını bilsə də, açıq mübarizəyə gücü çatmayan gizlin aşnası olan qadın idi. Cahidlə başladığı sevgi oyunu bəzən onun, bəzən də özünün istəyi ilə hərdənbir baş verməsinə baxmayaraq, təkrarlanır, getdikcə sağalmaz bir azara çevrilirdi. Bu oyun nə vaxtadək davam edəcəkdi. Anlaya bilmirdi. Özünü dərk etməkdə çətinlik çəkirdi. Gah ona elə gəlirdi ki, Cahidi sevir. Gah da bu görüşlərin sevgidən çox hər ikisinin fiziki tələbatını ödəmə vasitəsi olduğunu düşünüb, kədərlənirdi. Heç ağlına gəlməzdi ki, istəmədən özünü belə cəncəl vəziyyətə gətirə bilər. Daha doğrusu, onu Şamxalla Cahid bu vəziyyətə salmışdılar. Əvvəl Şamxal ona xoşbəxtlik vəd etmişdi, tənha qoydu. Indi isə Cahid ağlını alırdı, sonrasını da Allah bilir. Hansını atıb, hansını tutsun? Ikisindən biri ilə gec-tez vidalaşmalıydı. Həmişə gizlində görüşmələri ilə iş aşmayacaqdı. Günlərin birində gizlinlər mütləq aşkarlanacaqdı. Bax, həmin vaxt baş verəcək fəlakətdən qurtula biləcəkdimi?!

Hər dəfə ağlını alıb görüşə aparan hiss sonda yox olub yerini qınağa, məzəmmətə verirdi. Görəsən, onların görüşünü görən, duyan oldumu? Birdən kimsə bilsə nə olacaq bu işin axırı? Nə olub, olub. Kifayət idi. Qurtarmaq lazımdı bu gizlin haram münasibəti. "Nə qədər haqlı olsaq da, həm də günah iş tuturuq, – fikirləşirdi, – Allah olunan günahları bağışlamayacaq".

– Cahid, eşidirsən, daha bəsdi. Gəl qurtaraq belə görüşməyi. Ürəyimə gəlir ki, bunun sonu yaxşı bitməyəcək, – Əfiqə gecələrin birində çoxdan bəri ürəyini qorxudan fikrini dilinə gətirdi.

– Nə demək istəyirsən, – Cahid gülümsündü, – olmaya gecəni gündüzlə əvəz edək?

– Sən zarafat edirsən, ya da axmaqlamısan. Təki gecənin xətasından qurtula bilək, gündüzə ehtiyacım yoxdur.

– Qorxma, qorxan gözə çöp düşər, – Cahid onu ürəkdirək verdi, – sevmək nə vaxtdan günahdı? Nə vaxt desən evlənməyə hazıram. Qaldı Şamxala? Gəlişini gözləyirəm. Qoy gəlsin özüm onunla danışacağam…

– Nə danışacaqsan? Biz evlənə bilməyəcəyik, boşla bu söhbətləri...

Görüşlər artdıqca Əfiqəni özündən asılı olmayaraq narahatlıq bürüyurdü. Görəsən Şamxal gələnədək olanları gizli saxlaya biləcəkdimi? Şamxal nə vaxt gəlib evinə dəyəcəkdi, Allah bilirdi. Bu gündən sabaha ümid varmı? Nə bilirsən sabah səni nə gözləyir? Görüş vaxtı uzaqdan gələn ən adi səs, hənirti ürəyinə hər cür qorxulu şübhələr gətirirdi. Belə gecələrdən axırıncısında eşitdiyi gözlənilməz xışıltı onun necə qorxuzmuşdusa, yubanmadan Cahidin qucağından çıxıb, qaranlıq cığır ilə hövlanak özünü evə yetirmişdi. O anlaşılmaz xışıltıdan sonra onda xoş olmayan nə isə baş verəcəyi qənaəti yaranmışdı. Bəzən düşünürdü ki, etdiyi bütün səylər əbəsdi. Bəlkə də hamı bilir onun günahını, sadəcə dillərinə gətirmirlər, yazıqları gəlib rüsvay etmirlər. Kimsə boynuna götürmək istəmir bu işin məsuliyyətini. Bu iş yalnız Şamxallıq idi.

Başqa adamların əhatəsində Cahidlə rastlaşarkən ehtiyatlandığından az qala nə edəcəyini bilməyib, özünü itirirdi və tez o yerdən uzaqlaşmaqdan, hikkəsini uşaqların üstünə tökməkdən savayı əlacı qalmırdı.

Ürəyinə gələn başına gəldi. Cahidlə gizli görüşlərinin üçüncü ayı idi. Yay fəslinin başlaması ilə havalar bərk istiləşmişdi. Havaların istiləşməsindən əkdiklərinin quruya-

cağından qorxan qonşular bağ-bostanı vaxtlı-vaxtında suvarmaya aman vermirdilər. Onları qınamağa dili gəlməsə də, gözü görə-görə əkdiklərinin zay olması ilə də barışa bilməzdi. Ya qapı-qapı düşüb yalvarmalı idi ki, filan günü suya dəyməsinlər, imkan versinlər o da bostanını suvarsın, ya da gün batanda hamı sudan əl çəkəndə alatoranlıqda suvarmalı idi. Əksəriyyəti paxıl olan bu qonşuların da hərəsinin ağzından bir hava gəlirdi. Dünya malından gözləri doymaq bilmirdi. Onlara minnətçi düşməkdənsə hava qaralanda suvarmaq Əfiqəyə daha sərfəli göründü. Bitkilər üçün də axşam sərinində sulanmaq çox xeyirli idi. Suvarma lap gecəyədək uzansa da neyləməli, evinin ruzisinə görə, hər əzaba qatlaşıb dözməli idi. Əvvəllər qaynının uşaqları belə işlər olanda gəlib kömək edərdilər. Münasibətləri soyuyandan sonra onlar da gəlmirdilər. Öz uşaqları da ki, balaca, heç bel boyda deyildilər. Iş görmələri özlərinə qalsın, iki dəqiqə gözün üstlərində olmadı üst-başları lil-löhməyə bulaşırdı. Əkdiyi bostan bitkiləri arasında sulama çağı ən çətinlik yaradanı paxla kollarıydı. Yerə sancılmış hündür, şax budaqlara dırmanmış paxlalar ağacdan-ağaca sıx sarmaşıb ləklərin arası ilə keçməyi də çətinləşdirmişdilər.

– Zəhrimarlar elə sarmaşıb qarışıblar ki, altında gizlənsən tapılmazsan, – Əfiqə cərgədən-cərgəyə keçməyə çətinlik çəkdiyinə görə, hər dəfə dodaqaltı mızıldanırdı, – adam gündüz qorxur bunların arasına girməyə, qalmışdı ki, alatoranlıq ola…

Bir axşam yenə uşaqları yedirəndən sonra bostanı suvarmaq üçün deyinə-deyinə cərgələrin arasına girib bayaqdan yönəltdiyi suyun ləklərin axırına çatıb-çatmamasını yoxlamaq istədi. Xışıltı eşitdi. Qorxudan ürəyi əsdi.

Görəsən nədir, – fikirləşdi. Cahidlə axırıncı görüşündə də eynən belə xışıltı eşidib qorxmuşdu. Cahidin ona toxtaqlıq verib «yəqin qurbağadır» deməsindən də sakitləşməyib tez özünü evə çatdırmışdı. Indidəmi qaçsın? Bəs, suvarma nə olsun? Dişini-dişinə sıxıb dözməli idi. Ətrafa boylandı. Yaxınında hənirti duydu. Kimsə arxa tərəfində durmuşdu. Dönüb baxmağa macal tapmadı. Arxadan qalın barmaqları olan iki əl qəfil gözlərini tutdu. Gözləri görmədiyindən elə bil onu alatoranlıqdan naməlum bir zülmətə atdılar. Ürəyi döyündü, səsi içində qırıldı. Bilmədi nə etsin? Çığırsınmı, yoxsa yalvarsınmı? Görəsən kim ola? Papiros iyi gələn yoğun barmaqlarından kişi əli olduğunu yəqin etdi. Bəs niyə belə edir, nə istəyir ondan, səsini də çıxartmır. Hər kimdirsə onunla ərkyana zarafat edir. Əlindəki beli buraxdı. Sonra hər iki əlini gözlərini tutan əllərin üstünə qoyub onları aralamağa, kənarlaşdırmağa çalışdı:

– Sən kimsən? Çək əllərini görüm. Səsini çıxar.

Daş kimi ağır barmaqları qoparmağa gücü çatmadı.

Kimdir onunla belə rəftar edən. Yoxsa Cahiddir? Olmaya kefi ala buluddadır, əhvalı saz çalır, könlünə məzələnmək düşüb. Axı, o, ehtiyatsız hərəkət eləməzdi. Nədən özünə güvənib? Ayrı kimin cürəti çatar gözlərini örtməyə?

Sullarına cavab gəlmədiyini görüb, fikrini qətiləşdirdi. Ürəyinin səsi səbrinə üstün gəldi:

– Cahid, sənsən? Burax gözlərimi. Nədi, uşaqlığın tutub? Deyəndə uşaqsan, acığın gəlir. Çək əlini, neçə dəfə deyim, gizlənpaç oynayan vaxtın keçib…

– Yox! Tapmadın…

Gözləmədiyi, eşitdiyi yad səs Əfiqənin tamam varlığını sarsıtdı. Əllərini çəkib hiyləgər gözləri ilə onu yeyən, bic-

bic hırıldayan həmyaşıdı Təyyarı qarşısında görəndə gözləri kəlləsinə çıxdı. Qışqırmaq istədi. Heyrətindən dili boğazında qurudu. Bircə bu çatmırdı, ay Allah. Indi neyləyim, – dəhşətlə düşünüb, onun əlindən çıxmağa çabaladı.

– Aaz, dayan görüm, çabalama. Gözləmirdin, eləmi? Elə bildin aşnandı? Nə gözünü bərəldib baxırsan? Cahidi deyirəm də, indicə adını çəkdin ki!..

Şamxalın uzaq qohumu – bibinəvəsi sayılan, qeyri adi sifət cizgiləri və özünəməxsus xırıltılı səsi olan sinif yoldaşlarından siqaret çəkmək vərdişindən başqa heç nəyi ilə seçilməyən Təyyar neçə illər idi yaxınlıqdakı bağlardan birində gözətçi işləyirdi. Gündüzlər gözə görünməyib, yarasa sayaq qaranlığı sevən, gecələri oyaq keçirən bu haramzada deyəsən nəsə bilirdi. Əllərini gözlərindən çəkəndən sonra səsi çıxmaması üçün bir əli ilə Əfiqənin çənəsini, digəri ilə yançağından yapışıb arxadan özünə sıxan Təyyarın həyasız nəzərlərindən şəhvət dolu iyrənc hərislik yağırdı. Əfiqə gözlərinin açılmasına peşman olmuşdu, gözlərini yummaq, onu görməmək istəyirdi.

– Bax ha, cınqırını çıxarma. Səsini çıxartsan, özünü biabır edəcəksən camaat içində. Məndən çox sən ziyan görəcəksən. Hə, nə oldu? Xeyir ola, mənə çatanda gözlərini yumursan. Yaman tez hallanırsan. Cahid səni nə pis öyrədib. Uşaqda fərasətə bax, halaldır. Elə bilirsən gecələr ağacın altında Cahidlə çıxardığın oyunlardan xəbərim yoxdur? Ərin necə, bilir? Bədbəxtin hardan xəbəri olsun. O orda kef edir, sən də burda…

Təyyarın sözləri hərəsi bir oxa çevrilib Əfiqənin könlünə sancılırdı. Nə söz deməyə, nə də çırpınıb əlindən çıxmağa, müqavimət göstərməyə halı yox idi. Sanki döyül-

müşdü, qəfildən başına qaynar su tökülmüşdü. Deməli bu əclaf gecələr onun Cahidlə sevişməyini görübmüş. Həmişə elə güman edirdi ki, sirrini təkcə Allah bilir. Demə, ona da etibar yox imiş. Imkan verib şeytan da görsün. Gözləri ilə görübsə inkar etməyin xeyri olmayacaqdı.

– Halın xarab olmasın. Narahat olma. Özünə gəl. Bir mən bilirəm. Kimsə bilmir. Mən də heç kimə deməyəm, heç Şamxal bibinəvəsinə də. Gəl ki, bir balaca, amması var. Gərək beş dəfə Cahidi görəndə arada bir məni də görəsən. Daim tək ona zövq verməyəcəksən ki? Yəni ondan pisəm, ya bacarıqsızam? Mənə də pay ayır o zövqdən, savabın artsın. Yox əgər razı olmasan sabahdan bir mən yox, hamı biləcək ki, sən xəlvətdə kiminlə gəzirsən, aşnan kimdir. Çığır-bağır salıb aydan-arı, sudan duru olduğunu kiməsə inandıracağını ağlına belə gətirmə. Heç kim sənə inanmayacaq. Belə olanda Şamxal da səni boşayacaq, elə Cahid də yaxn durmayacaq. Anladın məni?

Təyyarın şorgöz olduğunu hələ məktəb illərində gözlərindən sezmişdi. Fürsət düşəndə oğrun-oğrun qabaran sinəsinə, yanından keçərkən isə arxasınca baxdığını dəfələrlə hiss edib əhəmiyyət verməmişdi. Sonralar onu adı ayrı-ayrı vaxtlarda kəndin gəzəyənləri hesab edilən qadınlarla birgə çəkilmişdi. Hər yoldan ötənə nəfs salanın gözü indi Əfiqəni tutmuşdu.

Əfiqə başını itirmişdi. Özbaşına, xeyir-duasız, qeyri-qanuni olan yaxınlığın axırı bundan fərli olmayacaqdı. Nə vaxtsa Allah onu cəzalandırmalıydı.

– Düzünü deyim, uşaqlıqdan səndən kəsirdim. Cahidin fərasəti məni də ürəkləndirib. Odur ki, gəl uzatmayaq: ya məni də təmin et, bir daş altda – bir daş üstdə… Ya da ki, sirrin aləmə faş olacaq… Ikisindən birini seç.

Adama oxşamayan bu şeytan sifət bilərəkdən iki da-

şın arasında onu elə dalana dirəmişdi ki, təslim olmaqdan savayı çarəsi qalmırdı. Bəlkə aldatsın, – düşündü. Aldatsın, vaxt qazansın. Təki hələlik bir yolla onun caynağından, qollarının arasından çıxıb canını qurtarsın. Bayaqdan üzünü çevirib Təyyara baxmaq istəmədiyi yarıyumulu gözlərini açıb danışmağa çalışdı. Keçirdiyi iztirablardan səsi nazilib kövrəkləşmişdi:

– Razılaşsam, aldatmazsan?

– Əlbəttə, yox! Nəyə istəyirsən and içim!

– Yaxşı, indi məni burax, görüşərik.

– Xeyir. Mənimki nağddı. Mən nisyəyə aldananlardan deyiləm – Təyyar xüsusi cəldliklə Əfiqənin yançaqlarından yapışıb qucağına aldı.

– Ağlın çaşıb? Burada? Palçığın içinə yıxacaqsan məni?!

Təəccüblənmiş Əfiqə onun nə istədiyini aydın dərk edə bilmirdi.

– Bay, lap bakirə qız kimi danışırsan. Heç ayaqüstü görməmisən? Bilməmiş olmazsan. Belə ayrı ləzzəti var, bir dəqiqə imkan ver, özün də razı qalacaqsan...

Əlləri sürətlə sarğısında gəzdi, donunu araladı… Əfiqə onun niyyətinin ləyaqətsizliyini başa düşəndə artıq gec idi. Əfiqənin çaşqınlığından istifadə edən Təyyar bir neçə anın ərzində istəyini əldə etmişdi.

– Vəhşi!..

İnilti dolu nifrətlə dediyi bu sözdən başqa söz tapmayan Əfiqə Təyyarın şəhvəti sönənə qədər gövdəsi ilə paxla kollarına tərəf əyilib, kənardan eşidilməməsi üçün səsini içinə qısaraq, qəlbini, bütün cismini göynədən ağrıdan için-için ağlayırdı…

* * *

Təyyarın onu zorlaması əhvalında ciddi əsəb pozğunluğu yaratmışdı. Tez-tez heç nədən hirslənirdi. Daha həyət, bostana gündüzlər də tək çıxmazdı. Hara getsə uşaqları da yanında gəzdirərdi. Axşam düşəndən səhər açılanadək işıqlı olmayan yerə ayaq basmırdı. Ən çox qaranlıqdan qorxurdu. Ilan vuran ala çatıdan qorxar deyiblər. Onun aləmində daha qaranlığa inam qalmamışdı.

Bu hadisəni Əfiqə taleyin xəbərdarlığı kimi qəbul etmişdi. Nəticə çıxarmasa dalınca onu faciə haqlayacaqdı. Odur  ki, Cahidin heyrət və israrına baxmayaraq, onunla bir müddət gecə görüşlərinə son qoymaq qərarına gəldi. Ziyanın yarısından da olsa geri qayıtmaq lazım idi. Təyyarın hərəkətini, başına açdığı «oyunu» Cahiddən gizlətdi. Onsuz da olan olmuşdu. Cahidə danışmağın nə xeyri olacaqdı? Uzaqbaşı Cahid hirslənərək acığından Təyyarı qisas məqsədiylə ya bıçaqlayacaq, ya da öldürüb qazamata düşəcəkdi. Nəticədə məsələlərin üstü açılacaq və özü də el içində rüsvay olacaqdı. Maraqlısı o idi ki, nədənsə ürəyində Təyyara qarşı nifrət hiss etmirdi. Günahı özündə görürdü. Təyyar sadəcə əxlaqca pozğun arvadbazın biri idi. Əgər Təyyar sayaq «kişi» olub kiminsə arvadının gəzdiyini gözləri ilə görərdisə, o da dinc durmazdı. Demək yaramazın nəzərində özünü o biri gəzəyənlərə tay edib ki, ona da "iştahlanıb". Amma, yox, eşşək palçığa bir dəfə batar. Bir də imkan verməz ki, yenə kimsə onu zorlasın. O dəfə gözləmədiyi vəziyyətə görə, düşdüyü şok stresdən, şantaj hədəsindən nə edəcəyini bilmədi və Təyyar da təcrübəsizliyindən istifadə etdi. Təkrar rastlaşarlarsa, onun heç nəyindən, hətta zorlamasından qorxmayacaqdı. Artıq qorxulası anlara bələd idi, o sınaqdan keçmişdi.

Zorlama əvvəlcə cismində ağrı, könlündə ikrah hissləri yaşatmışdısa, sonda içində şirin bir duyğunun yaranışı ilə bitmişdi. Və onda ağlasığmayan bir istək – nə vaxtsa yenə, lakin bu dəfə sevdiyi tərəfindən zorlanmaq arzusu əmələ gəlmişdi…

Insan qəribə məxluqdur. Hərdən özü-özünün nə istədiyini də aydınlaşdıra, anlaya bilmirdi. Həyatında kişilərin sayı artdıqca sanki dəyişilir, başqalaşırdı. Həyata baxışı, düşüncə tərzi, insanlara münasibəti kəskinləşmişdi. Bir il qabaq yatsaydı belə nə Cahid, nə Təyyar yuxusuna gəlməzdi. Bu minvalla bir il sonra başına nə gələcəkdi?! Allahdan qeyri kim bilər? Fikirləşərkən Allahın ona yazığı gəlməsi üçün dua edər, arzu olunmaz halların baş verməməsindən ötrü dodağını-dodağına sıxıb əli ilə qulağını çəkərdi.

Çox keçmədi, o, sağlamlığında da dəyişiklik hiss etməyə başladı. Bədəninin müxtəlif əzalarında əvvəllər olmayan ağrılar baş qaldırmışdı. Adi ev işləri ilə məşğul olarkən başı bir neçə dəfə hərlənmişdi. Nə yaxşı tez özünü ələ alıb yıxılmamışdı. Mədəsi isə nə yeyirdisə qıçqırtı verib halını pozurdu. Nə olmuşdu ona? Qastrit oldu, ya soyuq dəydi? Yayın cırhacırında soyuqlama hardan gəldi? Yoxsa əsəbdəndi, keçirdiyi sarsıntıların nəticəsidir?

Ilk günlər başını, belini bağlayıb, bildiyi türkəçarələrlə özünü müalicəyə başlayaraq çölə-bayıra da çıxmadı. Ancaq nə qədər çalışsa da müalicəsinin kəsərsizliyi qanını qaraltmalı olurdu. Ağrıları azmış, üstəlik ürəkbulanması da başlamışdı,

«Yox, bu soyuq məsələsi deyildi, – Əfitqə fikirləşirdi, – neçə gündü yeməyinə də nəzarət edirdi. Bəhanə yeri yox idi. Bəs onda niyə belə olsun? Gözün aydın, olmaya ha-

miləsən?!» Əfiqənin iliklərindən üşütmə keçdi. Sonra üşütmə soyuq tərə çevrilib bədəninə yayıldı. Düşüncəsindən beyni istiləndi. "Əgər elədirsə, mən batdım… Mən kimə, hansı üzlə deyə bilərəm ki, uşağa qalmışam. El, aləm də bilir ki, başı batmış ərim neçə ildir evinə gəlmir. Soruşmayacaqlar ki, hardan əmələ gətirmisən? Necə çıxacaq adamların üzünə? Yadlar bir yana, bəs özününkülər? Bağışlayacaqlarmı görəsən? Atasının, anasının üzünə necə baxacaqdı? Heç cürə özünə bəraət ala bilməyəcəkdi, Mütləq, necə var qarşısını almalıydı. Nəyinə gərək idi ona şərəfsizlik, bədbəxtlik gətirən uşaq…»

Yadına düşdü ki, keçmiş hamiləlik dövrlərində əlinə ağır yük götürməyə qoymurdular. Həmin andan dəli kimi yerindən durub əlinə keçən nə qədər ağır əşya var, güc etməyə, qucağına alıb ev boyu daşımağa başladı. Beli ağrıyıb halsızlaşanadək müxtəlif yüklərə gücəndi. Sanki, Əfiqənin acığına həsrətlə istədiyi hal heç cürə baş vermirdi. Yorulub taqəti kəsiləndə ağlına gəldi ki, birdən-birə «pəhləvan» olmaq yaramaz. Qaş düzəltdiyi yerdə gözünü də vurub çıxarar. Güc etməkdən qarnı yırtılar, sonra da ağılsızlığından ömürlük şikəst qalar. Gücənməkdən çarə olmaz, başqa yol tapmalıdır. Bəlkə heç hamilə deyil. Boş yerə özünə bu qədər əziyyət verir. Gərək necə var onu tanımayan həkimə gedib özünü yoxlatdıra. Birdən şübhəsi düz çıxsa?! Düz çıxsa şəkksiz bətnindəkini götüzdürməlidir, vəssəlam. Tək ona çətin olacaqdı. Bu işdə gərək Cahid də ona kömək etsin. Bəs necə, elə onun zibilinə düşmədimi… Nə yaxşı ki, Təyyar söhbətini ondan gizlətdi. Kişilərə inam yoxdur, indi də deyər mənlik deyil, get Təyyara de. Həqiqətən sonuncu dəfə, o, bir-iki gün fərqi ilə hər ikisi ilə əlaqədə olmuşdu. «Görən

hansından uşağa qalmışdı? Ay Allah, bu nə işdir başıma gətirirsən, – düşündüklərindən Əfiqənin qanı qaralır, nəfəsi təntiyirdi, – uşaq olarsa bilməyəcəyəm ki, atası kimdir. Hərhal Cahid olmalıdır, yəni bir dəfə zorlama ilə uşağa qalmaq olar? – Əfiqə özünə toxtaqlıq verirdi, – ona görə də Cahidlə danışmalıyam, Təyyarı isə birdəfəlik unutmalıyam».

Səhəri günü Cahidlə razılaşdıqları parolla (pəncərəyə dibçək düzməklə) gecə gözləyəcəyini işarə verdi.

Cahid axırıncı görüşdə xışıltı səsi eşitcək qucağından qaçdığı andan Əfiqəni başa düşə bilmirdi. Axı o nədən qorxdu? Nə baş verdi? Xeyli müddət həyətə, çölə çıxmayıb, gözə görsənməyən Əfiqə üçün narahat olan Cahid onu yaxından görməyə neçə vaxtdı bəhanə axtarırdı. Bir axşam tərəfi dükan-bazar yolunda təsadüfən rastlaşanda məəttəl qaldı. Elə bil Əfiqəni cin vurmuşdu: baxışları dəyişmiş, sifətində qəribə cizgilər əmələ gəlmişdi. Dəliləşmiş, sərtləşmişdi. Hər cürə görüşdən imtina edir, heç nə olmayıbmış kimi hər şeyi unutmağı yalvarırdı. Uşağının birini qucağından qoymayır, digərini isə əlini əlindən aralamağa qoymurdu. Nə olmuşdu ona, səbəbini ağlına sığışdırmırdı…

Əfiqənin xahişinə baxmayaraq hər dəfə küçədən keçəndə vərdişi üzrə onun otağının pəncərəsinə mütləq göz qoyurdu. Bir səhər pəncərəyə düzülmüş dibçəkləri görəndə şadlandı. Yəqin, imtina etməyinə peşman olub, – düşünərək sevindi.

Lakin bir aydan çox görüşməmələrinə baxmayaraq görüş Cahidin güman etdiyi tərzdə olmadı. Olsa-olsa Əfiqənin ötən dəfəki avazımış sifəti bir az da qəmginləşmiş, yazıqlaşmışdı:

– Əfiqə, nə olub sənə, bir məni başa sal görüm. Xəstələnmisən, yoxsa?

– Heç nə olmayıb. Nə olmalıydı ki?

– Yox, sənə nəsə olub. Aldatma məni, düzünü de.

Cahid nəsə anlayacaq kimi onun gözlərinə baxa-baxa belini qucaqladı. Əfiqə sərt hərəkətlə onu özündən araladı:

– Sənə demişəm axı, bu söhbətləri qurtardıq. Mən səni bunun üçün çağırmamışam.

Cahid qolunun itələnməsindən pərtləşsə də üzə vurmadı:

– Yaxşı, niyə çağırmısan, de, bilim.

Əfiqə bir anlığa susdu. Sanki indi deyəcəyindən utanırdı:

– Mən deyəsən bir bəlaya düşmüşəm. Sən kömək etməlisən.

– Nə bəla?

– Məncə hamilə olmuşam…

– Hamilə olmusan? Məndən?

Əfiqə özünü itirdi. Bu nə yersiz sual idi Cahid ona verirdi. Gözləri dolsa da özünü topladı:

– Zırrama! Səndən omayıb kimdən olasıdı ki…

Cahid qulaqlarına inanmadı. Bilmədi sevinsin, ya kədərlənsin. O, ata olacaqdı!

– Incimə, sən mənim canım, – kövrəlmiş Əfiqənin əllərini öpüb, ovundurmaq istədi, – həyəcandan elə dedim, bağışla. De görüm sənə necə kömək lazımdır.

Əfiqə göz yaşlarını silib davam etdi:

– Mən hələ dəqiq bilmirəm. Istəyirəm heç kim bilməsin. Sən mənə kömək edəsən bir yad həkim baxsın. Bilək varmı, yoxmu. Yoxsa lap yaxşı. Varsa götürsün, bu biabırçılıqdan xilas olaq…

– Yox mən istəyirəm qalsın, – Cahid səbirsizliklə Əfiqənin sözünü kəsdi, – mən abortun əleyhinəyəm…

Əfiqə təəccübündən keyimişdi: bu sarsaq nə danışır? Könlündən keçir ki, mən onun üçün uşaq doğub saxlayım?

O, yenidən kövrəldi. Əllərini qaranlıq göyə tərəf tutub yalvardı:

– Ay Allah, sən kömək ol mənə, yəqin səndən başqa mənə kömək edən olmayacaq. -Gözlərini göydən çəkəndən sonra Cahidə acıqlandı:

– Sənin ağlın çaşıb, axmaqlayırsan. Fikirləşmirsənmi uşaq olsa başımıza nələr gələcək.

Cahid fikrə getmişdi, cavab verməyə çətinlik çəkirdi:

– Əfiqə indi ağlıma bir fikir gəlmir. Qoy bir neçə gün fikirləşim, həkim yeri öyrənim. Sonra son qərara gələrik.

– Ağıl var ki, gəlsin. Olsun, get fikirləş. Amma o qədər çox fikirləşmə ki, sonu peşmanlıqla bitsin. Sağ ol. Gecən xeyrə!

Əfiqə harasa gecikirmiş kimi tələsib, o xışıltılı səs eşitdiyi gecə sayağı qaçaraq özünü otağına yetirdi. Cahid isə yerindən tərpənməyib bayaqdan bəri eşitdiklərini, Əfiqənin yeni qəribəliklərini düşündükcə düşünür, yeni nə isə dərk etməyə çalışırdı.

* * *

Günlər keçsə də Cahiddən bir soraq çıxmadı. Elə o fikirləşməyə gedən idi. Əfiqənin isə səbri günü-gündən daralırdı. Bu qədər fikirləşmək olar, – dodaqaltı deyinib gileylənirdi. Axı ləngidikcə onun əzabı artacaqdı. "Cahidin nə qulağına, canından ağrımayacaqdı ki… Məni zibilə salmağı azmış hələ bir xəyalından onun üçün dünyaya uşaq gətirməyim də keçir, – ürəyində məzəmmətləyirdi, – bu ağılsıza çox da etibar etməyə dəyməzdi. Özünü gicliyə vurdu,

kömək etmədi. Bəs onda neyləyəcəkdi? Yoxsa anasına sirrini açıb yalvarsın? Xeyr, anasının da boğazında söz durmayacaqdı. Tez atasına çatdıracaqdı və sonra da gəl yaşa görüm, necə yaşayasan"…

Nə bacısı, nə də rəfiqəsi yox idi, dərdini desin. Ancaq bu dərd kimsəyə açılmalı deyildi. Hətta torpağa, daşa da. Çünki hərdən yerin də qulağı olurmuş.

Allahdan savayı heç kim ona dayaq durmayacaqdı bu ağır yükdən qurtulmağa ulu Tanrıdan ayrı kimsənin gücü çatmayacağı qənaətinə gəlib, hər gün dualar edirdi. Xüsusilə gecələr uşaqları yatırıb yalqız qalanda, dünyanı unudaraq sevimli Ilahisi qarşısında diz çöküb, yalvarıb ağlayırdı. Belə vaxtlarda kənardan özünə baxıb acığı tutardı. Insan nə dərəcədə alçaq məxluq imiş. Allahını yalnız dara düşəndə axtarır. Xoş günündə Allahını xatırlamayıb özünü mühüm bir qüvvə, varlıq hesab edən insan çətinliyə düşən kimi acizliyini anlayıb cılızlaşar, yalvarardı. Deməli bu cür lazımmış, çətinliyə salıb bu qayda ilə ulu varlıq onu anmaq istəməyənlərə öz mövcudluğunu qandırırmış.

Ötən illərdə də Allaha yalvarışla dolu anları yaşamışdı. Həm də eyni zamanda günlərlə, aylarla. Onu xatırlamadığı vaxtlar da olmuşdu, Gəl ki, heç vaxt indikindən ağır dərdi, köməyə ehtiyacı olmamışdı. Görünür, qoyduğu sınaqlara dözməkdənsə, günaha yol verdiyi üçün Allah onu cəzalandırmaq qərarına gəlmişdi. Özü bilən məsləhət idi. Dua etməkdən, yalvarmaqdan əlavə nə edə bilərdi. Ümid edirdi ki. bəlkə yalvarışlarını eşidib Rəbbi insafa gələ, rəhm edə.

Axırıncı dəfə Şamxalın göndərdiyi pul yetəndə uşaqları yanına götürüb yaxınlıqdakı mağazaya yollanmışdı. Vacib ərzaqları alıb geri qayıdarkən yolda bir sinifdə oxuduqları

rəfiqəsi Sevillə rastlaşdı. Sevil əvvəl Əfiqəni, sonra uşaqları öpüb-qucaqladı:

– Ay maşallah, Allah bazarlığınıza bərəkət versin. Necəsən? Gözümə gümrah görsənmirsən. Nə olub sənə, nəyin fikrini çəkirsən, ay qız?

Küçənin ortasında keçmiş rəfiqəsinə nə anladacaqdı:

– Belə də, nə deyim, fikir həmişə var. Fikirsiz həyat ola bilməz. Sən özündən danış. De görüm evlilik necədir, xoşuna gəlirmi?

Sevil ötən payızda kasıb ailədən olan sürücü oğlana ərə getmişdi:

– Narazılığım yoxdu. Düzdü, hələ çətinliklərimiz çoxdu. Bir ildi qohumlarımızın boş qalan evində kirayədə yaşayırıq. Imkan olan kimi torpaq alıb ev tikəsiyik. Görək də, sağlıq olsun. Ikimiz də işləyirik, gəl ki, iş tapanda. Daimi iş tapmaq olmur, hamısı müvəqqətidir. Yoldaşım hərdən deyir ki, gəl biz də gedək xaricə – özümüzə, gələcəyimizə bir gün ağlayaq…

– Ağlınız olsun, nəbadə gedəsiniz, – Əfiqə ona sözünü bitirməsinə imkan vermədi, – yadlar içində olan xoşbəxtliyinizi də itirərsiniz. Pulu hər vaxt qazanmaq olar, vacib olan xoşbəxtlikdi. Darıxmayın, Allah kömək edəcək, tezliklə balacalarınız da dünyaya gələr...

Sevilin rəngi tutuldu:

– Mikrob əgər imkan versə. Neçə vaxtdı təkrar-təkrar müalicə olunuram.

Əfiqə soruşmağına peşman olub təskinlik verməyə tələsdi:

– Bu nə bəladı, bacı, bilmirəm. Kimi görürsən mikrobdan dad eləyir. Hamısı bu andır ərzaqlardandı, kimyanı

yedizdirirlər bizə, – aldıqlarına işarə etdi, – mikrob da yeriyir qanımıza. Insanın sağlamlığı üçün narahat olan yoxdu. Hamını yalnız varlanmaq, hansısa fəndlə pul çırpışdırmaq düşündürür. Allah şəfanı versin, darıxma, tezliklə övlad payını da alarsan.

– Mən dərdlərimi açıb tökdüm. Heç sən demədin, niyə qəmginsən, səni fikir çəkməyə vadar edən nədir? Maşallah, hazır evin-eşiyin, gül kimi balaların, ərin vaxtlı-vaxtında dolanışığınızı göndərir. Özünü neynirsən, qulağı dinc yaşayırsan. Ildə bir dəfə görsən bəsindi...

Əfiqə Sevilin əvvəllər etdiyi şit zarafatlardan yenə deyəcəyindən ehtiyatlanıb gülərək sözünü kəsdi:

– Bildim, çatdı, aydındı, gerisini deməsən də olar...

Ayrılarkən Əfiqə sadə dolanışıqlı, ailəsi yanında, təmiz yaşayan, şən qəlbli rəfiqəsinə ürəyində qibtə etdi: məni xoşbəxt hesab edir, amma öz xoşbəxtliyindən xəbəri yoxdur...

* * *

*"Ey, Adəm balası, insan ol, yaşadığın yer üzündə sonun meyit olmaqdı, dünyadan ondan artıq "qazancın" yoxdu..."*

Gecələrin birində, uşaqları yatandan sonra axır günlərdə öyrəşdiyi kimi yenə özünə qapılaraq sabahkı xoş günü üçün zamanın Sahibinə yalvarıb dua etmək istəyirdi ki, həyət qapısının aramsız zəngindən diksindi. Allah xeyir eləsin, gecənin bu vaxtı kim ola, – Əfitqəni narahatlıq bürüdü. Hər dəfə gecə vaxtı qapını döyən olanda ağlına gələn əcaib-qəraib fikirlərdən ürəyi sıxılırdı. Əbəs yerə deməmişlər ki, gecənin xeyrindən, gündüzün şəri yaxşıdır.

– Kimdir? – Əfiqə qapını açmadan təşvişlə soruşdu.

Cavab verən olmadı. Sükutdan darıxdı. Deyəsən zəngi basan cavab verməyə tələsmirdi. Səsini çıxarmamaqla onun nigarançılığını artırmaq istəyirdi.

– Səsini çıxar, kimdir? Nə lazımdı?

– Mənəm, tək deyiləm, qonaq gətirmişəm.

Səs kəndin mərkəzində yaşayan qaynı Zakirin səsiydi. Çöldə kimin dayandığını bilməyincə Əfiqənin qapını açmayacağını başa düşüb səsini çıxarmalı olmuşdu.

– Zakir, sənsən. Bu vaxtı xeyir ola?

Ürəyində şükür etdi ki, səbirsizlik edib özgə ad çəkmədi. Heç nədən özünə gərəksiz söhbət yaradacaqdı.

– Xeyirdi, tək deyiləm, qonaq gətirmişəm.

– Gecəyarı qonaq olar? Söz tapdın da, – o deyinə-deyinə qapıya yaxınlaşıb qıfılı açmağa başladı.

– Olanda olur, aç qapını görəcəksən…

Əfiqə qapını açanda Zakirin arxa tərəfində bir nəfərin dayandığını gördü.

– Salam, gecən xeyirli olsun.

– Sağ ol. Gündüz vaxt tapmadın qonaq gəlməyə? Hə, de bilim nə lazımdı?

– Elə bilirsən zarafat edirəm. Gəldim qonağı təqdim edəm. Buyur, – o, əlini yanaşı durmuş hündür, enlikürək kişiyə tərəf uzatdı. Küçə qapısının zəif işığında kimliyini tam ayırd edə bilmədiyi bu insan Əfiqəyə tanış gəlirdi.

– Küçədə dayanmayın. Ağlım heç nə kəsmədi. Gəlin içəri, işığın altına, bəlkə bir şey anladım…

Zakirin səsinin tonundan kefinin köklüyü hiss edilirdi. Addımını atmayıb ərklə gülümsəyərək, yanındakını irəli verdi:

– Sən böyüksən, keç qabağa, çəkinmə ay “qonaq”, özünü evində hiss et…

Işığa çıxan qaraltının Şamxal olduğunu görəndə Əfiqənin təəccübündən qanı damarlarında dondu: Doğrudanmı bu gələn Şamxal idi? Bəs niyə xəbərsiz-ətərsiz, gecə vaxtı? Illərlə evini unudan insanın belə gözlənilməz gəlişi nə ilə bağlı idi?

– Şamxal?!

Əfiqə Şamxalın az qala unutduğu gözlərini tanıyanda, sanki, nəfəsi dayandı. Istədi çığırsın, sevincindən, həm də acığından uşaq kimi cırnayıb ərköyünlük etsin, qucaqlayıb ağlasın, hirsini-hikkəsini boşaltsın. “Itmişdin, batmışdın, hardaydın bu vaxta qədər? Belə kişilik, ailə saxlamaq olar? Mənə yazığın gəlmir, bəs balaların? Atıb gedəcəkdinsə bizi neynirdin? Pul göndərməklə borcunu ödəmiş sayırsan? Bəs insanlıq?”

Gözlərindən süni gülüş yağan Şamxalı illər dəyişməmişdi:

– Inanmağın gəlmir?

Səsi də həmən idi. Bir az da qalınlaşıb ağırlaşmışdı. “Əgər qəlbi də eyni əvvəlki kimidisə, onda heç sevinməyə dəyməzdi,” – qayğılandı Əfiqə. Çox keçməyəcək,, təzədən qara günləri başlayacaqdı. Amma hazırkı ağır vəziyyətində ərinin evinə gəlməyi, onun üçün “göydəndüşmə” idi. Daha nə camaatın qınağından qorxmağa, nə də Cahidin və ya kimsənin köməyinə ehtiyacı olmayacaqdı. Allahın ona rəhmi gəlmişdi: yalvarışlarını, dualarını eşidib Şamxalı peyda etməklə həyatını məhvə sürüyəcək böyük bir əzabdan, rüsvayçılıqdan kənarlaşdırmışdı. O, Tanrısına minnətdar idi! Gözləri dolmuşdu. Bilmirdi Şamxalın sual dolu baxışlarına nə cavab versin…

– Hə, inanmağın gəlmir? – Şamxal yenə soruşdu.

Zakirin yanında nə desin ki, sonra söz olmasın. Tutulub qalmışdı, sözü yox idi deməyə. Bəlkə, sevincini bildirmək üçün boynuna sarılıb qucaqlasın, – düşündü. Qollarını qaldırmışdı, Şamxal imkan vermədi. Zakirin yanında onu qucaqlamasını gərək bilməyib əllərindən tutdu. Axan göz yaşlarına baxıb gülümsədi:

– Baho, deməkdən xoş gəlmisən, ayağımı evə basmamış ağlamağa başladın…

– Neynəsin, qınama, gör neçə ildir bir-birinizi görmürsünüz – bayaqdan əlindəki çantalara güc edə-edə onlara göz qoyan Zakir dilləndi.

– Uşaqlar gözümə dəymirlər.

– Yatırmışam, yuxudadılar, – Əfiqə yanağındakı yaş gilələrini silərək kövrək səslə cavab verdi, – indi oyadaram.

– Eybi yox, dəymə, qoy yatsınlar. Səhər ayılanda görüşərlər.

Çantaları astanaya daşıyan Zakir tövşüdü:

– Buracan gətirdim, bəsdi. Evinizin içinə özünüz daşıyarsınız. Hə, mən daha qayıdım…

– Hara? – Şamxal sözünü kəsdi.

– Necə hara? Evimə…

– Evinə, tələsmə gedərsən. Əfiqə, isti çayın var?

– Var, – Şamxalın niyyətini anladı, – siz keçin evə oturun, hazır edərəm.

– Yox, Şamxal, canın haqqı gecdir. Evə keçən vaxt deyil. Qalsın başqa günə…

– Zakir, həmişə bəhanə eləyirdin ki, Şamxal gələndə gələrəm. Indii Şamxal gəlib, ayrı bəhanə axtarırsan, – Əfiqə də qaynını məzəmmətləyib evə dəvət etdi, – bir az otur, gedərsən. Uzaq yerə getmirsən ki…

– Siz Allah, inciməyin, evdə məni gözləyirlər. Özgə yer deyil ki, öz evimizdi, hansı gün desəz gələrəm. Təki canınız sağ, evinizdə şadlıq olsun.

-Məsələ ayldındır, – Şamxal gülərək əlini əlinə vurdu, – evdə arvad gözləyir. Get qardaş səni saxlamaq olmaz, günahdı. Yaxşı yol, köməyinə görə çox sağ ol!

– Hələlik, – Zakir sağollaşıb evinə getdi.

Şamxalla tək qalan Əfiqəni isə anlaşılmaz hisslər çulğalamışdı. Neçə aylar, illər ərini arzulamışdı, həsrətdən yanmışdı. Bəs indi həyat yoldaşı yanında niyə yenə ürəyi sıxılırdı? Toy gecəsi Şamxalla bir otağa salınanda da köksündə belə bir sıxıntı, ağırlıq hiss etmişdi.

O gecə xoşbəxtliyin nə olduğunu tam anlamasa da duyduğu sıxıntılara əhəmiyyət verməyib özünü dünyanın xoşbəxti hesab etmişdi. Əfiqəyə elə gəlirdi ki, bu gecə də həmin gecənin davamıdır və yaxud təkrarıdır. Heç nə onların yeniləşən sevgisinə, vüsalına mane ola bilməzdi. Yenə dünyanın xoşbəxti olacaqdı. Bu xoşbəxtlik çoxmu çəkəcəkdi, düşünmək istəmədi. Daha olan umu-küsülərin, köhnə palan içi sökməyin yeri deyildi. Bu gecə Allah ona Şamxalı ilahi pay yetirmişdi:

– Gecə vaxtı necə gəldin?

Əfiqə Zakir gedəndən sonra verdiyi sualla yaranan sükutu pozmağa çalışdı. Əslində ona necə gəlməyindən çox, danışmağa nədən başlamağa çətinlik çəkən Şamxalın açılışması, aralarındakı neçə ilin buzunun əriməsi vacib idi. Ötən illər ərzində etdiyi diqqətsizliyin, soyuqluğun töhmətini Əfiqənin gözlərindən oxuyan Şamxal sualı eşitcək xoşlandı. O, gözlədiyi şikayəti, tənəni heç olmasa indi eşitmək istəmirdi:

– Kəndə qaranlıq düşəndə çatdım. Əvvəlcə evimizə dəydim – anama. Iki-üç saat oturub bir az özümə gəldim. Gördüm saat oldu on iki...

“Deyəsən buranı öz evi saymır, – Əfiqə düşündü, – yaşamırsa niyə də saysın?” Lakin, əhəmiyyət vermədi. Nə olur-olsun, bu gecə qanını qaraltmamalıydı. Özünün və Şamxalın əhvalını poza biləcək ən xırda xətaya da yol verməməli, hər uyğunsuzluğa dözməli, bütün qadınlıq məharətini işə salıb həyatında dönüş yaratmalıydı.

Elə də etdi. Əfiqə Şamxala qarşı qəlbindəkiləri bir kənara qoyub, özünü sevgili həyat yoldaşı kimi aparmağa müəyyən qədər nail oldu. Çalışdı Şamxal görsün ki, onu əvvəlkindən də çox sevir və elədiyi səhvləri bağışlayır.

Şamxal arvadının davranmasından, ürəyində xeyli təəccüblənmişdi. Son illərdə Əfiqənin görkəmi yaşlaşmış, sifətində qırışlar əmələ gəlmişdi. Ən çox xasiyyəti dəyişmişdi. Tanımaq olmurdu. Mehribanlaşmış, xoş sifət insana çevrilmişdi. Keçmiş tərsliyi, zəhlətökənliyi yox olmuşdu. Ondan qanını qaraldacaq heç nə soruşmur, heç nədən şikayətlənmirdi. Elə bil təzəcə tanış olmuşdular. Güman edirdi ki, söhbət arası yenə nə vaxt qayıdacağını soruşub, dalısıyca iki aydan sonra gedəcəyini biləndə ağlaşma həngaməsini başlayacaq. Nədənsə onu da soruşmurdu. “Yəqin yaşlaşdıqca ağıllanır, səbirli olmağı öyrənir, birinci gündən əhvalını pozmaq istəmir, – düşündü Şamxal, – nə yaxşı, Allaha şükür, həmişə qanan olsun..”.

Gecə boyu gözlərinə yuxu gəlmədi. Əfiqənin şirin söhbəti Şamxalın başını elə qatmışdı, gecənin necə keçdiyini hiss etmədi. Yataq yalnız səhərə yaxın yadlarına düşdü.

Hər dəfə uzun ayrılıqdan sonra Əfiqə ilə yatağa girərkən naz etməsini, soyuyub buzlaşmasını görərdi. Bacarığının,

hissiyatının korşalmasındanmı, yoxsa acıqca, qəsdən belə etməsini bilməzdi. Bu dəfə isə o, nəinki naz etmək, hətta canına yağ təki yayılan nəvazişləri ilə Şamxalı heyran etdi. Xoşuna gəlsə də səbəbini anlamadığı üçün ürəyini sıxan suallar yaranmışdı: Görəsən Əfiqənin belə dəyişməsinə nə təsir etmişdi? Əri ilə təmasda olmadığı illərinmi həsrətiydi, ya da anlaya bilmədiyi bir səbəbmi vardı?! Gözü su içmirdi ürəyinə daman şübhələrdən. Əfiqənin isti, odlu bədəni həsrətli olduğu qədər, eyni anda həm də öyrəncəliyə oxşayırdı. Bəlkə ifrata varırdı, düşündükləri əbəs idi. Hər halda bu sualların cavablarını bir neçə gecəyə öyrənib dəqiqləşdirmək də çətin idi. Hissləri onu aldada bilərdi. Yaxşısı ilk gündən pis fikirlərə başında yuva qurmamaqdır, – Şamxal özünü qınadı, – gec-tez hər şeyi öyrənəcəkdi, tələsib təndirə düşmək lazım deyildi. Ola bilər ki, onda yenidən sevgi yaranıb, xəbəri yoxdur! Bununla belə Əfiqənin yataqdakı istiqanlığına baxmayaraq gözlərindəki donuq baxışların qalmaqda davam etməsi də nəzərindən qaçmamışdı... Baş aça bilmədiyi düşüncələrlə səhərə yaxın yuxuya getdi.

Səhəri gün yuxudan ayılanda nahara az qalırdı. Qulağına həyətdə oynayan uşaqların səsi gəldi. Artıq oğlu Samirin beş, qızı Səbinənin üç yaşı vardı. Xeyli böyümüşdülər. Əynini geyinib Əfiqəni səslədi:

– Əfiqə, uşaqları gətir yanıma.

Uşaqlar evdən gələn yad kişi səsini eşidib döyükmüşdülər. Əfiqə onları xoş avazla çağırırdı:

– Eşidirsiz Samir, Səbinə, gəlin evə. Görün bizə kim gəlib?

Analarının çağırışını eşidən uşaqlar oyunlarını yarımçıq saxlayıb irəlidə Samir, arxasınca Səbinə yanlarını basa-basa evə sarı yönəldilər:

– Ana, kim gəlib?

– Gəlin görəcəksiz.

Otağın qapısından içəri girən uşaqlar Şamxalı görüb duruxdular.

– Hə, tanıdız?

– Ana, bu dayı kimdir? Qorxuram ondan, qov onu evimizdən, – Samir Şamxala tərəf getməyib anasına qısılıb qıçlarını qucaqladı. Səbinə isə mat-məətəl baxırdı.

Əfiqəni gülmək tutmuşdu. Əyilib onu qucağına aldı, başını sığalladı:

– Qorxma, bu dayı deyil, sənin atandır. Uşaq yazıq neyləsin, gör nə vaxtdır görmür, hardan tanısın.

– Bəs sən deyirdin dayıdır. Dayının bığları yox idi, bəs bunun bığları var ki...

Əfiqə gülsə də uşağın son sözündən içindən xəfif sazaq keçdi. Samirin bir dəfə onu Cahidlə həyətdə gördüyün xatırladı. O zaman uşağın “o kimdir” sualına, “dayıdır” cavabını vermişdi. Az qala özünü itirib çaşqın vəziyyətə düşəcəkdi. Samirin sözünü bir yana çıxarıb yozmalıydı. Şamxal onları gizli maraq və diqqətlə süzürdü:

– Kimi deyir görən, bığsız dayı?

Əri cavab gözləyirdi. Necə var vəziyyətdən çıxmalıydı. Ömründə ilk dəfə olaraq artistlik etmək məcburiyyətində oldu. Gülüşünü saxlayıb sifəti hefrət ifadəsi aldı:

– Aa... Gör necə yadında qalıb? Ötən payız bir işıqçı gəlmişdi, sayğacı yoxlayırdı. Soruşdu kişi kimdir, dedim dayıdır. Bığının olmaması da yadında qalıb...

Əfiqə əslində ürəyində uşağın sözünə yox, an içərisində ağlına gələn yalanı düzüb qoşa bilməsinə görə özünə heyrət etdi. Şamxal uşaqların onu tanımamasından özlüyündə

utansa da üzə vurmadı, gülümsünüb onlara yaxınlaşdı. Gətirdiyi, dünəndən bəri ayırıb saxladığı rəngarəng oyuncaqlarla könüllərini almaq istədi:

– Böyüklərin adı çıxıb. Indiki dövrdə gərək uşaqlara da rüşvət verəsən... O bığsız işıqçı daha gəlmir?

Əfiqə sualı gözləmədiyi üçün düşünməli oldu:

– Hə... O gələn oldu, sonra görsənmədi. Kim bilir, bəlkə də işdən çıxarıblar...

Şamxal söhbəti uzatmadı. Amma ona elə gəlirdi ki, Əfiqənin səsi nəyisə gizlətməyə çalışan adamların səsi kimi avazıdı, həyəcan keçirdi. Çox da baş qatmaq istəmədiyi bu söhbət ona nədənsə müəmmalı görsəndiyindən bir müddət xatirindən silinmədi. Onu uşağın dediyi “bığsız dayı” sözündənsə, Əfiqənin səsinin titrəməsi təəccübləndirdi. Bu, səbəbsiz ola bilməzdi. Deməli, nəsə olub, ya da var, – Şamxal fikirləşdi. Doğrudanmı nəsə var? Yəni könlü istəyəndən sonra qadının kişi ilə münasibət yaratmağı nə çətin işdir ki. Illərlə ər əli dəyməyən, qohum-əqrəbanı fərq qoymadan acılayıb özündən kənar edən, səllimi-sərhayı yaşayan arvaddan nə desən gözləmək olar. Hələ qərib ölkədə birgə yaşayanda da başqa arvadla gəzdiyini bilib, onu xəyanətinin əvəzini ödəcəyi ilə hədələmişdi: sözlərinə tam əhəmiyyət verməsə də, qısqanclıq şəraitində yaşamaqdan, ürəyini didən şübhələrdən qurtulmaq üçün Əfiqəni kəndə qaytarmış, vaxtlı-vaxtında pul göndərib üzünü görmək istəməmişdi. Nəhayət, son aylar evlərindən, göndərilən məktublardakı qınamalar, mənasını aydın başa düşmədiyi ikibaşlı ibarələr, bir də uşaqlarını görmək istəyi kəndə ikiaylıq məzuniyyətə gəlməyə vadar etdi.

Xüsusilə məktublardakı bəzi sətirlər kefinə soğan doğramışdı: «...arvadını sahibsiz qoyub, yadlarla gün keçir-

məklə özünü kişi sayırsan? Yadındadı qonşu məhəllədki Rüstəm? Yanında ola-ola arvadının xəyanətini başa düşmüş, özünü asmışdı. Yoldaşına nə qədər arxayınsan ki, ildə bir dəfə də olsa arayıb axtarmırsan?...»

Həmin o “xəyanət” iddiasından sonra Şamxalın Əfiqədən zəhləsi getmişdi. Axı o xəyanət nəyə deyirdi? Onu boşamamışdı, hər ehtiyacını ödəyirdi, qayğısını çəkirdi. “Nə olsun ki, kənarda kiminləsə gəzirəm. Ondan sənə nə var, – ürəyində Əfiqəyə acıqlanırdı, – lazımdır, faydası var ki, gəzirəm. Sənin boğazından, geyimindən, rahatlığından kəsmirəm ki! Gücüm yetir, imkanım çatır, gəzirəm. Yox, bəlkə başıma ağalıq edəsən? Uzun illər öyrəşdiyim yaşayışıma sən düzəliş edəcəksən? Səni almadım ki, məni sındırasan. Aldım arvadlıq edəsən, uşaqlarımı saxlayasan. Bilməmişdim, otuzu ötəndən sonra sənin üçün Məcnun olacaqdım, əhd-peyman bağlayıb xəyanət etməyəcəyimə and içəcəkdim. Özündən on altı yaş kiçiyini alanda belə olar da. Ağlımı aldılar ki, uşaqdı, hələ ağlı kəsmir, harda saxlasan, orda dayanacaq. Budu ağlı kəsməyən? Mənimlə ayaq uzadır, xəyanətlə hədələyir...”

Əfiqənin kəndə qayıtmaq istəyini biləndə sevinmişdi. “Tərsin biridir, özgə yerdə kimləsə gəzmək, elə də çətin iş deyil. Yaxşısı odu, aparım kəndə, tanışlar içində görüm necə xəyanət edir. Edər, baxtından küssün, onda mən də bilərəm nə edəcəyimi...”

Kəndə gələndən bəri, düzdür, Əfiqə barəsində ona heç kim heç nə deməmişdi. Gəl ki, anasının, qardaşının, onu qarşılayan dostlarının söhbətlərindən, gözlərdəki mənalı baxışlardan Əfiqədən razı olmadıqları hiss olunurdu. Sanki hamı nəsə bilirdi. Amma kimsə cürət tapıb bildiyini – eşit-

diyini deməyə ürək etmirdi. Deyəcəkləri sözün məsuliyyətindən çəkinib, özünün aşkar etməsini gözləyirdilər. Nədən belə idi, görəsən? Narazılıq nədən əmələ gəlmişdi? Əfiqənin xasiyyətinin tündləşməsindən, yoxsa nə isə baş vermişdi?.. Əgər nə isə baş veribsə, bu, elə-belə iş deyil. Olduqca ciddi məsələdir. Və o qədər ciddidir ki, ailənin mövcudluğuna ziyan gətirə bilər. Ola bilsin ki, bu səbəbdən kimsə baiskar olmaq istəmir. Yəni, Əfiqənin ötən müddətdə yəqin yad kişi ilə xəlvəti münasibəti olub? "Maraqlıdır, – Şamxal düşünməkdən yorulmayıb başını çatladırdı, – ya da mən gicləşmişəm, qısqanclıqdan başım xarab olub. Hər ehtimala qarşı səbr etməkdən başqa çarə yoxdur. Yaşayarıq, görərik, uzağı qırx gün. Bəlkə də tez, hamısı məlum olacaq..."

Şamxal içindəki təbəddülatlar yox olanadək küçəyə, yad adamlar arasına çıxmamağa qərara aldı. Qorxdu ki, yaxınlarının baxışlarında hiss elədiklərini yadların da gözlərində görər. Təsadüfən birisi ilə sözü düz gəlməsə, beyni qızıb əlindən xəta törətsə qazandığı nə olacaqdı? Yaxşısı hələlik həyət-bacada aylanıb bağ-bostanın kəm-kəsəri ilə məşğul olub, gününü keçirmək idi.

Ona təəccüblü gələn Əfiqənin xasiyyətinin dəyişməsi ildi. Həyətin qapısından içəri addım atandan bəri Əfiqə elə mehriban, qayğıkeş davranırdı ki, səbəbini anlamırdı. Elə bil indi evlənmişdilər, toyları təzə olmuşdu. Indiki "təzə gəlin" əvvəlki Əfiqəndən çox bilirdi. Elə durub, oturub, danışırdı ki, ərinin xətrinə dəyməsin. Sanki ötən altı il yuxu imiş. Keçmiş illəri dava-dalaşla keçdiyindən Şamxal belə mehribançılığa vərdiş deyildi. Arabir könlündən keçirdi ki, bir bəhanə tapıb evdə aləmi qarışdırsın, gərginlik yaratmaqla yenidən ötən günlərə qayıtsın. Gəl ki, Əfiqə imkan

vermirdi. Elə dil tökürdü ki, o, fikrindən daşınmalı olurdu. Bəzən də tək olanda ürəyinə gələn şübhələrə görə özü-özünü qınayırdı. Bəlkə səhv edirdi, sübutsuz-dəlilsiz günah axtarmaq düz iş deyildi.

Əfiqə başa düşürdü ki, hazırda ömrünün ən çətin dövrünü yaşayır. O, Şamxalın, Cahidin günahlları üzündən anlamadan həyatda ona baha başa gələcək səhvlərə yol vermişdi. Bu səhvlər onu uçurumun kənarına yaxınlaşdırmışdı. Ağılsızlığından az qala ailəsini itirmək təhlükəsi ilə üzləşmişdi. Ailəsi dağılarsa, alacağı zərbədən uzun illər özünə gələ bilməyəcəkdi. Belə ağır anlarda Allahın Şamxalı evinə gətirməsi səhvlərini ört-basdır etmək üçün ona verilmiş şans idi. O, bu şansı qaçırmamalı, necə var istifadə edib həyatının korlanmasının qarşısını almalı idi. Qəlbində Şamxalı sevməsə də ailənin qorunub saxlanılması naminə onun hər əzabına, nazına dözməyə hazır idi. Ən azı qorxduğu təhlükə sovuşana qədər.

Bir neçə dəfə cavabsız telefon zənginə Şamxalın yanında əhəmiyyət verməsə də ürəyində Cahidin işi olduğunu düşünüb acıqlanmışdı. Əlinə fürsət düşsəydi, dişinin dibindən çıxanı ona deyərdi.

Bir axşamüstü Şamxalın bostanda başı qarışıq olan zaman Əfiqə zəng gələn telefonun dəstəyini götürən kimi, Cahidi nəfəsinin hənirtisindən tanıdı. Qonşu binadan Şamxalın bostanda olduğunu görüb ürəklənmişdi:

– Əfiqə, necəsən? Darıxmışdım səninçün…

– Bilirsən nə var, gəl qurtaraq olmuş münasibəti. Imkan ver ailəm dağılmasın. Mənə, uşaqlarıma yazığın gəlsin. Xahiş edirəm səndən, bir müddət məni unut…

Cavab gözləmədən, doluxsunmuş halda dəstəyi yerinə qoydu. O bilirdi ki, Şamxal onsuz da dava-dalaş salmaq

üçün kiçik bir bəhanə axrtarır. Təsadüfən həqiqəti bilsə, boşamaq nədi, hətta onu öldürə də bilər. Gələn gündən ürək dolusu gülməyən Şamxalın gözlərinin dərinliyindəki buludlar hələ seyrəlməmişdi. Köksündə şəxsi dərdi olan, dərdini heç kimə açmayıb, özü daşıyan adama oxşayırdı. Kim bilir, bəlkə kimsə ona nəsə çatdırıb? Ola bilər ki, Cahid, ya da Təyyar kiminsə yanında ağzından söz qaçırtsın. Söz çıxdısa yayılmasına nə var ki?! Gizlin güman etdiyi Cahidlə görüşlərini Təyyar kimi xəlvəti izləyən, bilmədiyi neçələri var… Allah bilir. Təəssüf ki, Allaha da etibar yoxdu, gizlinləri gec-tez aşkara çıxarır. Şamxalın gözlənilməz, xəbərsiz gəlişindən sevinsə də xeyirli olacağına inamı az idi. Olmaya kimsə ona nəsə yazıb göndərib, o da özünü gözlənilmədən kəndə yetirib. Necəliyini bilməsə də ondan Şamxala xoş söz deyilmədiyinə yüz faiz əmin idi. Çünki son illər kobudluğu ilə ailəyə yaxın adamları özündən incik salmışdı. Eşitdiklərinin əksinə olaraq görünməyən mehribanlıq və qayğı ilə əhatə olunan Şamxal heyrətləndiyindən içindəkiləri boşaltmaq üçün elə bil məqam gözləyirdi. Əfiqənin çalışdığı isə o idi ki, mümkün qədər həmin anı gecikdirsin, Şamxalın qəlbindəki acığı, iradlarını xoş rəftarı ilə təmizləyib zərərsizləşdirsin.

* * *

Günlər keçdi, bir ay arxada qaldı. Şamxalın gözlədiyi qırx günün bitməsinə az qalsa da şübhələrində əsassız olduğunu yəqin edib əhvalı günü-gündən köhnə qaydasına qayıdırdı. Şamxalın çöhrəsinin açılmasına sevinən Əfiqə həftələr ötdükcə hamiləliyinin böyüdüyünü görəndə qanı qaralırdı. Evdəki mehribanlıq fəlakət qabağı sakitliyiə bən-

zəyirdi. Şamxal onun hamilə olmasını biləndə tufan qopacağından ehtiyatlanırdı. Tufanın qarşısını ancaq bir yolla almaq olardı: hamiləliyə Şamxalın özünün səbəbkar olmasına inandırmaqla. Inandıra bilməsə gözlədiyi tufandan salamat çıxmayacaqdı.

Hər dəfə bu barədə fikirləşəndə çəkdiyi iztirabdan əhvalı korlanırdı. Əfiqənin tez-tez fikrə getməsi, dalğın görünməsi Şamxalın gözündən qaçmamışdı. Hələ bir az da narahat olmuşdu: Onun əhvalının yaxşı vaxtında, hər şey qaydasında ikən, evin bir çətinliyi olmaya-olmaya Əfiqə niyə fikir çəkirdi? Bir iki dəfə onun fikrə getdiyini görüb qınamışdı:

– Nə olub sənə, nə fikrə getmisən?

– Heç nə, – Əfiqə tez fikirdən ayrılıb gülümsəməklə sualdan yayınmışdı. Əvvəl-axır deyəcəyi sözü birdən-birə açıqlamağa qorxurdu, cürəti çatmırdı. Gözləmədiyi vəziyyət alına bilərdi. Ləngitməklə münasib bir anın fürsətini gözləyirdi.

Xeyli götür-qoydan sonra, həmin anı Şamxal ilə yataqda xoş ovqat zamanı tapdı. Çılpaq qollarını Şamxalın boynuna sarıyanda təmasın şirinliyindən ərinin xoşlandığını görüb cəsarətləndi. Uğur naminə ehtirasla onun qulağının ətli hissəsini öpdü və nəfəsini çəkmədən qulağına xəfif səslə pıçıldadı:

– Bilirsən, bir məsələ var, heç bilmirəm sənə necə deyim. Yenə məni günahkar hesab edəcəksən. Ancaq əslində məndə heç bir günah yoxdur. Sənlikdir.

– De görüm, uzatma. Hə, nə düşüb könlünə, nə istəyirsən?

– Mən? Mən heç nə istəmirəm. Narahatlığım başqa şeydəndir. Səhv etmirəmsə, deyəsən uşağa qalmışam…

O, son sözlərini günahkar kimi çəkinə-çəkinə deyib gözlərini Şamxalın təəccüblü baxışlarından qaçırtdı.

– Uşağa qalmısan? Hə, nə olsun, bundan ötrü qanını qaraltma. Boş şeydir. Günü sabah apararam səni həkimə, götüzdürərik, qurtarıb gedər. Bəlkə, saxlamaq istəyirsən, hə?

– Yox, yox, – Əfiqə ərinin təmkinli tövrünə sevindi, – elə mən də onu düşünürdüm, ikisinin əzabı azmış, üçüncüsünü neynirəm…

Ertəsi gün Şamxal onu həmişə müraciət etdikləri tanış, yaşlı həkimin qəbuluna apardı. Müayinə zamanı Əfiqənin «gümanı» təsdiqləndi: o, hamilə idi. Həkim müayinəni qurtardıqdan sonra dəhlizdə gözləyən Şamxalı otağına dəvət etdi. Üzünü Əfiqəyə tutub dedi:

– Qızım, ərini də çağırdım ki, o, da mənim sözlərimi eşitsin. Belə başa düşdüm ki, siz abort etdirmək istəyirsiniz. Mən məsldəhət görürəm ki, tələsməyəsiniz. Gedin evinizə, oturub düşünün. Bəlkə abort etdirməyəsiz. Çünki artıq uşaq on iki həftəlikdir. Belə olanda əməliyyat zamanı baş verə biləcək ağır fəsadlar sizi gələcəkdə bir daha ana olmaqdan məhrum edə bilər. Sonrakı peşmançılıq isə heç vaxt fayda verməyib….

– Neçə həftəlik dediniz? – Şamxal səbirsizliklə onun sözünü kəsdi.

– On iki həftənin tamamıdır…

– Ola bilməz, – Şamxalın təmkinsiz sualının mənasını başa düşən Əfiqə hisslərini cilovlaya bilməyib həkimin sözünə etiraz etdi, – səhviniz var, düz demirsiniz, o qədər ola bilməz, bir də yoxlayın…

Əfiqə yalanının üstü açılan uşaq kimi həyəcanından pörtmüşdü. Onun qara qışqırığından özünü itirmək dərəcəsinə çatan həkim sakitləşməyi xahiş edirdi:

– Mənim balam, sakit ol. Sakitləş, imkan ver sözümü deyim. Mən nəyə görə yalan danışmalıyam. Sənin yaşın qədər stajım var. Ola bilər ki, vaxtını bir həftə, on gün irəli, səhv deyəm, artıq yox. Bir də ki, sənin canına yazığım gəldiyinə görə deyirəm. Mənə nə var, xoşun gəlmir işimi görüb haqqımı istəyəcəyəm. Dilindən də kağız yazdırıb razılığını alacağam, vəssəlam.

– Həkim düz deyir, – Şamxal təsdiqlədi, – fikirləşmək gərəkdi. Sən çıx çöldə gözlə, mən həkimdən söz soruşub gəlirəm.

Həkimin onun qayğısına qalaraq Şamxalı çağırıb hamiləliyin vəziyyəti barədə açıqlama edəcəyini Əfiqə heç vaxt ağlına gətirməmişdi. Qabaqcadan bilsəydi həkimə yalvar-yaxar dilə tutar, sirrinin üstünün açılmasına imkan verməzdi. Gərək əvvəldən abort söhbətini salmayaydı ortaya. Canı çıxıb saxlayardı, bu söhbət də olmazdı. Uşaq olanda da hamı güman eləyərdi ki, yeddi aylıqdır. Azmı olur elə, – heyfsləndi. Tezliklə, Şamxalın onun gizlinlərini aşkarlayacağına görə daxilini cansıxıcı narahatlıq bürümüşdü. Özünü sakit, səbirli aparsa da nigarançılığı içində olan həyəcandan xəbər verirdi.

O, Şamxalın sözünü yerə salmayıb, çarəsiz yerindən durub dəhlizə çıxdı. Fikri otaqda qaldığından qulağı oradan gələn ən kiçik hənirtini də eşitmək həsrətindəydi: görəsən nəyi soruşacaq? “Batdım, – ürəyi sıxıldı, – bu zalımın qızı özü də anlamadan məni məhv etdi. Guya xeyrimə çalışır. Sənin nə işinə qalıb mənə nə olacaq? Işini gör pulunu al da, insan da ruzisinə təpik atar – həkimin qarasına gileyləndi, – yox, bir yolla həkimin səhv etməsinə Şamxalı inandırmalıyam, yoxsa məni öldürəcək! Nə bilim, əgər inansa da…”

Şamxal həkimin otağından çıxanda tutqun baxışları Əfiqəni əndişələndirdi:

– Bu həkim yaşlaşdıqca ağlı çaşır deyəsən…

– Yeri deyil, evdə danışarıq, – Şamxal ona qulaq asmaq istəməyib bozardı.

Yol boyu heç biri dinmədi. Əfiqə yoldaşının danışmasa da üzünün ifadəsindən evə çatan kimi gözlədiyi tufanın başlayacağını yəqin etmişdi. Ərinin sözünə söz çatdıra bilməsə də bir yolu qalırdı: sakitləşənədək verəcək cəzalara dözmək və həkim qadının səhv etdiyinə inandırmaq…

Evə çatdılar. Əfiqə iş görmək bəhanəsi ilə həyətdə ləngimək istədi. Amma Şamxalın səbri çatmadı:

– Otağa keç, -üstünə acıqlandı, – işin başına dəysin. Əvvəl mənə cavab ver, sonra işini görərsən. Iş qaçmır…

O, sərt hərəkətlə arvadının qolundan tutaraq, boş otaqlardan birinə aparıb, arxasınca qapını örtdü.

– Hə, indi məni başa sal görüm, necə olur ki, mən bir aydı gəlmişəm, qarnındakının isə vaxtı on iki həftəni ötüb…

– Aydan çox keçib, – Əfiqə titrək səslə Şamxalın sözünə düzəliş verdi. Bir anlığa içindən gələn səsə mat qaldı. Nə qədər gizlətsə də səsində günahkarlıq həyəcanı, qorxusu vardı. Həmişəki guruldayan səsdən, haqq axtaran Əfiqədən əsər-əlamət yox idi. Daxilən qüvvəsi zəifləmiş, içində sanki boşluq, acizlik yaranmışdı.

– Olsun ay yarım. Lap sənin xətrin üçün hesab edək yeddi həftə. Bəs qalanını neyniyək? – Şamxalın həkimin otağından bəri aşıb-daşan qəzəbi danışdıqca sifətinə yayılır, gözləri parlayırdı.

– Elə deyil, o qoca səfehləyib, ağlına gələni danışır, – Əfiqə həkimi ciddi-cəhdlə pisləməklə ərini sakitləşdirmək istəyirdi, – sən mənə yox, onun sərsəmləməsinə inanırsan?

– Səfehləyən gərək ki, mən olmuşam. Deyirsən sərsəmləyib? Belədirsə bir, ya iki həftə səhv etsin. Axı onun nəyinə gərəkdir beç-altı həftə artırsın. Biz ikilikdə söhbət edəndə o mənə qaranlıq qalan müəyyən məsələləri anlatdı, ona görə də bil ki, ağzımı boza verməyin əbəsdir. De görüm uşağın atası kimdir? Uşaq kimdəndi?!.

– Uşaq kimdəndi?! Əlbəttə səndən. Kimdən olasıdı ki? Sən məni nə hesab edirsən?

– Yalan danışma!

Şamxalın hirsindən əlləri əsməyə başladı. Fikirləşmədən sağ əlini uzadıb arvadının boğazına keçirib sıxdı.

– Mənə bax, düzünü de! Inan Allaha, yoxsa əllərimlə boğazını üzüb öldürəcəyəm səni.

– Vallah, billah, düz deyirəm, – Əfiqə qorxudan canına üşütmə düşdüyü üçün bilərəkdən yalandan and içirdi, – mənə inan, o ləçərin sözünə inanma…

– O düz deyir. Günahını ört-basdır etmək məqsədiylə sən ay yarımı gizlədirsən. Elə bilirsən mənim heç nədən başım çıxmır? Yalan danışmağını sənə sübut edərəm, ancaq mən istəyirəm sən öz dilinlə hər şeyi etraf edəsən….

– Yalan demirəm, – Əfiqənin səsi xırıldadı, gözləri alacalandı. Şamxal onun boğulacağından ehtiyatlanıb əlini boşaltdı. Acığını soyutmaq üçün fikrini dəyişdi. Əlini onun boğazından aralayıb ardınca var qüvvəsi ilə sifətinə şapalaq çəkdi:

– Yalançısan sən! Xəyanətkar!

Səs-küyü eşidib, xəbərsiz otağa girən uşaqlar şapalaq zərbəsindən Əfiqənin yerə sərildiyini görən kimi ağlaşaraq özlərini analarına yetirdilər. Balaca Samirin şikayət dolu qəmli səsi ikinci zərbəni vurmağa qoymadı:

– Ana, sənə demədim ki, qov bu dayını evimizdən. O pisdir. Hardan gəlib, qoy ora da çıxıb getsin…

Şamxal əvvəlcə onların üstünə bağırmaq istəsə də, özünü topladı: bu binəvaların nə günahı vardı axı?

Vurduğu şapalaq hirsini soyutmadı. Barmağını döşəmədə uzanılı qalan arvadına silkələdi:

– Qulağını aç, deyirəm bil! Mən sənə gün verməyəcəyəm. Ya gəzdiyin oğraşın kimliyini deyəcəksən, ya da öldürəcəyəm səni, – əsəbindən otaqda dura bilməyib, qapını çırpıb otaqdan çıxdı.

Əfiqəni şapalaqdan çox ərinin ona ikrahla dediyi «xəyanətkar» sözü ağrıtdı. Xatirinə atalar məsəli düşdü: kor kora kor deməsə bağrı çatlayar. "Xəyanətkarın ən böyüyü özüdü, hələ utanmayıb mənə də tənə vurur, – düşündü. Mənim bu hala düşməyimə sən bais olmadınmı? Otuz üç yaşınadək nə qələtlər etmişdin, özün bilərsən. Evləndin, qıçını qatlayıb oturaydın evində. Nə başın qalmışdı yad ellərin düzlərində. Bəs deyildi yadlar üçün işləməyin, özgə küllüyünü bəsləməyin? Guya bu torpaqda çörək qazanmaq olmur. Torpağın günahı yoxdur, özün bacarıqsızsan. Kişinin oğlu buradakı ədalətsizliyə dözmür. Dözmürsənsə, deməli zəifsən, Vətənində işləyib hər əzaba dözüb yaşayanların harasından artıqsan? Artıq deyilsən ki, əskiksən. Doğru söz imiş, qeyrəti olmayan kişinin məsləki də olmaz. Ədalətsizliyə qarşı mübarizə aparıb öz yurduna xidmət etməkdənsə yad arvadların qucağına atılmağı üstün tutdun. Xain! Nəfsinin, tamahının qulu olub, torpağına xəyanət edəndən ailə səadəti ummaqmı olar? Xəyanət onun üçün bir içimlik su qədər asan: adi, tövbəsiz vərdiş… Indi məni xəyanətkar adlandırır. Qazancını, işini bəhanə edib, o bazar arvadlarına

görə evdə qanqaraçılıq salan, başından edib kəndə qaytaran, illərlə evinə ayaq basmayan sən deyilmisən? Bilmirdin ki, arvad daş deyil, o da insandır. Bir gün dözməyib o da sənə xəyanət edə bilər?!"

Təəssüf ki, Əfiqə bu sözləri yalnız ürəyində düşünə bilirdi. Qorxusundan dilinə gətirməyi bacarmırdı. Gücü ancaq dolmuş ürəyini ağlamaqla boşaltmağa çatırdı.

O gündən başlayan qanqaraçılıq bitmək bilmirdi. Şamxal sözünün üstündə möhkəm durmuşdu, Əfiqəyə aman vermirdi. Hər gün bağlı otağa salıb, sorğu-suala tutub döyməklə hirsini soyudurdu. Əvvəlcə döyülmə anları başlayanda Əfiqə günahsızlığını ərinə sübut etməyə çalışırdısa, sonrakı günlər and-aman etməkdən də yoruldu. Susub dözməkdən qeyri çarəsi yox idi. Dərdini kimə desin? Bu, elə bir dərd idi ki, kimsəyə demək olmurdu. Hətta dünyada ən yaxını, – anasına da deməyə ürək etmirdi. Şamxal isə inadından əl çəkmirdi. Aralarındakı açıq inciklik o qədər böyümüşdü ki, Şamxalın qara qışqırığı qapalı otaqdan çıxıb eyvana, oradan da ətrafa yayılırdı:

– Ayıb deyil qonşulardan? Niyə belə edirsən? Gərək hamı bilsin evimizdəki söhbəti, – Əfiqə gileylənirdi.

– Cəhənnəmə bilsinlər. Bezmişəm daha. Qoy yayılsın, sən gizlətsən də sorağı gedib o oğraşa çatsın. Vicdanı varsa, eşidib köməyinə gəlsin…

Qışqırıqları eşitməyinə qonşular eşitmişdilər. Gecə-gündüz nəzərlərini qonşusunun evindən, həyətindən çəkməyən Cahid Şamxalın, Əfiqənin qulağına dəyən səslərindən, həyətdə uşaqların ağlayıb bir-birinə qarışmasından evdə ağır, əsəbi şəraitin yarandığını duymuşdu. Baxmayaraq ki, sonuncu görüşündə ona unutmağı, ailəsini dağıtma-

mağı yalvarmışdısa da Əfiqənin çəkdiyi əzablara heç cürə biganə qala bilməzdi. Görəsən ciddi nə baş verib, nə olub ki, hər gün evlərində dava-dalaşdır, – fikirləşirdi. Cahid günlərlə çalışsa da imkan tapıb Əfiqə ilə nə görüşə, nə də zəngləşə bilirdi. Evdəki vəziyyətin günü-gündən pisləşməsi kənardan da hiss edilirdi. Əfiqə uzaqdan saçları dağınıq, qəmgin, xəstəhal görsənirdi.

Daha bir neçə gün ötdü, uşaqların ağlaşmasına Əfiqənin yanıqlı harayı qatıldı. Güman ki, Şamxalın qəzəbi aşıb daşdığı üçün Əfiqəni insafsızcasına döyməyə başlamışdı. Bu harayı eşidəndə Cahidin əlacsızlıqdan ürəyi partlayırdı. Əfiqənin fəryadı sanki onu kömək etməyə çağırırdı. Lakin, o nə edə bilərdi? Əfiqəni Şamxalın zülmündən necə qurtarmaq olardı? Şamxal deməzmi sən kimsən, ailə işimə nə haqla qarışırsan? Nədirsə, görünür olduqca ciddi məsələdir. Heç nədən arvadı hər gün döyməzlər ki! Bir həftədən artıq evlərində davam edən qanqaraçılığın şübhəsiz səbəbi vardı. Nə cür səbəb olsa da məgər Şamxal Əfiqənin hamilə olduğunu bilmir? Bilirsə hamilə qadını döyməyə necə əli qalxır? Yoxsa ondan deyil, başqasından uşağa qaldığını anlayıb, ona görə döyür, – Cahidin canından gizilti keçdi. Əgər belədirsə, bu məsələdən qan iyi gəlirdi. Əfiqə olanları etiraf etsəydi, bu zaman Şamxalla üzləşməli olacaqdı. Boynuna almasaydı Şamxal yazıq qızı ölən gününədək döyəcəkdi, istəyinə yetməyənədək rahat qoymayacaqdı. Əsla, oturub gözləməyinə dəyməzdi. Əfiqəni qorumaq, müdafiə etmək lazım idi. Axı bətnində daşıdığı uşaq onun idi. Həmin uşağın əzabını çəkirdi. Uşağının anası kimi Əfiqəni qorumaq ilk növbədə onun borcu idi. Ona görə də yubanmadan Əfiqə ilə görüşüb tədbir görməli idi.

Əfiqə ilə görüşmək isə çox çətinləşmişdi. Evdən kənara çıxmayan Şamxal günboyu onu gözündən qoymurdu. Ümid telefona idi. Danışmağa fürsət tapmaq üçün Şamxalın həyətə çıxıb otaqdan uzaqlaşmağını gözləməkdən başqa nə etmək olardı?

Cahid xəstələndiyini bəhanə edib bir gün işə də getmədi. Düşündüklərindən anasının duyuq düşməməsi üçün gün ərzində otağının qapısını örtüb pəncərəsindən gözlərini qonşu evə dikdi. Nəhayət axşamtərəfi sir-sifətindən zəhrimar yağan Şamxalın bağçada gəzişdiyini görəndə Əfiqə ilə danışmağa imkan yarandığına sevinib telefona əl atdı:

– Alo, eşidirsən, mənəm…

– Sən, – Əfiqənin səsində qorxu və narahatlıq vardı, – Nə istəyirsən? Dedim axı, əl çək…

– Qulaq as, de görüm nə olub?

– Heç nə. Sənlik leyil.

– Necə heç nə, sənlik deyil? Bəs onda neçə gündür səni niyə döyür? Niyə məndən gizlədirsən?

Əfiqə kövrəlib səsini çıxarmırdı. Qəlbinin dərinliyində Cahidin ona qahmar çıxmasına sevinsə də susurdu.

-Bilmir ki, səni döymək olmaz. Necə əli gəlir səni vurmağa? Eşidirsən, belə davam etsə, mən dözməyəcəyəm. Onunla dalaşmalı olacağam. Düz demirəm? Oturum gözləyim ki, səni nə vaxt döyə-döyə öldürəcək?

Kədərdən Əfiqənin boğazı qəhərlənmişdi. Danışası heyi yox idi.

– Alo, alo, eşidirsən?

Əfiqə pəncərədən Şamxalın evə tərəf addımladığını görüncə telefona cavab verməyib dəstəyi yerinə qoydu.

Dəstəyin atılmasının səbəbini Cahid başa düşdü. O da

otağının pəncərəsindən uzaqdan Şamxalın evə yaxınlaşdığını görürdü.

Əfiqə sussa da səsinin titrəməsi vəziyyətinin ağır olduğundan xəbər verirdi. Cahid düşündükcə onun halına acıdı: yəqin ki, uşağın ondan olmaması şübhəsi Şamxalın ürəyinə damıb, ona görə də yazığın gününü qara edib. Sirrinin üstünün açılıb hamı tərəfindən lənətlənməməsi üçün həqiqəti gizlədib hər əzaba, hər gün döyülməyə də dözmək məcburiyyətində qalıb. Ərini yalanına inandıranadək tab gətirəcəkdimi? Bəs inandıra bilməsə? Əgər Şamxal Əfiqəni çərlətsə, ya uşağa xətər yetirsə, özünə nifrət etməyəcəkdimi? Vicdanı onu qınamazdımı? Axı ailədə söz-söhbətə gətirib çıxaran hamiləliyin yaranmasında onun da iştirakı vardı. Hətta bir ay əvvəl Əfiqə ondan kömək istəyəndə tərəddüd etmişdi, könlündən ata olmaq keçmişdi. Indi dayanıb məsələnin necə qurtaracağını gözləmək ona yaraşardımı? Mütləq, nə yollasa Əfiqəyə kömək göstərməliydi. Əlbəttə, belə çətinlikdə onun qayğıya ehtiyacı vardı. Ancaq Əfiqə razı olmayacaqdı, onunla bağlı istənilən münasibətin xeyrindən çox ziyana, faciəyə səbəb olacağından kənar dayanmasını, qarışmamasını yalvarırdı. O nə edə bilərdi ki, Şamxal Əfiqəyə zülm verməkdən usansın. Bu qaraqabaq, özündən razı insana sözmü demək olardı? Onu necə başa salmaq olardı ki, gəl daşı tök ətəyindən, zalım qızına imkan ver insan kimi yaşasın. Deyilsə də xeyri olmayacaqdı. Əvvəlindən ağ günə həsrət qalan belə ailənin nə vaxtsa xoşbəxt yaşayacağı mümkün deyildi. Bəs onda nə etsin? Hazır idimi özündə güc tapıb Şamxalla qarşılaşsın, Əfiqəni sevdiyini bildirsin? Niyyətini dəfələrlə Əfiqəyə demişdi, heç şübhəsiz yenə etiraz edəcəkdi. Daha başqa çıxış yolu vardımı?

Cahid günlərlə düşündü, götür-qoy etdi. Çox fikirləşəndən sonra məsələnin birdəfəlik həlli üçün hər hansı vasitə ilə Şamxalı öldürmək, yox etmək qənaətinə gəldi. Əks halda bu xamır çox su aparacaqdı. "Tədbir" elə hazırlanmalıydı ki, "cəhənnəmə gedəndə" yoldaşsız, ziyansız getsin. Məqsəd aydın olsa da, niyyətə çatmaq çox çətin idi. Ümumiyyətlə mümkün idimi?!

Günboyu fikirdən, beynindəki yorğunluqdan Cahid bəzən gicgahının ağrıdığını hiss edirdi. Otağının qapısını arxadan bağlayaraq dünyanı unudub tək-tənha düşünüb daşınır, ölçüb-biçir, qərarlaşdıra bilmədiyi fikirlərin içərisində it-bata düşüb çarpayısında halsız uzanıb qalırdı. Axşama qədər halsız görünürdüsə, telefonla danışandan sonra keçirdiyi iztirabdan əsl xəstəyə oxşayırdı. Üzünün rəngi dəyişmiş, alnındakı qırışlar düyünləşmişdi.

Anası gün ərzində üç-dörd dəfə yanına gəlib əhvalı ilə maraqlanmışdı:

– Ay bala, bu yayın istisində sənə soyuq hardan oldu? Iki gündür işdən qalırsan, gəl həkim çağırım sənə baxsın, birdən başqa xəstəlik olar bilmərik, müalicəsi gecikər…

– Yox ay ana, sən Allah narahat olma, ola bilsin yüngül soyuq dəyib, soyuqdu da, gələndə adama xəbər verir ki, qabağını alasan. Həkim-filan lazım deyil. Iki-üç günə ötüb keçəcək.

– Nə bilim… Axır gözümə birtəhər dəyirsən, bax ha…

Cahid səhəri gün də işə getmədi. Günorta onu yoluxmağa gələn anası qonşulardan söz salıb giley-güzar etdi:

– Adamları tanımaq olmur, necə də sifətlərini dəyişirlər. Şamxalı deyirəm, kül başına, gündə arvadını yıxıb altına heyvan sayağı döyür. Qızın sir-sifətinə baxılmalı döyül.

Otur, ayla, illə uşaq saxla, ərini gözlə, bu da axırı. Nə bilim, adamlar niyə belə vəhşiləşib, dəyişiblər? Yəqin dünya dəyişib, ya da arvadının biz bilməyən bir günahı var…

Anasının sözləri Cahidin yaralı yerinə dəysə də qulaq asıb danışmadı. Evdə qaldığı iki gündə bir nəticəyə gələ bilməyib, fikirləşməkdən bezmişdi. Odur ki, başını qatmaq üçün səhəri günü işə getməyi qərara aldı. Onsuz da günlərlə evdə oturub fikirləşməyin bir xeyri yox idi.

Aradan iki gün də keçdi. Axşama yaxın Cahid işdən evə təzəcə qayıtmışdı. Şam yeməyindən qabaq otağındakı çarpayısında uzanıb dincəlmək istəyirdi ki, qonşuluqdan gələn imdad istəyən qadın çığırtısından əsəbləri gərildi. Neçə vaxt idi ki, az qala hər axşam eşidilən bu çığırtı ürəyini, həm də vicdanını ağrıdırdı. "Əclaf yenə Əfiqəni döyür," – qəzəblə düşündü. Özündən ixtiyarsız yumruğu yumuldu, qaşları çatıldı. Nə etsin? Dinləməkdən ayrı nə edə bilərdi ki? Kəsilməyən çığırtı isə ağlamaqdan çox haraya oxşayırdı. Haray sanki yalvarış idi, insaf diləyirdi… Kimdən?

Cahid daha laqeyid dura bilməzdi. Otağından çıxıb sürətli və geniş addımlarla özünü həyətə atdı. Anası onun hövlənak yerişini görüb narahatlandı:

– Ay bala, nə olub, hara gedirsən belə?

– Heç nə olmayıb ay ana, indi gəlirəm, – Cahid cavab verib bir göz qırpımında hasarı aşıb qonşu tərəfə – Şamxalın həyətinə keçdi. Evin pilləkəninin astanasında uşaqlar evdə baş verən haray qışqırığa adətkar olduqlarından büzüşüb sakitcə durmuşdular. Cahid yanlarından ötüb təngənəfəs özünü səs gələn otağın qapısına yetirdi. Qapını açıb gördüyü mənzərədən sarsıldı. Şamxal, arxası qapıya əlindəki qara qalın qayışla Əfiqəni üzü üstə döşəməyə yıxıb söyə-söyə kürəyini qayışlayırdı:

– Köpəyin qızı, əvvəl-axır alacaqsan boynuna, yoxsa yox? Düzünü deyəcəksən? Kimdir? Adını de! Yoxsa ölənəcən döyəcəyəm səni. Köpək qızı…

Əfiqə əlləri ilə üzünü örtüb acı-acı zarıyırdı. Heç birinin Cahidin qapını açıb donmasından xəbəri yox idi.

Cahid həqiqətən donmuşdu. Indi o ya içəri girib Şamxaldan çəkinmədən Əfiqəni müdafiə etməliydi. Ya da başına iş açmadan sakitcə dönüb gəldiyi yolla geri qayıtmalıydı. Geri qayıdacaqdısa niyə gəlmişdi? Sonra vicdanı qarşısında nə cavab verəcəkdi? Onsuz da bir gün Şamxal həqiqəti bilib ona düşmən kəsiləcəkdi. Qayıtmaq kişilikdən olmayacaqdı. Mütləq Əfiqəni, gələcək körpəsini qorumaq vacib idi. O, içəri irəliləyib arxadan Şamxalın qayışı havaya qaldırıb-endirən qolunu tutdu:

– Ay kişi, sən neynirsən, niyə döyürsən yazığı? Dayan görüm! Bu insandı, heyvan deyil. Heyvanı belə döymürlər…

Qolunun qəfil saxlanılması Şamxalı yerində qurutdu, Cahidi görüb heyrətləndi:

– Sən hardan gəldin?!

– Ay qonşu, on gündən çoxdur hər axşam bu biçarənin naləsini eşidirəm. Səbrim çatmadı yenə dözəm, gəldim ki, məni eşidib insafa gələsən. Rəhmin gəlsin, insandı bu, uşaqlarının anasıdı. Niyə bu qədər zülm verirsən?

Əfiqə də Cahidin gəlişinə heyrətlənmişdi. Əllərini qızarmış gözlərindən çəkib tərpənmədən, təəccüblə yaranmış vəziyyətə baxırdı. Cahidi görəndə qəlbən sevinsə də, bu qarşılaşmanın sonunun yaxşı qurtarmayacağını öncədən duydu.

Şamxal qəzəbdən parlayan gözlərini həqarətlə Cahidin üzünə dikib baxırdı:

– Başa düşmürəm, sən kimsən? Kimsən icazəsiz, özbaşına evimin içərisinə gəlib girirsən? Kim sənə haqq verib? Qapı gərək ki bağlı idi, küçə qapısını sənə kim açdı? Küçüklər?

– Heç kim, hasarı aşdım…

– Çox nahaq. Sən bunun, – Əfiqəni göstərdi, – nəyisən, belə narahat olursan. Qardaşısan, qohumusan? Nəyisən? Nə olsun ki, qonşusan? Qonşusan, çağır, deynən sənə sözüm var, yoxsa gəl gir evimin içinə. Xeyir ola belə canıyanan çıxmısan?

Üzünü Əfiqəyə döndərdi:

– Olmaya sən çağırıbsan?

Ufuldaya-ufuldaya döşəmədən ayağa duran Əfiqə etiraz edərək başını tərpətdi:

– Mənim kimsənin köməyinə ehtiyacım yoxdur. Mən heç kəsi çağırmamışam.

Əfiqə ayağa durub nə edəcəyini bilmirdi. Şamxalın tərəfində dursun, yoxsa Cahidin? Yaxşısı heç qarışmasın, çıxsın otaqdan, özləri kimin haqsız olduğunu araşdırsınlar. Çaşqınlıqdan düşündüyünü gizlədə bilmədi:

– Sən gərək gəlməyəydin…

Bu sözləri söyləyərkən Əfiqənin Cahidə yönələn təəssüf dolu mənalı baxışları Şamxalın nəzərindən yayınmadı. Arvadı qonşuluqda yaşayan cavan oğlanla elə tərzdə danışırdı ki, yaxından tanıdığı adam kimi – sıxılmadan, çəkinmədən. Elə bil eyni ailənin üzvü və ya neçə illərin tanışı idilər. Qaynını, əmisi oğlunu görəndə çəkinən, sıxılan Əfiqədə qonşunun oğlu ilə belə yaxınlıq haradan yaranmışdı? Necə olmuşdu indiyədək bilməmişdi, – Şamxalın daxilində əmələ gələn qeyri-adi maraq içini acışdırdı.

Əfiqənin sözləri Cahidi pərt etdi, belə gərgin şəraitdə təkləndiyini düşündü. Axı o, bura pis niyyətlə deyil, döyülən, təhqir edilən köməksiz insanı müdafiə etmək, zülmü dayandırmaq üçün gəlmişdi. Ruhdan düşməyən Cahid Şamxalı insafa dəvət edirdi:

– Qardaş, düzdür, məndən yaşlısan, pis başa düşmə, adamı döyməklə iş aşmaz. Günahı varsa ayrı cəza ver. Heç olmasa uşaqlarını yadına sal.

Əsəbləri sakitləşməyən, beynindəki fikirləri bir-birinə qarışan Şamxal çağrılmayan qonağın «nəsihətlərindən» iyrənib onu evdən rədd eləmək, qovmaq qərarına gəldi:

– Bilirsən nə var, beynimi aparma, özüm yaxşı bilirəm nə edirəm. Günahı var döyürəm, öz işimdi. Bəsdi mənə ağıl öyrətdin. Sən kimsən, bas bayıra, xoş getdin! Bir də gəlib mənim ailə işimə qarışma. Vallahi, sənin özünü də salaram qayışın altına, ağlın gələr başına…

Daxilində gizlənmiş qəzəbindən Cahidin nəfəsi karıxdı: beləsini sözlə başa salmaq olmayacaqdı. Nə etsin? Başa düşmürsə öldürməyəcək ki! O, öldürmək üçün gəlməmişdi. Dönüb kor-peşman qayıtmaqdan savayı əlacı qalmadı. Hirsini birtəhər boğdu, gedərkən son anda sadəcə xəbərdarlıq etmək istədi:

– Get deyirsən, gedirəm. Unutma ki, sonra peşman olacaqsan. Boylu qadına əl qaldırmağının ziyanını çəkəcəksən.

Cahidin axırıncı cümləsi Şamxalın qanını qaynatdı. O, Əfiqənin boylu olmasını hardan bilir? Necə olur ki ailəyə məxsus sirri kənar adam bilir, üstəlik ona xəbərdarlıq edir. Dönüb otaqdan çıxmaq istəyən Cahidin qarşısını kəsdi. Iki əlli yaxasından yapışdı:

– Dayan görüm, tələsmə. Məni başa sal görüm sən onun

hamilə olduğunu haradan bilirsən, kimdən eşitmisən, necə öyrənmisən? Eşidirsən, cavab ver mənə!

Cahidin rəngi ağardı. Qızışıb səhv buraxdığını, ağzından söz qaçırdığını anladı. Şamxalın ondan əl çəkmək fikri yox idi:

– Hə, nə oldu, niyə danışmırsan, dilini uddun? Başa sal görüm necə olub ki, mənim arvadımın hamiləliyindən sənin də xəbərin var. Mənə bax, gözlərini qaçırma, gözlərimin içinə bax...

Yaxasından tutaraq çevik hərəkətlə qayışı Cahidin boynuna keçirib özünə tərəf çəkdi. Dik baxa bilmirdi Cahid. Şamxalın gözündəki nifrətin gücü səsini batırmışdı. Ürəyində özünə acığı tutmuşdu. Əfiqə düz deyirmiş, o gərək gəlməyəydi. Əgər əlindən bir iş gəlməyəcəkdisə, nə başı qalmışdı burda? Boş-boş danışmağa nə var ki! Bacarmayacaqdısa, Əfiqəni xoşbəxt eldə bilməyəcəkdisə, niyə bədbəxtliyə sürükləyir? Doğrudan da həyatı başa düşmək üçün o hələ uşaqmış…

– Susursan…. Deyəsən kələfin ucunu tapmışam. Əclaf! Sən onun aşnasısan. Çoxdan səni axtarırdım, gəlib öz ayağınla çıxmısan. Tfu, sənin murdar vücuduna, – nəfəs-nəfəsə durduğu Cahidin sifətinə tüpürdü, – oğraş! Bildim, elədir ki var, bu sənin işindi. Xain qonşu!

Istehza ilə gülümsəyib bir əli ilə Cahidin boynuna saldığı qayışı sıxdı, digər əli ilə zərblə yumruğunu alnının ortasına vurdu. Cahid yumruğun təsirindən başının içərisinin qarışdığını hiss etdi, gözlərindən od çıxdı. Daha dözülməli deyildi. Ömründə heç kim onu belə təhqir edib üzünə tüpürməmişdi. Beyninin silkələnməsi ağlını başından çıxartdı. Geri çəkilməyə yer qalmamışdı: ya öləcək,

ya öldürəcəkdi. O da yumruğunu toplayıb cavab zərbəsini Şamxalın sifətinə endirdi:

– Xain özünsən, xəyanətlə çörək qazanan…

Cahidin yumruğu Şamxalı qızışdırdı. Vəziyyət gərginləşdi. Əlbəyaxa olub bir-birinə güc gəlməyə başladılar. Cahidin cavanlığına baxmayaraq həm boy, həm də çəkidə Şamxaldan üstün olmamasından uduzacağı aşkar görünürdü. Gözünün qabağında baş verənlərə tamaşa edən Əfiqənin sinəsindəki həyəcandan nəfəsi təntiyir, ürəyi döyünür, özünə yer tapa bilmirdi. Necə etsin bunları ayırsın? Bu dava xoşluqla bitməyəcəkdi, kimsə axıra sağ qalmayacaqdı….

Az keçmədi Şamxal Cahidə üstün gəlib, altına yıxdı. Yıxmağı ilə onun boynuna keçirdiyi qayışı sıxmağa başladı. Qayış sıxıldıqca Cahidin nəfəsi daralır, gözləri genəlir, yavaş-yavaş boğulurdu.

"Boğub öldürəcək!" Şamxalın vəhşiləşmiş simasını və Cahidin çapalamasını görən Əfiqə dəhşətlə yəqin etdi. Anlar keçəcək Cahid sağ qalmayacaqdı. Sonra da onu öldürəcəkdi. Bu qansızın qarşısı alınmalıdı, – ürəyində qərarlaşdırdı. Imkan vermək olmaz ki, niyyətinə yetsin.

Əfiqənin bərk-bərk döyünən ürəyi yerindən çıxırdı. Niyə dayanmışdı? Ona görə, savaşan Cahidə kömək etməliydi, oturub gözləməməliydi. Daha düşünmək vaxtı qurtarmışdı. O, yerindən cəld tərpənib yaxınlıqdakı ağır dəmir kətili qucağına götürərək, gücünü toplayıb arxadan Şamxalın başına çırpdı. Kətil Şamxalın başına dəyəndə qayışı sıxan qolları boşaldı, huşunu itirib bütün ağırlığı ilə Cahidin üzərinə çökdü.

– Kələyimi kəsmişdi, – nəfəsi yerinə qayıdan Cahid minnətdarlıqla Əfiqəyə baxdı, – sən olmasaydın məni öldürəcəkdi…

Özünə gələrək Şamxalı üzərindən ağır yük kimi kənara itələyib ayağa durdu. Əfiqə etdiyi hərəkətin gərginliyindən hələ tam azad olmamışdı. Görəsən o, düzmü etdi, – düşünürdü. Düz, ya səhv, başqa yolu yox idi, – özünə haqq qazandırırdı.

– Hə, indi neyniyək? – Cahid üst-başını qaydaya salıb soruşdu.

– Nə qədər ayılmayıb öldürməliyik. Biz onu öldürməsək, ayılıb ikimizi də öldürəcək, – Əfiqə israr etdi, – gözlə mətbəxdən baltanı gətirim.

Əyilib Şamxalın nəbzi yoxlayan Cahid etiraz etdi:

– Zəhmət çəkməyə dəyməz. Murdar olub.

– Ölüb? – Əfiqə inana bilmədi.

– Deyirsən ölə bilməz? Inanmırsan özün yoxla.

Ölməyin nə olduğunu sanki indi dərk etmiş Əfiqə ayaq üstə dura bilmədi, yaxınlıqdakı divanda əyləşib başını əllərinin arasına aldı:

– Indi necə olacaq? Bu cəmdəyə görə hər ikimizi tutacaqlar.

– Sən narahat olma, – Cahid ona yaxınlaşıb başını əlləri arasından çıxarıb özünə sıxdı. – Hamısı mənlikdi. Səndən kim soruşsa, de ki, otaqda olmamışam. Eyvana çıxmışdım, dava necə oldu görməmişəm. Buradan çıxıb özüm polisə xəbər verəcəyəm.

Cahid onun saçlarından, dodaqlarından öpüb otaqdan çıxdı. Əfiqənin könlündən ağlamaq keçsə də gözündəki yaş da özü kimi donmuşdu...

* * *

O şirinli-acılı xatirələri Cahid hər dəfə xatırladıqca özünə yer tapa bilmirdi. Ətrafındakı hər kəsdən kənarlaşıb dünyadan küsmüş guşənişinə dönürdü…

Həmin gün Cahid Şamxalı öldürdüyünü xəbər verib, özünü polisə təslim etdi. Polis şöbəsində, həm də camaat içində bu hadisə birmənalı qarşılanmadı. Hadisənin bütün təfərrüatını boynuna götürən Cahid istintaqa Əfiqənin iştirakı olmadan Şamxalı özünümüdafiə zəminində qəsdsiz, təsadüfi zərbə ilə öldürməsini açıqlamışdı. Əlbəttə, özünü müdafiə etməkdə qeyri-adi heç nə yox idi. Hamıya qəribə gələn Cahidin Şamxalın evinə özbaşına daxil olub, onun arvadını müdafiə etməsi idi. Onu nə vadar etmişdi ki, belə addım atmışdı. Insanlıqmı? Nə qədər and-aman etsə də Cahidin insanlıq iddiasına kimsə inanmaq istəmirdi. O isə istintaq boyu Əfiqənin ölüm hadisəsində  iştirak etməməsində, təkcə özünün günahkar və müqəssir olmasında israrlı idi.

Axı, o, necə razı ola bilərdi ki, Əfiqə də onunla birgə həbs olunsun? Buna heç vaxt razı ola bilməzdi,vacib olan istənilən yalanı doğru kimi təqdim edib imkan verməzdi. Əfiqənin yolunda hər əzabı çəkməyə, hazır idi. Təki onun Əfiqəsi azadlıqda qalsın, xoşbəxt yaşasın.

Baş verən hadisə onların gizlin görüşmələri barədə yayılan şayiələrin doğruluğunu təsdiqləmiş oldu. Bu səbəbdən Şamxalın qəzəblənmiş ailəsi dəfn gününün axşamı uşaqları əlindən alıb Əfiqəni atası evinə köçməyə məcbur etdi. Ölümdə onun Cahidlə əlbir olmasını yəqin edən Şamxalın anası, bacısı və qardaşı yerbəyerdən üstünə çığırdılar, aman diləməyə imkan vermədilər:

– Rədd ol, qancıq, atanın xarabasına! Sənin bu evdə yaşamağa, o uşaqlara analıq etməyə haqqın yoxdu. Çıx get, gözümümüzə görünmə, sən ləçərsən, ləçər, itil...

Ürəkləri soyumayan ailə ərinin ölümündə yaxından iştirak etməsi ilə onu təqsirləndirərək istintaqa şikayət edib,

həbs olunmasını tələb etdilər. Hamiləliyini də bağışlamadılar. "Bic uşağa ehtiyacımız yoxdur, – dedilər, – kimdən qazanıb o da yiyə dursun".

Əfiqənin canı döyülməkdən, Şamxalın dözülməz zülmündən azad olsa belə, daxilən məşəqqətli günlər yaşayırdı. Yağışdan çıxıb yağmura düşmüşdü. Cismani əzablardan qurtulub mənəvi sarsıntılara düçar olmuşdu. Heç demə, hamının gözündə alçalmaqdansa, hər gün evində döyülmək özü də bir səadət imiş, – düşünüb ötən günləri üçün təəssüflənirdi. Axı, o, dəfələrlə Cahidə  xahiş etmişdi ki, qarışmasın ailə söhbətinə. Qarışıb nəyi yaxşı etdi? Gərəksiz hərəkəti hər şeyi korladı, özünü də, onu da bədbəxt etdi. Başına nələr gəlmədi?! Şamxalın ailə üzvləri hamılıqla onu ölümdə günahlandırıb ən acı, ən ağır söyüşlər və təhqirlərlə uşaqlarından ayırıb, evindən çıxardılar. Gizlədə bilmədiyi hamiləliyinə görə "bic törədən", "gəzəyən" damğaları ilə el içində rüsvay etdilər. Amma Cahid gəlib qarışmasaydı belə, Şamxal ondan yaxşılıqla əl çəkməyəcəkdi, gec ya tez onu biabırçılıqla evdən qovacaqdı...

Atası evinə qayıtmaqdan savayı çarəsi olmayan Əfiqəni valideynləri də xoş üzlə qarşılamadılar. Qızına görə utandığından küçəyə çıxmayan atası günlərlə nə üzünə baxdı, nə də kəlmə kəsdi. Təkcə anası rəhmi gəlib az-çox onu başa düşməyə çalışdı. Qalan hamının gözündə əcaib məxluqa dönmüşdü. Olan olmuşdu. Allah ağlını almaqla cəzalandırıbsa, anası onu anlamamaqla qızının vəziyyətinin daha da ağırlaşmasına kömək etmiş olardı. O da  dayaq olmazsa Əfiqənin özünü öldürə biləcəyindən qorxurdu. Qızı ölərsə, nə dəyişəcəkdi? Üstündəki ləkə götürüləcəkdi, yoxsa Şamxal  diriləcəkdi?

Hamıdan gizlənib taleyinə lənətlər yağdıran Əfiqə, həqiqətən bir neçə dəfə belə yaşamaqdan bezərək dərmanla canına qıyıb intihar etmək istəmişdi. Duyuq düşən anası qarşısını alıb imkan verməmiş, doğulacaq körpəsini xatırladıb, ona rəhm eləməsini yalvarmışdı. "Əgər uşaq Cahiddəndirsə, həqiqətən bir-birinizi sevirsizsə, niyə özünü öldürürsən, – deyirdi anası, – illər keçəcək Cahid cəzasını çəkib qurtarandan sonra yeni, xoşbəxt həyat qurarsız. Indisə pis günə qatlaşmaq, səbr etmək lazımdı."

Anasının sözünü eşıdib körpəsinin xatirinə çəkdiyi sarsıntılara dözməkdən savayı əlacı qalmamışdı. "Ilahi, həyatın boyu nə qədər əzaba dözmək olar," – düşünürdü Əfiqə. Ağlı kəsəndən ömrünü qarşısına çıxan saysız-hesabsız çətinliklərə dözə-dözə yaşamışdı. Həyat başlanğıcından sonadək dözmək üçünmüş?!

Cahid istintaq zamanı hər şeyi öz boynuna götürsə də, Şamxalın ailəsi Əfiqəni həbs etdirmək naminə qalaq-qalaq şikayət ərizələri ilə cinayət işinin yekunlaşmasını, məhkəmənin gedişatını ləngidirdilər. Hətta işi aparan müstəntiq Ibişovu da rüşvətlə ələ almışdılar. Odur ki, işi başlayarkən tezliklə sonuclanmasına cəhd edən Ibişov gözlənilmədən fikrini dəyişmiş, vaxtaşırı Əfiqəni sorğu-suala tutub, tez-tez Cahidlə üzləşdirməklə işin bağlanmasını çək-çevirə salmışdı. "Haqqını" aldığı üçün cani-dildən haqqın, ədalətin müdafiəsinə qalxmışdı:

-Vətəndaş Vəlili, – Cahidə müraciət edirdi, – gəl səmimi olaq. Niyə istintaqa düzgün ifadə vermirsən? Gün təki aydındır ki, sən cinayəti təkbaşına etməmisən. Sənin fiziki imkanların mərhumunkindən zəif olduğu halda necə oldu ki, onu guya təsadüf nəticəsində öldürdün. Ola bilməz ki,

mərhumun arvadı baş verənlərə əhəmiyyət verməyib başqa otağa keçsin, hər hansı bir formada sənə köməklik etməsin…

– Bilirsiz, cənab müstəntiq, – Cahid inadından yorulmurdu, – mən sizə hər dəfə yerli yerində, ətraflı şəkildə ifadə vermişəm, vəssalam. Ifadəmi nə olur-olsun dəyişməyəcəyəm.

– Dəyişməyəcəksiniz, nə olar, canınız sağ olsun. Cəzanı artıq edərik, iki nəfərin cəzasını çəkərsən. Vaxt gələr, peşman olarsan. Yadında saxla bu sözümü, həqiqəti müvəqqəti ört-basdır etmək olar. Amma gec, ya tez bir gün qiymətli əşya kimi öz yerini nişan verəcək. Zaman isə gedir, ömürdən keçən günlər bir də geri qayıtmayacaq. Səhvlərin səni bağışlamayacaq. Sən boynuna almasan da haqqında yayılan söz-söhbətdən belə məlum olur ki, Əfiqə ilə gizlin, həm də çox yaxın əlaqədə olmusuz. Iddia edilir ki, hamiləliyi səndəndir. Onu əvvəlcə ərindən, indi isə cəzadan müdafiə edirsən. Inanırsan ki, bu xeyirxahlığının əvəzi olaraq o, səni alacağın cəza müddətinin sonunadək gözləyəcək? Iki-üç il rəsmi ərinin yoxluğuna tab gətirməyən qadının səni azı on il gözləməsinə inanmaq nə qədər sadəlövhlükdür?!

– Xeyr, Əfiqə elə də dözümsüz qadınlardan deyil, – Cahid acıqlandı, – siz nahaq danışırsınız. Onda təqsir yoxdur, nə var mənlikdir. Sevdiyimi danmıram. Bu səbəbdən də onu müdafiə etmişəm. O təqsirsizdir.

– Olsun. Onda belə danışaq. Qarşıdakı illər ərzində məhəllədə və ya kəndinizdə kiminsə sənin sayaq özgənin arvadına, konkret olaraq Əfiqəyə gözü düşməyəcəyinə, səndən əfəl olacağına əminsənmi?

– Bəsdirin! – Cahid Ibişovun sözlərindəki istehzadan qeyzləndi, – əl çəkin məndən. Dedim ki, mən fikrimdən dönməyəcəyəm, ifadəmi dəyişməyəcəyəm.

– Kefinə bax, – müstəntiq tövrünü pozmadı, – mən sənin üçün deyirdim. Fikirləş, məhkəməyə qədər hələ vaxtın var…

Müstəntiqin dedikləri uzun müddət Cahidin qulaqlarından çəkilmədi. Qəlbinə dəyən sözlərini xatırladıqca acıqlandı, gah da onu fikrindən döndərmək üçün dəridən-qabıqdan çıxmasına ürəyində güldü. Şübhəsiz, Şamxalın yaxın adamları Əfiqəni işə qatmaq üçün Ibişova «lazımınca hörmət» eləmişdilər. Yoxsa ona nə xeyri vardı Cahidin qayğısına qalsın. Istər yeddi il iş alsın, istər on iki il. Fərqi vardımı onun üçün…

Müstəntiqin ağzını yaya-yaya soruşduğu “inanırsan ki, cəza müddətinin sonunadək gözləyəcək?” sualının cavabı, əslinə qalanda onun özü üçün də maraqlı idi. Doğrudanmı illər keçər, nə vaxtsa Əfiqə onu da başqasıyla dəyişər? Ya da aşkar olmasın, lap elə onunla olan sayaq – kiminləsə gizlicə sevişər… Yarım ildən çox görüşsələr də, Əfiqə onu sevdiyini dilinə gətirməmişdi, özünə heç bir öhdəçilik götürməmişdi. Olanların bir daha təkrarlanmayacağına nədən arxayın idi?

Nə qədər belə sualları düşünmürdü, daxilən rahat idi. Müstəntiqin iynəli sözləri qəlbini ağrıdandan bəri beynində qaynayıb qarışan fikirlər onu əldən salırdı. Hərhal, o, düz hərəkət edirdi, – içində qürurlanırdı, – onun bu anda mənliyinin, kişiliyinin sübutu sevgilisinin həbsə düşməsinə imkan verməməsiydi.

Məhkəmənin başlanmasına iki həftə qalmış qəfildən onun görüşünə gələn Ibişovdan Əfiqənin hamiləlikdən azad olduğunu, qızı dünyaya gəldiyini eşitdi.

– Qız kimindi? Düzünü de, sənindimi?

Müstəntiqin ilk baxışdan adi görünən sualına veriləcək səmimi cavab qaranlıq qalan mətləbləri aça bilərdi. Ona görə də eşitdiyi xəbərdən sevinməklə yanaşı Əfiqənin yanında olmamasından qəmlənən Cahid keçirliyi hisslərini gizlətməyi bacardı. Qaşlarını çatıb gülümsədi:

– Düzünü anası bilər, mən haradan bilim?

– Zarafatı boşla. Belə güman edilir ki, doğulan qız uşağı səndəndir.

Əgər təsdiqləsə, onda gərək Əfiqə ilə olan bütün münastbətlərini açıb tökməliydi ortaya. Odu ki, bilərəkdən istehza etdi:

– Yox, mənlik deyil. Məndən olsaydı oğlan olardı, qız yox.

– Hamiləliyin başlanğıcı Şamxalın gəlməyindən əvvələ düşürsə, səndən deyilsə, bəs kimdəndir?

– Bilmirəm, – yenidən əsəbiləşdi, – bilmək də istəmirəm. Bəyəm uşaqların hamısı vaxtında doğulur? Vaxtından tez olanı olmur?

– Olur, olur. Həyatda hər şey olur. Hələ təəccüblənəsi çox işlər olacaq, – Ibişov mənalı nəzərlərlə süzdü, – mən nə bacarırdım, onu da etdim. Mən işimi bitirdim. Yaxın günlərdə məhkəmən başlayacaq, cəza müddətin təyin olunub, həbsxanaya göndəriləcəksən. Harda olsan, nə vaxt istəsən, fikrini dəyişəndə məni axtara bilərsən.

Müstəntiqin işini qurtarsa da ondan əlini üzmək istəməməsini Cahid heç cürə başa düşə bilmirdi: o, nə istəyirdi, nəyə ümid edirdi? Yaxasını əlindən güclə qurtaran adamın bir daha nəyinə gərək olacaqdın ki, səni axtarsın da…

***

Həftələr ötdü. Dörd aydan çox uzanan istintaqdan sonra nəhayət məhkəmə quruldu. Məhkəmənin hökmü ilə müstəntiq Ibişovun söylədiyi kimi on il azadlıqdan məhrum edilmə cəzasına məhkum olunan Cahid şəhər kənarındakı cəzaçəkmə müəssisəsinə göndərildi.

Qazamatda günləri elə də pis keçmirdi. Müntəzəm olmasa da yaxınları növbə ilə hər həftə görüşünə gəlir, onu həyatdan küsməyə qoymurdular. Dilinə gətirməyə üzü gəlmədiyindən gəlib gedəndən qəlbən umduğu yalnız Əfiqə və körpəsi haqqında hər hansı bir adi məlumat idi: görəsən necədirlər? Bütün istintaq boyu Əfiqənin adının ləkələnməməsi üçün sadəcə sevməyindən qeyri aralarında heç bir yaxınlığın baş vermədiyini, deyilənlərin şayiə olduğunu bildirmişdi. Indi kimə deyə bilərdi ki, Əfiqənin qızı mənimdi. Düşünürdü, görəsən balacanın ona bənzəri vardımı? Kaş qızını bircə dəfə yaxından görə biləydi…

Nədənsə soruşmasa heç kim onlar haqqında danışmaq istəmirdi. Əksinə, başını yırğalayıb üstüörtülü sözlərlə həyatını boş yerə korladığına görə qınayırdılar. Görəsən nə baş verdi? Niyə hamı Əfiqədən söz salanda söhbəti döndərib ayrı mövzuya keçirdi? Görüşə gələn əmisi oğlundan güc-bəla ilə öyrəndiyi şayiələrə inanmağı gəlmirdi. Yəqin ki, deyilənlərin əksəri Şamxalın qohumlarının uydurmaları idi. Guya Əfiqə Şamxalı öldürtdürəndən sonra Cahidin də on il həbsdə qalacağını görüb ondan da əlini üzüb. Indi də Şamxalın uzaq qohumu Təyyarla gəzir. Təyyar hara, o hara? Ağıla sığan işə oxşamırdı, – inanmırdı Cahid. Qabalığı, kobudluğu ilə seçilən bağlarda gözətçi işləməkdən sa-

vayı bir iş bacarmayan, yaşı ötsə də özünə bir gün-güzəran qura bilməyən, pozğun qadınların arxasınca sümsünməyi ilə qürrələnən, ağıldan kəmin birisinin Əfiqə ilə münasibəti necə yarana bilərdi?! Utanmır qohumunun arvadı ilə ad çıxarır...

Ürəyini ağrıdan suallar Cahidə günlərlə rahatlıq vermədi. Mütləq inandığı insan gərək idi ki, danışılanların şayiə, yoxsa həqiqət olmasını aydınlaşdırsın. Yoxsa fikirdən üzüləcəkdi.

Məhkumlar arasında ona olan münasibət də birmənalı deyildi. Haqq verən az idi, əksəriyyət başqasının ailə söhbətinə qarışmağı düzgün iş saymırdı. Gördüyü soyuq münasibətə görə kimsəyə qaynayıb qarışmadan çox vaxt gününü təklikdə keçirərdi.

Onu başa düşən həmdərd tapa bilmirdi. Anasını xatırladı. Təcili görüşə çağırıb ürəyini boşaltmalıydı. Anası hökmən ona həqiqəti çatdıracaqdı, acı olsa belə. Vaxtında, o, Əfiqə ilə olan münasibətini gizlətməyib anasına bildirsəydi, indi gəlib həbsə düşməzdi, buraxdığı səhvlərin qarşısı alınardı.

Anası incimişdi. Həbs olunarkən oğlunun insanlıq xatirinə gələcəyini qurban etdiyini düşünən ana Şamxalın valideynlərinin Cahid barəsində dediklərini heç cürə qəbul etmirdi. Onun oğlu qonşunun arvadını sevsin, gizlin əlaqədə olsun? Bu ola bilməzdi. Özünün haqlı olduğuna inanmaq istəyən ana elə birinci görüşdə onu sorğu-suala tutmuşdu:

– Mənə düzünü de. Deyirlər guya sənin Şamxalın arvadı ilə gizlin münasibətin varmış, ona görə də müdafiə etmisən. Insanlıq-filan bekara söhbət imiş. Doğrudur? Gözümə düz bax…

Kimə yalan desə də, anasını aldatmağı bacarmayacaqdı. Boğazı quruduğundan udqunub gözlərini qaçırtdı. Başını aşağı salladı:

– Ana, mən Əfiqəni yeddinci sinifdən sevirəm…

– Demək, düz imiş. Qarnındakı da səndəndir? Qeyrətsiz! Sevməyə qız tapmırdın, gərək kiminsə arvadını sevəydin?

– Ana, – Cahidin səsi titrədi, – bağışla, keç günahımdan, ağlım olmadı. Allah məni kor edəndən sonra başqasını necə görə bilərdim…

Həyat yoldaşını cavan ikən itirən, iki qızını evlərə köçürüb, gözünü oğluna dikən ananın arzuları heçə dönmüşdü. Cahid nə qədər yalvar-yaxar etsə də, könlünü ala bilməyib, anasının gözündən düşmüşdü. O, inciyən Əminə arvad daha görüşə gəlmirdi. ”Kişi də öz qonşusunun arvadına tamah salarmış? Nədən belə oldu? Axı, o, oğluna belə tərbiyə verməmişdi. Düzdür onu ərköyün böyütmüş, nəzarətsiz, sərbəst buraxmışdı. Hamısı gecə-gündüz televiziya kanallarında verilən əxlaqı aşındıran serialların, internetin ziyanlı təsirindəndir ki, cavan nəsil günü-gündən korlanır, mənəviyyatı pozulur,” – ana düşündükcə qeyzlənir, oğlunu necə bağışlayacağını bilmirdi.

Oğlunun ard-ardınca gələn yalvarış dolu məktubları nəhayət, günlərin birində ananın ürəyini yumşaltdı. Ürəyi tab gətirməyib halına acıdı, acığını unudub, oğluna dəyməyi qərara aldı. Son məktubundakı sətirlərdən Cahidin darıxmaqdan əlavə Əfiqə və körpə qızı barədə narahatlığı da hiss olunurdu. “Eşitdiklərimin, bildiklərimin hamısını söyləyəcəyəm, – anası fikrində qət etdi, – qoy bilsin ki, mənim ondan küsməyə əsasım var. O özü hesab etdiyi kimi sevgisinin yox, axmaqlığının qurbanıdır”.

Bir səhər müəssisənin radiosu ilə adının görüşə çağırılanların sırasında çəkildiyini eşidən Cahid yubanmadan yaşayış sahəsindən çıxıb görüş yerinə tələsdi. Görüşə baxan nəzarətçi onu görən kimi irişdi:

– Anan gəlib. Bax ha, o dəfəki görüş kimi olmasın, şirinliyimizi artıqlaması ilə verəcəksən…

– Problem yoxdu, imkan olan qədər edəcəyəm, amma bir xahişim var, görüş zalda yox, ayrı otaqda olsun, yaxşımı? Anamla vacib söhbətim olacaq.

-Sən haqqını nəğd elə, düzələr...

Cahid yarım ildən artıq çəkən uzun fasilədən sonra anasının görüşünə gəlməsinə ürəyində çox sevinirdi. Görüş otağında anasını görəndə kövrəldi, doyunca öpüb qucaqladı, yaxınlarının, qohum-əqrəbalarının halını tələm-tələsik soruşub, neçə müddətdir canını üzən əsas mətləbə keçdi:

– Ana bilirəm, belə iş tutduğumuza görə məndən də, Əfiqədən də acığın gəlir. Amma burda qulağıma çatan şayiələr neçə vaxtdır məni dəli edib. Sən düzünü bilərsən. Doğrudurmu Əfiqə Təyyarla sevişir, gizlin gəzir?

– Nə bilim? Yanlarında olmuşam? Sənlə gəzəndə xəbərim vardı ki, indi də xəbər bilim?!

– Məsəl var od olmayan yerdən tüstü çıxmaz, yəqin nəsə var…

– Təyyar onun başına fırlanmağına, fırlanır, eşitdiyimə görə guya almaq istəyir. Deyirlər bu işin alınmasına Əfiqənin, evlərinin də könlü var. Şamxal tərəfinin onu qəti görməyə gözləri yoxdur. Bu məlumdur. Səni də illərlə gözləyib ömrünü yelə verməkdənsə anası qızının Təyyara getməyini münasib bilir.

– Bəs mənim ömrüm ömür deyil? – Cahid hirsləndi: – Əfiqə düşünmür ki, ona getsə mənə xəyanət etmiş olur. Elə

olsa mən də cinayət işinə yenidən baxılmasını tələb edəcəyəm. Necə olur, mən illərlə türmədə çürüyəcəyəm, o isə ərə gedib kefindən qalmayacaq, özgəsinə arvad olacaq…

– Bir dəfə yolda rastlaşanda soruşdum ki, günlərin bir günü sənə görə cəza çəkməsinə Cahidin peşman olmayacağına əminsənmi? Qayıtdı ki, olmaz, inşəallah. Arxayındı bəxtəvər, sənə!

Cahid eşitdiyi sözdən karıxdı:

– Yaxşı, o mənə arxayındı. Bəs Təyyar haradan peyda oldu, o kimə “arxayındı”, Əfiqəyə?

– Qızına!

– Nə qız?

– Bilirsən oğul, məsələ bundadır ki, Əfiqənin təzə doğulan qızı çox güman ki, sənin deyil. Elə yaxşı ki, sənin deyil.

Cahidin maraqdan gözləri böyüdü:

– Mənim deyil, Şamxaldan da deyil, bəs kimdəndi?

– Sənin mavigöz, qıvrımsaç qızın ola bilməz. Təyyar körpəni görəndən sonra aləmə car çəkib ki, Əfiqənin təzə doğulan qızı ondandır, atası mənəm. Keçən yay fürsət tapıb Əfiqə ilə olub, indi də qızını saxlamaq, böyütmək niyyətilə onu almağa razıdır.

– Elədirsə niyə mən bilməmişəm? Yəni məndən gizlədiblər?.. Inanmiram, özündən uydurur.

– Düz də deyir, bir gün təsadüfən rastlaşanda mən də diqqətlə uşağa baxmışam, qız ona oxşayır, onundur.

Cahid hirsindən partlayırdı: gözünün önünə Təyyarın hər dəfə onu görəndə “dostyana” istehzalı gülümsəməsi gəldi...

– Adam adama oxşayar da, nə olsun. Inanmıram, ola bilməz...

– Yaxşı, bəs onda niyə Əfiqə susur, Təyyarın ağzından vurmur?

– Bu necə, nə vaxt, harda olub? Ifritə! Xəyanətkar! Belə çıxır ki, həm mənimlə görüşüb həm də mənə xəyanət edirmiş...

Cahid hirsindən əllərini üzünə tutub ağlayırdı:

– Allah şahiddir ki, onu necə sevirdim... Heyiflər olsun. Deməli öz maymaqlığımdan xəbərim yoxmuş... Mən onun xainliyini heç vaxt bağışlamayacağam, bu heyfi onda qoymayacayam. Arxayın olmasın. Tələb edəcəyəm təzədən məhkəmə qurulsun. Qoymaram o azadlıqda qalıb başqasına arvad olsun. Mütləq, hərə öz layiqli cəzasını almalıdır.

Oğlunun bu halından üzülən ana onu qucaqlayıb sakitləşdirməyə çalışdı:

– Mənim ağılsız uşağım, ağlama, ayıbdı. Özü büdrəyən gərək ağlamasın. Vacib deyil məhkəmə olsun, pislik üçün tələsmə. Onsuz da Allah hər kəsə layiq olanı yetirəcək. Səbirli ol. O, səbirli olanları sevir…

* * *

Cahid səbrli ola bilmədi. Heç cürə anlaya bilmirdi ki, Əfiqə onunla sevişə-sevişə necə olub ki, Təyyarla da "yatıb"? Yox, əgər yatmayıbsa, Təyyar özündən uydurursa, uşaq niyə ona oxşasın? Əfiqə onu nə hesab edirmiş? Sevgisinə, çəkdiyi əzablara budumu onun cavabı?..

Bir həftə sonra təqsirləndirildiyi cinayəti təkbaşına törətmədiyi barədə yazdığı ərizə əsasında və müstəntiq Ibişovun xüsusi fəallığı nəticəsində cinayət işinə yenidən baxılması üçün istintağın başlanılmasına qərar verildi.

Əfiqənin heç də şayiələrdə danışılan sayaq Təyyarla yaxın münasibəti yox idi. Yaranan söz-söhbətin əsas səbəbi

körpəsinin Təyyara oxşaması və Təyyarın boş-boş çərənləmələri idi. O, daim sevgisinə inandırmaq istədiyi adamın indi onu məhkəməyə dəvət etməsini eşidəndə karıxdısa da, təəccüblənmədi. Özündə olmayanı başqasından ummağa dəyməzdi...

Yəqin ki, danışılan şayiələr Cahidin qüruruna toxunmuşdu, – Əfiqə anlayırdı. Amma necə etsin? Cahidlə necə görüşüb günahının onunla münasibətdə olmasını desin?.. Qohumu Təyyarın həmin münasibətin ucbatından törənən alçaqlığını ondan gizlədiyini danışsın... Necə inandıraydı ki, uşağın kimin olmasını özü də dəqiq bilmir...

“Bəs deyirdi, səni dünyalar qədər sevirəm, sənə görə ölümə də gedərəm. Eh, Cahid, Cahid... yaşın artsa da sən böyümədin,” – Əfiqə düşünürdü.

O, səhv etmişdi, gərək tənhalığın bütün məşəqqətlərinə dözüb Cahidə ümumiyyətlə baş qoşmamalıydı... Əgər Şamxal kişi kimi ailəsinə yiyəlik etsəydi, onu sevib qiymətləndirsəydi, heç tənha qalardımı?..

Əslində, eyni mühitdə yaşayan insanların bir-birinə bənzəməsi təbii və qanunauyğun hal idi. Gec ya tez, bütün saxtalıqların sonu vardı. Görünür acı da olsa həyat həqiqətlərinin araşdırılmasının vaxtı yetişmişdi. Sözə dəyər verilməməsi, adamlar arasındakı vəfasızlıq qəlblərdə günü-gündən adiləşir, insanlıq cılızlaşırdı...

Cahidin ərizəsindən sonra cinayət ortağı hesab edilib həbs olunarsa, şübhəsiz, Təyyar da xəyalına son qoyub, ondan imtina edəcəkdi. “Türməyə düşən” arvad kimə lazım idi...

İndi onu təkcə Şamxalgil yox, Cahidin anası da – hamı ləçər hesab edirdi: “ləçər Əfiqə”... O, nədən “ləçər” oldu?

Niyə ona belə acı tale nəsib olmalı idi? Həyatı, dünyanı yetərincə anlamamış, sevməmiş-sevilməmiş ərə verdilər. Xoşbəxt olmaq əvəzinə, əzab dolu həyat yaşadı. Axtarsan bəlkə də yaşıdlarından hələ də təhsilini davam etdirən, həqiqi məhəbbətini gözləyənlər vardı. Onu isə müqəssir kimi məhkəmə işi gözləyirdi.

Məhkəmə prosesində qanunda maddəsi, cəzası olmayan xəyanət və xəyanəti edən xainlər aşkarlanacaqdı… Yəqin ki, hamını düşündürən bir çox suallara cavab axtarılacaqdı: əsas xəyanətkar, günahkar kimdir?! Niyə sevgili, qonşu, qohum sayılan bu insanlar bir-birinə dönük çıxmışdılar? Nə, kim səbəb idi namərdliyin, dönüklüyün təntənəsinə?! Yoxsa zəmanəni haqqın yolundan döndərib, vətəni qürbətə çevirən, təkcə öz xeyrini güdərək insanlığa, cəmiyyətə tüpürən simasızlar, acgöz qurd xislətli insan cildinə girmişlərmi yaratmışdı bu vəziyyəti?!

Müqəssir kim idi?.. Yalnız zavallı Əfiqə idimi müqəssir?..

* * *

Məhkəmənin təyin edildiyi günə bir həftə qalmış kənddə hamını təəccübləndirən xəbər yayıldı: axşam tərəfi naməlum istiqamətdə həyətlərindən çıxmış Əfiqə nə gecə, nə də sabahı günü evə qayıtmamışdır. Axırıncı dəfə onu kənddən bir qədər aralı keçən su kanalının kənarında hava qaralanadək gəzişən görmüşdülər.

Bütün gecəni tikan üstündə keçirən, gözünə yuxu getməyən ata və anasının səhəri günü kənddə axtarmadıqları yer qalmadı. Gümanı gələn hər yeri, hər qarışı yoxladılar – qonşuları, qohumları, tanışları – Əfiqəni gördüm deyən olmadı. Su kanalının ətrafı boyu üzüaşağı – üzüyuxarı ki-

lometrlərlə ərazi axtarıldı, bir nişanə tapılmadı. Əfiqə yox olmuşdu, elə bil buxarlanıb göyə çəkilmişdi.

Belə olanda qonşu kəndlərdə, şəhərlərdə yaşayan qohum-əqrəbaya zəng vurub Əfiqəni soraqladılar. Axtarışların üçüncü günü də heç bir nəticə alınmadığını görəndə qızlarının itkin düşmələri qənaətinə gələn valideynləri kömək üçün polisə müraciət etdilər.

Səksəkəli daha üç gün keçdi. Qızından yaxşı xəbər eşitməyəcəyi ürəyinə daman ananın ağlamaqdan gözləri şişmiş, səsi tutulmuşdu.

Yeddinci gün su kanalının axıb qonşu rayonda töküldüyü böyük göldə kimliyi bilinməyən bir insanın meyitinin görünməsi xəbəri polisə çatdırıldı. Polis meyitin kimə aidliyini araşdırmaq üçün təşkil etdiyi mütəxəssislər qrupu ilə hadisə yerinə yollandı.

Meyit günlərlə suyun içində qaldığından şişib tanınmaz hala düşmüşdü. Əynindəki paltarı didilib paralanmışdı. Sanki, utanırmış, üzünü kimsəyə göstərmək istəmirmiş kimi ləpələrin üzərində üzüqoylu yırğalanırdı...

Xüsusi təhqiqata, laborotoriya analizlərinə ehtiyac yox idi. Polisə qoşulub gələn kənd adamları Əfiqəni uzaqdan – paralanmış donundan tanımışdılar.

O, itməmişdi, heç yerdə gizlənməmişdi, məhkəmə gününə özünü çatdırmışdı...

***Mart 2016***